**RƏSUL RZA**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

BEŞ CİLDDƏ

II CILD

"ÖNDƏR NƏŞRİYYAT"

BAKI-2005



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tərtib edəni: **Anar**

Redaktoru: **Arif Əmrahoğlu**

**894.3611-dc 21**
**AZE**
**Rəsul Rza. Seçilmiş əsərləri.** Beş cilddə. II cild. Bakı, "Öndər nəşriyyat", 2005, 320 səh.

Bəşər dərdinə sirdaş olub dünyanı öz "mən"i üstündə kökləməyi bacaran Rəsul Rza sənətçi varlığının bütün mahiyyəti etibarilə XX yüzilin şairi kimi əsrin bütün təzadlarını, yüksəlişini və ümidlərini, dövrün dərdlərini, faciələrini yaşamış və lirik-fəlsəfi əsərlərində gah birbaşa açıq, gah da yasaqlar üzündən örtülü - Ezəp diliylə əks etdirmişdir.

Əsərlərinin beşcildliyinin II cildinə şairin müxtəlif illərdə yazdığı silsilə şeirlər daxil edilmişdir. Narahatlıq və qayğı dolu şair ömrünün uzun və şərəfli axtarışlarının məhsulu olan bu şeirlər silsiləsi özünün yüksək poetik humanizmi, dərin fəlsəfi tutumluluğu ilə nəzər-diqqəti cəlb edir.

Kitabda şairin, sözlərinə mahnı bəstələnmiş poetik parçaları ilə yanaşı satirik-yumoristik ruhda yazdığı şeirlərinə də yer verilmişdir.

**ISBN 9952-416-67-8**

© "ÖNDƏR NƏŞRİYYAT", 2005



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti

İLHAM ƏLİYEVİN

**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**

12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Şeirlər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## PROMETEY

Yuxuda gördüm Prometeyi.
Qollarından zəncirlənmişdi
sal qaya daşma.
Bir quzğun
caynaqlarıyla
didirdi köksünü onun.
Prometey nə zəncir ağrısından,
nə köksünün
şırım-şırım yarasından
inləyirdi,
nə aman diləyirdi.
Gözlərində əks etmişdi
bir insan ocağının şöləsi.
Dodağında bir qələbə qımışığı vardı.
Prometey
iztirablarıyla bəxtiyardı!

*1969*

## AĞASFER

İnsan Ağasferin faciəsini bilə-bilə
razılaşmadı.
"Dinmə! İnan!"
taleyilə.
Əbədi sərgərdanlıq qorxusu belə
onu azadlıq arzusundan
döndərə bilmədi.
İnkvizisiya,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ölüm düşərgələri də
onu
"Dinlə! Əyil!"
yollarına göndərə bilmədi.

*1969*

**QALUANIN SON GECƏSİ**

Yalqız deyiləm, tək olsam da.
Qəlbim,
beynimin qarışıq dalğaları,
intizarım, bir də Qalua;
özü yox, xəyalı.
Qarışıb fikirlərimə
son gecəsi ilə gəlib,
duelindən bir gecə əvvəl.
Gəlib Qalua -
Firəngistanın dahi balası.
Tanışam onunla 25 il olar;
onun ömür yaşından çox.
Tanış olmuşam
xatirələr vərəqlərində.
Bir gecədə işıqlı ulduz kimi
parladı dühası.
Mürəkkəb düsturlar
töküldü vərəqlərə rəqəm-rəqəm
ömründən bir səhər qalmış.
Düşünürəm,
hansı uğurlu gecədə
nəsib olacaq mənə
Qaluanın son gecəsi?
Deyirəm nəsib olsun kiməsə.
Olsun, səhəri duelli olsa da.
Birgecəlik sətirləri qalsın.
Əsrlər onları oxuyub
Yana-yana, qürurla nəfəs alsın.

*Bakı-Mərdəkan,*
*12-14 mart 1980*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## O'HENRİNİN ÜMİD YARPAĞI, XƏSTƏ QIZ VƏ HƏKİMİN ÖLÜMÜ

Gözləri pəncərədədir xəstənin.
Xəzan üfürür yarpaqları
budaqlardan.
Xəstənin gözləri son yarpaqdadır.
Yarpaqlar uçur bir-bir
xəstənin qürub günləri kimi.
Bir yarpaq,
yalnız bir yarpaq enmir budaqdan -
ümid yarpağı.
Günlər keçdi
ağlı-qaralı,
Yarpaq qırılıb solmadı.
Xəstə qız sağaldı.
Bir mərmər daşında yazıldı
ümid yarpağını yaratmış
rəssamın adı.
Budur gözəl həyat;
Ölümün bahasına olsa da,
bir ümid yarpağı
yarat.

*10 mart 1980*

## OXUYA BİLMƏDİYİM KİTAB

*E.Heminqueyə*

Oxudum vərəqləri,
gah təəssüflə,
gah maraqla çevirə-çevirə.
Sevindim,
qəmləndim.
Səhifələrdəkilər
güldülər,
ağladılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həsrət çəkib dərdə dözdülər.
Dinlədilər.
Danışdılar, danışdılar,
danışdılar.
Mən onlarla dostlaşdım,
düşmənləşdim.
Ürəklərinin içinə baxdım;
bir kirayənişin
yeni otağa baxan kimi.
Arzularını, ümidlərini duydum.
Çevirdim vərəqləri;
gah ümidlə,
gah qəzəblə,
gah riqqətlə,
gah əzabla,
gah laqeyd.
Mən istəsəydim
bir neçə səhifəni ötürüb,
bilərdim,
güllələdilərmi onu körpü başında,
ya yetişdimi sevdiyi qadına.
Bu mənim ixtiyarımda idi.
Lakin
ən yaxın dəqiqəmin
qarşı sahilində nə var?
Bilmirəm.
Hansı səhifədə axtarım
"Ömür" deyilən qəribə kitabın
son sətrini!
Bilmirəm.
Necə duyum uzaq günlərin
kədər, sevinc ətrini?
Bilmirəm.
Bilsəm də,
ən yüngül ağrının dadını;
eşidə bilmirəm,
köçəri quşlar kimi,
gedən günlərin
əbədi ayrılıq fəryadını.

*yanvar, 1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**PİKASSO İLƏ SÖHBƏT**

Sən Fransaya bağlısan,
Mən Azərbaycana.
Mənim Kəbəm Bakıdır,
səninki Paris.
Sən onsuz yaşaya bilməzsən,
(Parisdə yaşamayanda belə)
mən Bakısız.
Sən də kommunarlar şəhərinə vurğunsan,
kommunarlar yolundasan,
mən də.
Nə sən Parisdə vardın,
nə mən Bakıda
kommunarların qanı töküləndə.
Onlar düşmən gülləsinə hədəf oldu,
sən nadan sözünə.
Əsərlərini bəyənməyənlər də var;
rəsmin əlifbasını öyrənmədən.
Düz yolda gedənlər də var;
üzdəniraq,
boyunları dönmədən.
Ünvanına tək-tək
Qafiyəli hərzə də yağdırdılar.
O günlərdəki
yığın-yığın insan
tablolarını görmək üçün,
sərgi salonu qapılarını dağıdırdılar.
Yoldaş Pablo Pikasso!
Sən Fransada,
mən Bakıda.
Göyərçinlər uçur şəhərimin göylərində
Necə də bənzəyirlər sənin göyərçininə.
O göyərçin ki,
gəzdi dünyanı diyar-diyar,
ülfətin carçısı kimi;
sənin qəlbinin canlı parçası kimi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən demirəm səni anlayıb,
sevməlidir hamı.
Heç olmasa, unudulmasın
bütün dillərdə tərcüməsiz səslənən
ağ göyərçinin salamı.

*noyabr, 1961*

## ÇARLI ÇAPLİNƏ

Nə tez getdin, deyirəm,
Hələ dünyada nə qədər
gülə-gülə ağlatmalı vardı.
Hələ nə qədər insan yolundan
ləkə kimi silməli,
tikan kimi atmalı vardı.
Çarli!
Böyük ürəkli balaca adam.
Sənsiz kor qızların[1] taleyi necə olacaq.
Yenə də dünyada qızıl qızdırması[2] var axı
daha qaynar, daha amansız.
Sən mübarizə meydanında
gülüşünü döyüşə hazır qoydun
ən qorxulu silah kimi.
Özün necə vaxtsız getdin,
necə zamansız.

## OXU, ROBERTİNO OXU!

Oxu, Robertino!
Sənin nə dərdin –
Bulaq suyu kimi təmiz
səsin var.

[1] "Kor qızlar" Çaplinin "Böyük şəhərin işıqları" filmində kor qıza işarədir.
[2] "Qızıl qızdırması" Çaplinin eyni adlı filminə işarədir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məncə, dünyanın
ən xoşbəxt adamıdır
ürəkdən, könüldən oxuyanlar.
Dünyanın qəlbinə tökmüsən
nəğmələrini;
xal-xal, avaz-avaz.
Dinlədikcə deyirəm:
- Qoca dünyamız gəncləşir yəqin;
elə gözəldir, yapışıqlıdır,
eşidimlidir nəğmələrin.
Çox dinləmişəm
həzin nəğmələrini
müdrik, qoca Şərqin.
Bir yeni dünya açır
qulaqlarımda
sənin büllur Şərqin.
Nə muğamatbazam,
nə caz aşiqi.
Hərdən susayıram
"Çahargah" üçün.
İstəyirəm aləm sükuta girsin,
dünyada tək qalım,
qəlbimlə baş-başa.
Qulaq asım, qulaq asım,
Qulaq asım
"Rast"ın yanıqlı hekayətinə,
"Yetim segah"ın şikayətinə.
Robertino!
Nə böyük səadətdir
nəğməçi olmaq;
insanları insanlaşdıran
köklərlə, xallarla
könüllərə dolmaq.
Belə kövrək, belə titrək
oxuyursan,
bəlkə görməmisən dünyanın
qarasını, ağını.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fəryad nəğmələri
yandırmayıb
dilini, dodağını.
Günlərin acısını duymamısan,
dili nəğməli Robertino -
Balaca insan!
Bəzən bilməmək də səadətdir,
Robertino!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## HƏR FƏSLİN ÖZ GÖZƏLLİYİ VAR

Yadıma düşdü
keçən qışın
büllur sırsıraları.
Təzə qar üstündə gördüyüm
quş, heyvan ləpiri də.
Gəzməkdə bəhs edə bilməz mənimlə
dostlardan biri də.
Yadıma düşür
küləkdə sovrulan,
tonqal çırtdaqları kimi
qarlarda oyanan
qış səhəri.
Yadıma düşür,
deyirdim əriməsin qar.
Buz sırğalarını salmasın
budaqlar.
Yadımdadır, o qış da,
o qar da.
Yadımdadır, ayrılmaq istəmədiyim
keçən yay da,
keçən bahar da.

*yanvar, 1962*

## BAKIDA QAR

Küçələrə qar yağır.
Adamlara qar yağır.
Eyvanlara, damlara,
sərçələrə qar yağır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bil ki, budaqlar
əslində budaq deyil,
əyri çubuq uzanmış
qarların kölgəsidir.
Bakının küçələri,
elə bil, Bakı deyil,
boranlı, fırtınalı
bir şimal ölkəsidir.
Meydan, sahil, dağ, dərə
Təzə qarla doludur.
Keçib gedir adamlar.
Adamlar çəkməlidir,
Adamlar paltoludur,
Sərçələr ayaqyalın
İstəyirəm qışqıram:
- Uşaqlar, ay uşaqlar!
Qartopu oynayanda
paltarsız, ayaqyalın,
dən gəzən sərçələri
bir anlıq yada salın!

*Bakı, yanvar, 1964*

**QIŞ GUNU**

Pəncərəm buz bağlayıb
yarpaq-yarpaq,
Otağımda hərarət
sıfır üstü 23.
Küçədə çılpaq ağaclar
qısılıb bir-birinə.
Gətirə biləydim onları otaqcığıma -
qızınsınlar.
Yarpaq naxışa dəymə qızım, sınar!
Çağır gəlsin ağacları -
qızınsınlar.

*yanvar, 1966*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MƏN BAHARI DUYURAM

Hər yan qardır;
meşə, budaqlar, yollar,
evlərin üstü.
Bacadan burula-burula qalxır
təzə qar kimi ağappaq tüstü.
Şaxta hərdən dəcəlləşir;
qulağımı dişləyir.
paltomun qoluna girir,
yaxamla əlləşir.
Ancaq elə bil, hardasa, nəsə,
Bahar gəzir qışla nəfəs-nəfəsə.
Bəlkə şaxtanın
bir neçə saat sürən şiddəti,
bəlkə qarların azalmış bərəkəti,
bəlkə Günəşin
gündən-günə mehribanlaşan hərarəti
həm sevinc, həm kədər verir.
Yazı gələn,
qışı gedən xəbər verir.
Bəlkə, səbəb təqvimdir.
Bayaq qopardım
"Mart" yazılı varağı.
Bəlkə günortalar
sırsıralardan damcı-damcı tökülən
bahar özüdür;
qar yorğanı deşib
axtarır həsrət qaldığı torpağı;
- Gəlirəm mən, mən, - deyə, -
xəbər olsun qoynunda mürgüləyən
ota, çiçəyə.
Nigaranam mən səndən, - deyə.
Bəlkə,
könlümə sevinc pıçıldayan
bugünkü məktub,
mənə "bahar", "bahar" deyir ki,
qarı meydan-meydan,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şaxtası xəncər
qışı unudub,
deyəm: - Bahar yaxındır!
Bahar,
yolu bir neçə gecə-gündüz
çöllərdə, meşələrdədir.
Bəlkə də, ona görə ki,
bilirəm,
anamın doğma elində,
Araz, Kür sahilində,
indi qışın arxası yerdədir.
Odur ki,
qəlbimdə bahar sevdası,
bahar nəfəsi,
xatirimdə ala-çalpovun
mülayim küləyi,
dilimdə Novruz nəğməsi
axın-axındır.
Şaxta neyləyəcək mənə!
Bahar yaxındır!
Bahar yaxındır!

*Peredelkino, 1960*

**NOVRUZGÜLÜ**

Ot, quzu qırpımı!
Novruzgülü səpələnib hər yana;
yaşıl məxmər üstünə tökülmüş
mirvari danələri kimi.
Elə bil, ağ buluddan
damla-damla tökülüb.
Hər yanda novruzgülü!
Novruzgülü!
Bəlkə də, sabah
bir şaxta yandıracaq onu?
Yandırsın!
O xəbər verdi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baharın yaxın olduğunu.
Şaxtada məhv olsa da,
zalım bir hökmdar yanına gəlmiş
xoş xəbərli elçi kimi,
bu ölüm məhzun etməsə də heç kimi,
novruzgülü
nə gileylənər, nə küsər.
Yetər ki, o,
çöllərə, çəmənlərə
bahardan verdi xəbər.
Novruzgülü
nə gileylənər, nə küsər.

1958

**YAZ GƏLİR**

Pəncərəmi açmışam,
Günəş gəzir otaqda.
Küsmüş bir qonaq kimi
xəbərsiz getdi şaxta.
Bir qonaq ki,
söhbəti çox uzundu;
qəm gətirirdi səsi.
Bir qonaq ki,
iliklərə sızırdı
acı, soyuq nəfəsi.
Pəncərəmi açmışam.
Çöldən evə yaz gəlir.
Yaz yox,
yazın qoxusu.
Hələ yerin canından
çıxmamışdır soyuqların qorxusu.
Pəncərəmdən gələn yaz
yazılmamış bir nəğmənin
ilk xalları kimidir,
Bir körpənin xəyalları kimidir.
Həqiqətdir, əfsanəyə bənzəyir,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir xəyaldır, həqiqəti bəzəyir.
Hələ zərif çiçək kimi
özü küləkdə əsən ılıq,
yeni nəfəsdir.
Olsun, olsun, nə zərər.
Qışı yola salana,
baharı duymaq üçün
inanın, bu da bəsdir.
Havadan birəm-birəm
enir qar.
İnsanlar!
Ay insanlar!
Könlümüzdədir bahar.

*Bakı, 1951*

**BAHAR**

Haray çəkib gəlir bahar,
Daşır sellər, aşır sular.
Məndən sənə bir yadigar
Qalsın şirin sözüm, barı!

Əğyar nədir, qadam ona
Ki, baş qoşa adam ona.
Gözlərinin badamına
Qurban olum özüm, barı!

Keçən günü kim qaytarar?
Ürəyimdə bir arzu var:
Bənövşəni qatar-qatar
Yar telinə düzüm, barı!

Gözlərimi dikdim yola.
Dedim, bəlkə gəldin ola.
Nazın qədər səbrim ola,
Həsrətinə dözüm, barı!

*Göyçay, 1959*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## PAYIZ YARPAQLARI

Sarısı, qırmızısı, solğun yaşılı var.
Elə bil,
Müxtəlif rəssamların
fırçasından düşüb
yarpaqlar.
Budaqbir,
kökbir.
Torpaq, su, havabir.
Düşünürəm: bu müxtəliflik nədir?
Nə bütün ağaclar
bir vaxtda bar verir,
nə bir vaxtda çiçək açır.
Görünür, təbiət də yeknəsəklikdən qaçır.
Açıq püstəyi də olur
yarpaqlar;
gümüşü, qızılı da.
Alavı da, mərcanı da olur
yarpaqlar.
Hər fəslin, hər iqlimin
tükənməyən rənglər kataloqu var.
Baxıram:
artıq baharı gedib, yayı gedib
payız yarpaqlarının.
Uşaqlıq günləri,
gənclik ayı gedib
payız yarpaqlarının.
Yoxsa, həsrətinin şiddətini, göynəyini
artırmaqçın yarpaqlar
belə al-əlvan eləyib köynəyini?
Amansızdır təbiətin hökmü;
hər canlının bir gün gəlir
yarpaq tökümü.
Bunu unutmasam,
unutmasa,
unutmasan;
daha xoşbəxt yaşayar insan.

*noyabr, 1966*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SALXIM SÖYÜDÜN SARI YARPAQLARI

Budaqların qotaz-qotaz
sallanıb suya.
Bilmirəm, xəzan qorxusu, ya
məhəbbətdir onları qulac-qulac
sığallayıb düzüb yan-yana.
Qoynuna alıb səni
durğun su - gümüş ayna.
Çubuqlara sarıköynək kimi
düzülüb yarpaqların.
Dimdiklərini uzadıb
su içirlər
sağa-sola baxa-baxa.
Bəlkə də, hörmətlə baş əyirlər
köklərinin beşiyi torpağa.
Sənə nahaq yerə
"məcnun söyüd" adı qoymayıblar.
Səndə bir aşiq həzinliyi,
bir xəzan riqqəti var.
Görünüşün qəm gətirir demirəm,
düşündürür məni.
Həyat - səhər,
ölüm - qürub.
Gündüzlərin, gecələrin
min insan ömrü boyu
tükənməyən sorğu-sualı
məni cavaba çəkir,
könlümdə ilişib asılı qalır.
- Barsız, - deyə səndən üz döndərmədim.
Mən bilirəm,
meyvələr müxtəlif olur.
Budaqlar var -
bara həsrət,
budaqlar var -
bar ucundan tələf olur.
Meyvə var qoxlayıb "oxqay", dedim.
Eləsi də var



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baxdım, baxdım, dərmədim.
Yoxdursa da sənin barın,
mənə əzizdir kölgəsi
naxış-naxış sarı yarpaqların.
İstəyirəm xəfif bir yel olub
pıçıldayam qulaqlarına:
"Məcnun söyüd, qəm yemə,
az qalır, az qalır,
yeni yarpaqların baharına!"

*fevral, 1962*

## YARPAQLAR TÖKÜLMƏSİN

Baxıram, baxıram, gözlərim doymur.
Heyrətə salır məni
payızın zərgər işi.
Qızıla bax!
Zümrüdə bax!
Yaquta bax!
Sallanıb gilə-gilə,
düzülübdür budaq-budaq.
O yanda dağlar,
bulud topası kimi
ağappaq.
Yeddi dərədən keçib gələn
əks-səda kimi
duyulur nəfəsi qışın.
Lakin payızdır,
payıza məxsusdur,
çölləri bəzəmiş həzin fəslin
hər yarpaq ülgüsü, hər naxışı.
Baxıram, baxıram,
Nə olar,
meşələr soyunmasın!
Yarpaqlar tökülməsin!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*yanvar, 1962*

*İşıqlar üşüyəndə*

**LÖVHƏ**

Günəş qızıl yaylığını dağ başında saldı, getdi.
Göy sularda şəfəqlənən işığını çaldı, getdi.
Təbiətdə nəyi vardı, bir qırpımda aldı, getdi.
Varmı duyan bu həsrəti yer üzündə, insan kimi?!

*1936*

**GÜL SƏSLƏRİ**

Masamın üstündə
büllur vaz.
Vazda güllər.
Ağgül,
qırmızı gül,
bir də sarı gül.
Elə bil, aşıq mahnısıdır.
Gözlərimi yumuram.
Saz səsi gəlir qulaqlarıma.
Ağ gül,
qırmızı gül,
bir də sarı gül.
Bu rənglərin
qarışıq naxışı,
otağımı baharlayan
ətirlər
könül dolusu qalaydı;
yaxşı-yaxşı.
Qalaydı belə,



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

solmayaydı barı, gül;
ağ gül,
qırmizı gül,
bir də sarı gül.

*1973-1974*

## NƏRGİZ

Göyçayda bir qonaq evi var.
Həyətin yarısına asfalt salıblar.
Bir səhər çıxdım üzümü yuyum.
Gördüm, asfalt
bir neçə yerdən qalxıb qabar-qabar.
Bənd olmadım.
Dedim: - Bunda nə var?
Bir neçə gün sonra yenə
bu evdə qalmalı oldum.
Səhər çıxdım üzümü yuyum.
Gördüm qabarlar parçalanıb.
Asfalt döşəmənin hər yarasından
nərgiz topası qalxıb,
yaşıl bir alov kimi.
Orda-burda saralır,
nərgiz düyməçələri.
Püstə kimi yarılıb ortasından
neçələri.
Əlimə aldım asfalt parçasını,
yoxladım.
Bərkdi, daş kimi.
Nə ağacla, nə daşla qopasıdır.
Əlimi çəkdim,
zərif, yumşaq,
sevgilimin saçı kimi
sığallı nərgizə.
Adı nərgiz topasıdır.
Soyuq asfalt
məğlub olub həyat gücünə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zərif nərgiz
qalxıb düyməçə-düyməçə.
Qalxıb günəş eşqinə,
bahar eşqinə.
Dedim:
- Eşq olsun
həyatın gücünə!

*1957*

**ÜZÜ KÜLƏYƏ**

Külək arxadandır.
Asan atırıq addımlarımızı.
Külək gərilmiş qanad kimi
çırpınır çiyinlərimizdə.
Bir arxayınlıq nəğmələnir
könlümüzdə.
Külək qarşıdan əsir,
əsdikcə tələsir,
yolumuzu kəsir,
sinəmizə dirənir
muqavimət.
Qollarımızda yeni
uğurlar həvəsi artır.
Nə qulaqlarımız
laqeydlik nəğməsinə uyur,
nə könlümüz
arxayınlıq havasına batır.
Üzü küləyə -
Qüvvət ayaqlara!
Qüvvət biləyə!
Üzü küləklərə dözümlü
İnsan yolu.
Üzü küləyə, yüklənir
İnsan qızı, İnsan oğlu.

*1978*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**KÖNLÜMƏ YAĞIŞ DÜŞÜB**

Yağış yağır.
Adamlar qaçıb doluşur evlərə.
Baxıram həsrətlə.
Könlümə yağış düşüb;
elə bir yağış ki,
çıxarıb köynəyimi,
altında dura biləm doyunca;
"Oxqay", - deyib,
qaçam o yan-bu yana,
özümü yora biləm doyunca;
Elə bir yağış ki,
üzümü etibarla tuta biləm
damcılarına,
qorxmayam ki, çalar məni.
Elə bir yağış ki,
üstündə gəzə biləm ayaqyalın,
təşvişsiz, təlaşsız;
içinə girə biləm
müşəmbə papaqsız,
müşəmbə plaşsız,
otağıma girən kimi.
Könlümə yağış düşüb;
elə bir yağış ki,
nə yarpaqlara
sarı zərdab ləkə salsın,
nə ağaran qanımızdan
gözlərimizdə kölgə qalsın.
Könlümə yağış düşüb:
göy gurultulu,
ildırım şəfəqli,
iri ağır damcılı yağış;
adi buxardan doğan,
adi buluddan yağan,
sərin, ürək qıza bilən
yağış!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yolu çınqıllı,
yanı yosunlu
bulaqdan içdiyim su kimi;
körpə yuxusu kimi.
Saf, təmiz,
stronsi doxsana bulaşmamış
bir yağış.

*1963*

**İŞIQLAR ÜŞÜYƏNDƏ**

Pəncərə şüşəsində
nəm işıqlar titrəyir,
yağış yağır, deyəsən.
Bir dəli şeytan deyir,
Plaşını geyəsən,
girəsən yağışlığa.
Yağış yusun üzünü,
yağış yusun üstünü.

Pəncərə şüşəsində
nəm işıqlar səyrişir,
yenə küləkdir əsən.
Bir dəli şeytan
məni qıdıqlayır, elə bil.
Soyunub paltarını
yağışlığa girəsən,
yuyunasan tərtəmiz.
Hanı ağıllı şeytan!
Çəkib çıxarsın məni
nigaran dolaşıqdan.
Qoparsın gözlərimi
bu səyrişən, titrəşən
üşüyən nəm işıqdan,
üşüdən nəm işıqdan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*1966*

**KÖVRƏK BUDAQ**

Adi budaqdır,
gövdədən qalxıb,
kövrək.
Üstü körpə yarpaq.
Qönçə-qönçə çiçək.
Adi yarpaq,
nə öyünür,
"hamıdan yaxşıyam", - deyə
nə baxtına küsənir,
"başqalarına oxşayam", - deyə.
Adi budaqdır,
adi budaq.
Qaba əl dəysə,
sərt küləkdən əyilsə,
sınacaq.
Əyri bitməyəcək, yox,
ancaq sınıq yeri itməyəcək.
gövdədə qalacaq yarası,
görünəcək yeri.
Görünəcək yeri -
qışın çılpaqlığında
çılpaq yarası,
yazın yarpaqlığında
çiçək arası,
yarpaq arası.
Qoruna bilsə küləkdən,
qaba əllərin ucuz hünərindən,
faraş qışın,
suvar yazın
şaxtalı günlərindən,
bar verəcək.
Üstü dolu
yarpaq-yarpaq,
çiçək-çiçək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sərt küləklər əyməsə,

yaman əllər dəyməsə,
bərkiməmiş sınmasa.
Tonqalında bir avara,
kabab təpişdirib,
araqdan qızınmasa,
Kövrək budaq
torpaqdan su əməcək.
Günəşdən işıq.
Sevinəcək,
sevindirəcək
çiçək-çiçək, pöhrə-pöhrə,
yarpaq-yarpaq kövrək budaq.
Gəlin, gəlin, insanlar,
körpə budaqları
göz bəbəyimiz kimi,
dinc əməyimiz kimi,
bircə ürəyimiz kimi
qoruyaq!

*1969-1970*

**İŞIQ VƏ KÖLGƏ**

Günəş doğanda
çiçəkli, daşlı,
sulu, ağaclı bir aləm
kölgəmizə sığır.
Günəş qalxanda zenitə,
az qalır
bir ovuc içində
kölgəmiz də itə.
İlkindi çağı
böyüyür, uzanır,
qaplayır bir aləm torpağı
kölgə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*1974*

**GÜN BATANDA**

Gün batanda
üfüqlərə qəm dağılır.
Elə bil ki, dünyamızdan
nəsə bir şey əkilir.
Hər kəsdən artıq bu itkini
insan duyur,
insan bilir.

*1971*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## EZOP

Bilmirəm,
yaşayıb, yaşamayıb
belə bir adam;
kölə-filosof.
Düzü düzünə deyə bilmədiyini
çevirib eyhamlar dilinə,
belə əlac axtarıb
ürək dərdinə,
könül nisgilinə.
Necə olur olsun;
ya varmış, ya yox;
Ezop gedib,
dili qalıb,
dünyanın min bir müşkülü qalıb.
Bəzən qorxudan işlənir
bu dil,
bəzən qəzəbdən.
Siz necə, bilmirəm,
Allah rəhmət eləsin,
mən ki yerdən göyə
razıyam Ezopdan.

*Bursa, 1968*

## YUXUMA GƏLMİŞDİ EZOP

Yorğundum;
fikirdən, qayğıdan.
Qayğılarım özümünkü də,
Özgələrinki də.
İncik təki də,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yanğı, ağrı təki də.
Özgə qayğısı deyəndə,
insan övladlarının
bu günü, sabahilə
nigaranlıq,
uzun, üzüntülü.
Təsəlli gilə-gilə.
Huş apardı məni
fikir dolaşığında.
Ezopu gördüm
insan qarışığında.
Başını qaldırdı
ağır-ağır.
Gözlərində əsrlərin
insan kədərini gördüm.
Baxdım, baxdım,
hıçqırıb hönkürdüm.
Ezop sığalladı başımı,
qara qabar əllərilə
sildi göz yaşımı.
- Ağlama! - dedi, -
İnsan oğlu!
Sən ki mən görənləri
görməmisən.
Öz əlinlə, boğazına
dar kəndiri
hörməmisən.
Sən ki mən çəkəni
çəkməmisən,
heyvan yerinə cütə qoşulub,
ağalara əkin
əkməmisən.
Nə qollarında zəncir görürəm,
nə alnında qul damğası,
özünsən indi
taleyinin ağası.
Dedim: - Müdrik kölə!
İnsan taleyi - çaylar



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

bir qaynaqdan baş alıb,
tökülür bir gölə.
Mən nəçiyəm?
Mən nəyəm?
Bəlkə, neçə-neçələrə
göz dağıyam, şöləyəm;
fikri dustaq olanlara,
dili yasaq olanlara!
Ezop süzdü məni,
diqqətlə, uzun-uzun;
qalın dumanları arxasından
əsr-əsr yolumuzun.
"Yenə də varmı dünyada
ağalar, qullar?" - dedi.
"Var, - dedim, -
Neçə xalq, neçə cəsur insan
azadlıq yollarında
vuruşurlar", - dedim.
Ezop örtdü əllərilə üzünü.
Ezop birdən ağladı.
Ezop yaman ağladı.
Ezop elə ağladı ki,
əsim-əsim əsdi dağlar.
Bu qorxunc hönkürtüdən
susdu bütün dünyada
köhnə, yeni yaraqlar.
Tez yuxudan ayıldım.
Kaş ki, ayılmasaydım.

*Göyçay, 19 oktyabr 1977*

**BAĞBANIN QƏFLƏTİ**

Hər il,
hər ay.
Hər gün o deyirdi.
Dedikləri haqdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bağı, yaxşı bağdı.
Armudlar şirin –
bahar yuxusu kimi.
Almalar yekə -
ilk məhəbbət etirafının
qorxusu kimi.
Gilas dənələri,
üzüm giləléri,
qabarıq şüşə altında
damcı-damcı göz yaşı.
Güllər ətir bükülü,
ipək naxışı.
Otlar göyçək,
Çiçəklər yaxşı.
Ağaclar boy-buxunlu,
qollu-budaqlı.
Bəli, o, qürurunda,
tərifində,
sevincində
haqlı idi, haqlı.
Bağban dostum, ancaq
bilmirdi ki, dünyada
tək deyil bu bağ.

*1960*

**QARANQUŞ VƏ SƏRÇƏ**

*(Yersiz gəldi, yerli qaç)*

Qaranquş qondu eyvanın
düyün-düyün pərdəsinə:
- Cik-cik!
Bahar gəlib, biz də gəlmişik.
Baxdı, bir yuva gördü.
- Cik-cik!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kim var orda, çıxsın!
Biz gəlmişik.
Sərçə yuvadan çıxartdı başını:
- Kimdir qonaq?
Buyursun qapıda dayanmasın!
Qaranquş hövsələsiz qışqırır.
- Ey, qulaq asın!
- Biz qonaq deyilik.
- Kimdir orda, yubanmasın!
- Cik-cik!
Biz bu yuvanı bəyənmişik.
Sərçə əvvəl qulağına inanmadı.
- Bəlkə pis eşitdim, - dedi, -
Bəlkə mətləbi qanmadım.
Yenə səs gəldi:
- Cik-cik! Sən çıx get!
Biz gəlmişik!
Onda sərçə atılıb qabağa,
Başladı quş dilində danışmağa!
- Görürəm sən böyüksən.
Kefin də tək ulduzun dibindədir.
Bəlkə də möhürlü mənzil kağızı
qanadının altında,
frakın döş cibindədir.
Ancaq xəbərin varmı,
həmişə bahar olmur.
Budaqlar yaşıl,
çiçəklər qatar-qatar olmur.
Hava ilıq olmur həmişə.
Gündüz göylər buludsuz,
gecələr süd aydınlıq olmur həmişə.
Mən də baharı sevirəm, ancaq
bahar dalınca qaçmamışam
Burda qalmışam
yayı da, payızı da.
Dimdiyimlə düzəlib



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu kiçik yuva da,
bu saman suvağı da.
Mən dözmüşəm bu yerin
istisinə, soyuğuna.
Dözmüşəm dən yoxuna, su yoxuna.
İndi hara,
kimin qapısına gedim?
Susdu sərçə...
fikirli-fikirli
əlavə etdi:
- Mən sözümü dedim.
Bilmirəm, qaranquş utandımı, susdumu.
Yoxsa çəkilib bir tərəfə
sərçənin dən ardınca
yuvadan getməsini pusdumu.
Ancaq sərçənin sözləri
xoşuma gəldi mənim.
İnsan dili bilsəydi,
bir nəğmə də öyrədərdim ona:
"Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim..."

*fevral-mart, 1962*

**BAĞLARI QUM BASIR**

Xəbərin varmı, qardaş!
Bağları
qum basır!
Xəzri əsdikcə gəlir.
gündüz günorta gəlir,
şər qarışanda gəlir;
dayanmır,
gecə gəlir.
Bir an içində olur,
təklifsiz qonaq kimi,
ev-eşiyə, eyvana,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

meynəliyə qonması.
Xəbərin varmı, qardaş,
bağları
qum basır!
Tək-tək gəlsə nə var ki...
Kim ona baş qoşar ki...
Dalğa-dalğa gəlir qum!
Yayılır hər tərəfə,
payız çiskini kimi.
Elə bil ki, buluddan
yağa-yağa gəlir qum!
- Xəbərin var? - deyirəm, -
Əlbəttə, var xəbərin.
Bəs hardadır, hardadır
əllərin,
sənin güclü əllərin?!
Qoyma, qoyma bağları
qum basa!
Kimdən umsun köməyi,
meynələr,
səndən kömək ummasa?!

*Bakı, dekabr, 1966*

**QOCA TİMSAH**

Udur xırda balıqları
qoca timsah,
yekə timsah.
Göz yaşları axır, axır.
Deyir: - Sülhü qoruyuram bu sularda.
Quyruğuna humanizm nişanını
özü taxır,
qoca timsah.
- Aman! - deyir,
fəryad edir,
xırda balıq sürüləri:
"İstəmirik!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Artıq olsun mərhəmətin!
Rəyimizcə deyil sənin
bu niyyətin".
Qoca timsah eşitməyir,
Eşidirsə, anlamayır,
anlayırsa, bəyənməyir
bu fəryadı.
Deyir: - Nə var,
nə haraydır,
yenə salıb bu xırdalar?
Bilmirlər ki,
təhlükəli zamanlardır.
Yollarında dikdir də var,
çuxur da var.
Mənim qarnım,
azadlığın görülməmiş cənnətidir.
Cip-cip, cip-cip, xırdalarım!
Tez ol!
Bir-bir qarnıma gir.
Hamı baxır, hamı görür,
qoca timsah, yekə timsah
udur xırda balıqları.
Udduqca da
gözlərindən bol yaş axır.
Humanistdir timsah, axı!

**ANA QAZ**

Qazın yeddi balası vardı,
Qonaq gəldi,
ev yiyəsi birini kəsdi,
Dedi: - Altısı qalır, bəsdir!

Gecə bala qaz,
boynunda qan-qırmızı lenta,
girdi ana qazın yuxusuna.
Dəli bir külək əsdi,
bir bala düşdü su quyusuna.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beşi qaldı.
Səhər ikisini
qonşu satın aldı.
Qonşunun arvadı dedi:
- İti bıçaq götür, a kişi,
yazığı incitmə, çığırtma.
Ocağı gur qaladı.
Günortaya hazır oldu çığırtma.

Ev sahibi bala qazın
birini də kəsdi.
Dedi: - İkisi qalır, bəsdir.
İkidən birini tülkü apardı,
qaldı biri.
Onu da it boğdu diri-diri...

Günlər keçdi.
Hava dəyişdi.
Qaz yenə yumurtladı. .
Bir, iki, beş.

Ev sahibi gözlədi
ana qaz kürt düşsün, deyə.
Qaz bir gün sındırdı yumurtaları,
içdi ağını da, sarısını da,
yandırdı-yaxdı
ev sahibini də, qarısını da.

Dedilər: - Mərdimazar, yaramaz!
Nankor qaz, nanəcib qaz!
Yaxşı ki, adam dili bilmirdi qaz,
yoxsa ki, soruşardı:
- Niyə nankor,
yaramaz?

Balaları yox olandan bəri,
gecələr tez-tez
qaz yuxudan ayılırdı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baxırdı o yan-bu yana.
Bəlkə balasından biri qalıb,
Bəlkə quyuya düşən diri qalıb.
Kim bilir, bəlkə
adam dili bilsəydi,
ömrü boyu ağı deyərdi:
"Cücələr, ay cücələr,
Cücələr, ay cücələr!.."

## BALIQLARIN NƏĞMƏSİ

Kim eşidib balıqların səsini?
Heç kim!
Onda qulaq asın:
"Külək əsdi, tufan qopdu.
Biz qaçırıq sahillərdən uzağa,
Suyun dərin qatlarında qalırıq.
Külək əsdi.
Qara bulud üfüqlərə sürüşdü.
Günəş doğdu.
Şəfəq sulara düşdü.
Nur incilər səpələndi
yorğun gəzən ləpələrin döşünə.
Biz gedirik,
parıl-parıl parıldayan
inciləri udmağa.
Sevincimiz dənizlərə sığmayır.
Göy sularda nur incilər..."
Nədən sular qıpqırmızı qan oldu?
Balıqçı, ah, balıqçı!
Döndü əyri bir qarmağa nur muncuq.
Nəğmə qaldı yarımçıq.
Nəğmə qaldı yarımçıq.

*Buzovna, 1958*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MƏSTAN PİŞİYİM

Mənim məstan pişiyim, yenə çıxıb dizimə,
O yaşıl gözlərini zilləmisən üzümə.
Nə var, baxışındakı o dilsiz sual nədir?
Hansı kədər, hansı dərd ürəyini göynədir?
Yoxsa pişikliyindən, məstanım, narazısan?
Yoxsa elə bilirsən, dərdsiz yaşayır insan?
Yox, əzizim, aldanma, insan olmaq çətindir.
Yetmiş ayıb tapan var, bircə hərəkətində,
Yağlı-yavan, nə düşdü, yeyirsən iştahla sən.
Nə diabet eşidib, nə min yara bilirsən,
Sənin gündüzün gündüz, gecən adi gecədir.
Nə soruşan var, sənin qan təzyiqin neçədir?
Nə nihilist deyən var, nə də ki, kosmopolit.
Bir düşmənin var, o da qonşudakı Buldoq it.
Nə toyda yad edirlər səni, nə də ki, yasda,
nə də qanın qaralır, uzun, tünlük iclasda.
"Konsolidasiya" sözü bilmirsən nə deməkdir.
Ya şirin bir vədədir, ya da yağlı kötəkdir.
Nə anket doldurursan, uzunu yeddi qarış.
Nə tənqid olunursan, əsəri qurtarmamış.
Niyə baxıb üzümə mıy-mıy miyoldayırsan?
Yoxsa ki, süd göləndə, deyirsən, üzür insan?
Yox, əzizim, aldanma, insan olmaq çətindir.
Bəlkə də, ən münasib pişiklik qismətindir.
Ancaq məndən soruşsan, çətin olsa da, inan,
İnsan olmaq yaxşıdır, adi, xeyirli insan!

*1956*

## SƏRÇƏ TOYU

Səhərdən
cik-cik səs tökülür
eyvana.
Hoppana-hoppana
sərçələr gəzir.
Hər yan olub toyxana.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Budaqlar toyxanadır,
ağac dibi toyxana.
Toyxana olub
Kirəmitli damların üstü,
çarhovuzun başı.
qaçışırlar,
çimişirlər,
toylu-büsatlı sərçələr
yaxşı-yaxşı.
Qanadları - boz yelpinc,
gözləri mərcilər.
Haylı-haraylı sərçələr.
Nə aşıqları var,
nə züy tutanları.
Ancaq
tullanmaqda, oynamaqda,
beş xal geri qoyarlar
balaca aranqutanları.
Oynayırlar sərçə kimi.
Səkirlər sərçə kimi.
Heç kəsə bənzətmirlər özlərini.
Yaşayırlar, sərçə kimi.
Sərçəlikdir
içimləri,
yeyimlərinin hər çəkimi.
Sevinin, sərçələrim, sevinin!
Mübarək olsun toyunuz!
Kəsməyin nəğmənizi;
bataqlıqdan üstünüzə
fınxırsa da neçə donuz.

*1969*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DALĞALARDA QALAN ÖRDƏK**

Dedim: - Atma, uzaqdır,
külək də Xəzri deyil,
dalğalar sahilə çıxara onu.
Atdı.
Bir gurultu.
Xəfif bir tüstü.
Ördək çırpındı.
Dedim: - Silkinib
qalxar indi.
Qalxa bilmədi.
Çevrildi arxası üstə
Qaldı ağara-ağara.
Bir an elə gəldi ki, mənə
sularda ağaran ördək deyil,
ağ köynəkli uşaqdır,
yellənir göy beşikdə.
Bir el düşdü çiynimə,
dəmir parçası kimi
ayrıldım xəyaldan.
Səs zəy vurulmuş su kimi
duruldu.
Söz oldu,
cümlə oldu:
- Ey xəyalpərvər!
Yeni dəstə gəlir,
Patron ver!
Axşam qucaqlayıb
sahili,
dənizə qara örtük atıb.
Qayıdıram ovdan.
Çantam güclə bağlanmışdır,
Patrondaşım boş,
Ürəyim dolu.
Düşündürür məni,
mənasız atılmış tüfəng.
Düşündürür məni,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəstə ördəklər çimişən yerdə
tənha, tək qalan ördək.

*Buzovna, yazbaşı, 1960*

**DÜRƏK**

Nə bəd gündü bu;
it marıq vermir,
quş yoxa çıxıb.
Vurduğumuz bir qaratoyuq,
o da düşdü kola.
"Ha gözünə dönüm", - dedim,
"Ha bərəkallah", - dedim,
it tərpənmədi yerindən
gün əyilib.
İnnabı don geyib buludlar.
Əliboş dönürəm geri.
Nə bəd gündü bu;
nə ovum qanlı oldu,
nə işim sahmanlı.
Yorğun dönürəm geri.
Bir qocaya rast gəldim;
çöməltmə oturmuşdu
doqqaz qabağında.
Demə, görmədim
xalis bir asari-ətiqə.
Dayandım, dərdim nəfəsimi.
Qoca zillədi qırpımsız gözünü
böyrümdən sallanmış çantama.
Ayaqlarıma baxdı,
tüfəngimə baxdı,
bir də
quyruğunu dik tutub,
qürurla dayanmış itə.
Gözləri qıyıldı qocanın,
dodağı qaçdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedi: - Ovun qanlı!
Dedim: - Ovum hanı,
qanlı da ola.
Dedi: - Belə iti olan ovçu
Gərək bir sərçəyə də qane ola.
Ov hardan olsun,
ağbatı xeyir!
İtin yarı tuladır,
yarı köpək.
Nə iy götürəcək,
nə hənirtiyə hürəcəkdir.
Bir söz, oğul,
itin dürəkdir.
Kim xeyir görüb dürəkdən?
Dedi və güldü ürəkdən.
Davam etdim yoluma.
Böyrümdə boş çantam,
sinəmdə dolu ürəyim,
yanımda da məni rüsvay edən
dürəyim.

*avqust, 1960*

## NAMƏRDLİK

Onun dörd əl-ayağı var,
bunun dörd təkəri.
Onun qarnında
gövşəkdən horraya dönmüş
bir çəngə ot,
bunun qazanında
altmış litr
yüksək oktanlı benzin.
Dörd təkər üstündə
iki nəfər.
Axtarırlar küdrüdə,
dördayaqlının izini.
Biri sürücü,
biri tüfəngli.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ovçu demirəm,
ovçu təkərə güvənməz.
Ovçusan, buyur,
piyada gəz!
Yat bərəsində:
gözlə, gözlərin yorulunca.
İzlə, ayaqların
yorğunluqla
qurğuşun kimi dolunca.
İstiyə döz!
Soyuğa döz!
Nə isə...
Mətləbdən uzaq düşdü söz.
Sürdülər iki diferli "Qaz"ı,
Sürdülər belədən-belə,
Köndələninə, çəpinə.
Birdən bir təkə göründü -
arxasında bir sürü.
Təkə boylandı, boylandı.
Birdən qopdu yerindən
qumbara partlayışı,
narıncı alov saçan kimi.
Onun arxasınca sürü keçdi,
göydə quyruqlu ulduz uçan kimi.
Şığıdı maşın -
nəhəng bir ley.
Təkərlər hərləndi,
50-60.
Ayaqlar açıldı, büküldü,
Toz qopdu.
Torpaq töküldü.
Təkərlər yedi yeri,
70-80.
Ayaqlar yerə dəydi, qalxdı.
Təkərlər coşdu.
Əqrəb sürüşdü, sürüşdü,
85-90.
İndi ayır ayaqlarını,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fəlakət kimi gələn
bu təkərlərdən, qoçaqsan!
Sürət əqrəbi haqladı yüzü.
Bir vəhşi ehtiras,
bir can harayı,
bir də hər saniyə daralan
küdrü düzü...
Təkələr... ayaqlar...
Təkərlər... ayaqlar...
Təkə... təkər...
Sürüdən ayrıldı biri.
Get-gedə azaldı sürəti.
Tüfəngli rahatladı yerini.
Tüfəngi aldı üzünə.
Sürücü maşını yöndəmə saldı.
Ceyran yavaşıdı.
Yavaşıdı maşın.
Birdən çəpəki kəsdilər
yolunu ceyranın...
Tətiyi çəkdi tüfəngli,
yıxıldı ceyran.
Asqırıb dayandı maşın.
Ceyran qırıq qolunun üstünə
qoyub başını, uzanmışdı.
Böyrü qalxıb-enirdi,
körük kimi.
Tüfəngli
sol əliylə papağını
itələyib qaşlarının üstünə
yaxınlaşdı ovuna.
Ceyran tərpənmədi.
Məlul-məlul baxdı ona,
ceyranın qara gözləri
ikiqat böyümüşdü.
Bu qara gözlərdən
iki damcı düşdü.
Ceyranın üzündən,
tüklərin üstündən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sürüşdü,
düşdü quru torpağa.
Sanki, göz yaşıyla
az suvarılmışdı bu torpaq.
Bəlkə deyirsiniz,
ceyran ağlamaz.
Yox, ağlayar.
Daş da, ağac da ağlayar.
Hər göz yaşına bir səbəb var.
Söhbət onda deyil.
Ceyran ağlasa da, ağlamasa da,
namərdlik, namərdlikdir.
Belə ovçuluğa nə var,
saatda yüz gedən maşınla
nənəm də ceyran vurar.
Ağlasa da, ağlamasa da ceyran,
əllərimi biləkdən kəsərəm,
yarama duz tökərəm,
belə ovçuluq eləsəm,
bircə kərə.

*1960*

**QƏHRƏMAN TURAC**

Bu nədir?
Ayrıldım yoldaşlardan.
Ayaq saxladım.
Qızılquş dönür, dönür, şığıyır;
dimdiyi boş, caynağı boş qalxır,
gərir qanadlarını yenə.
Süzür, süzür...
Birdən çaxır ildırım kimi,
buludlarda iz buraxır.
Hər yan qaratikan topası.
Yönəldim quş şığıyan səmtə.
Bir də nə gördüm
Bir turac.
Balalarını yığıb



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qanadının altına,
qısılıb kol topasına.
Dedim: - Əlvida, bugünkü ov!
Dostlar, hələlik.
Siz gedin,
ovlayın, quşlayın!
Mən burda,
ana turacın yanında qalıram.
Özümü verdim kölgəyə,
oturdum bir palıd kötüyü üstündə.
Gözlədim, görüm,
axırı necə olacaq
bu duelin.
Günəşin şəfəqləri
üfüqdə çəkilhaçəkildi.
Qızılquş bir də şığıdı,
gözlədim, qalxmadı.
Yəqin ki, parçalayır turacı.
Qalxıb yüyürdüm.
Nə gördüm:
Qızılquş qanlı bayraq kimi
sancılıb kol qələminə;
qanadları titrəyir,
üflənən şam şöləsi kimi.
Turac da kol topasında
hərəkətsiz qalıb.
Qanadları sərilib yerə.
Balalar yanında yoxdur,
yəqin ki, dağılıblar kolluğa;
qızılquş budağa sancılıb ölüb,
turac da mübarizənin
gərginliyindən.
Balalar salamat qalıb.
Xəbərsiz olublar
qanlı faciədən.
Görəsən, bilirlərmi,
hardadır su,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hardadır dən?
Bilirlərmi, harda sığınacaq
yer var.
Bəlkə də bir gün,
onlar da
balalarını,
qızılquşdan qorumalı oldular.

*Buzovna, avqust, 1960*

**YUVA VƏ ANA QUŞ**

Bir qoca qovaq budağı.
Yuvada sarı dimdikli,
kiçik dünya balası.
Ağzını açıb, yumur;
gah dolu, gah boş.
Yumşaq tüklü qanadları
hələ uçmağa hazır deyil.

Yeməyini anasının
dimdiyindən alır.
Dadını, duzunu bilmədən.
Ən böyük dünyası
çör-çöp yuvası,
Nə uçmaq fərəhi var,
nə nəğmə həvəsi.

Yumurtadan gəlmə yeknəsəq,
körpəcə səsi var -
"cik-cik".
Bir aydın günəşli səhər,
ley şığıdı yuvaya.
Ana qayıtdı tez-tez
qanad çala-çala.
Yuvanı boş gördü.
Atdı yerə dimdiyindəki
balaca qurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qurd süründü
otlar arasında
yavaş-yavaş.
Ana quş bir də baxdı
qovaq budağına.
Ona elə gəldi ki,
boş qara yuva deyil,
xəfif yeldən yellənən,
balasız quşun
qara daş kimi qəlbidir.
Quş qəlbinin göynəyi,
Səsli fəryadı varmı?
İki damcı düşdü sarı yarpağa.
Quşlar da ağlayarmı?

*1980, 27 feval-15 mart*

**QATİL**

Bir şumal pöhrəni
bir vurğuda qələm elədi
və qürurla dcdi:
- Ovxarını gördünmü baltanın!
Mən dedim:
- İtidir baltan...
Barı, ölü barmaqları kimi,
o quru budaqlardan utan!

*1960*

**KÖÇƏRİ QUŞLAR**

Düzülüb qatar-qatar,
göyə qanadlandılar
durnalar.
Reaktiv təyyarə kimi sürünün düzümü.
Qabaqda dəstəbəyi.
Arxada durna nəfərlərinin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

doxsanımı, yüzümü?
Sağda, solda
buludların qızıl zehli ətəyi.
Qalxdıqca qatar,
buludlar endi yavaş-yavaş.
Çaylar nazilib
dolaşıq göy sapa döndü.
Dağlar irili-xırdalı
qabar kimi göründü.
Göydən yarpaq-yarpaq töküldü
qaqqıltı səsi.
Qatardan ayrıldı
durnalardan bir dənəsi.
Ləngidi, geri qaldı.
Qatar yolundan qalmadı.
Ancaq bir neçə an
qatarın bir durnalıq yeri
boş qaldı.
Elə bil, bir bağ göy muncuğun
bir buğumu boşaldı.
Yer qalxdı,
bulud ucaldı;
durna endikcə aşağı.
Külək sürtdü özünü onun döşünə.
Durna endi, endi,
düşdü sarı kövşənə.
Nə ovçu vurmuşdu onu,
nə qanadı qırılmışdı.
Durna uçmaqdan, köçməkdən
yorulmuşdu.
Başını qoydu
yorğun qanadının üstünə,
həsrətlə baxdı
quş qardaşlarının
gözdən itən qatarına.
Ona elə gəldi ki,
Üstündə uzandığı
sarı kövşən deyil,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaynar səhraların qumudur.
Ona elə gəldi ki,
Göyə baş qaldırmış qələmələr,
yaşıl boyanmış fil xortumudur.
Ona elə gəldi ki, uçur,
Günəşdir kürəyini yandıran.
Bəlkə də, ilk dəfə
ovçuya həsrət çəkdi.
Bəlkə də, düşündü,
belə sakit bitəcəksə,
uzun ömür nəyə gərəkdir?
Hanı səhra?
Hanı bulud?
Hanı dəniz?
Durna yumdu gözlərini.
Öldü sakit, səssiz.
Üzü qürbətə uzaqlaşdı,
üfüqdən aşdı
qaqqıltılı qatar.
Qürbətdə qaldı tək durna.
Qaldı biganə səfərin qəzasına,
yolların uğuruna.
Hava sakit, ətraf səssiz.
Elə bil, nəğməli qanadlılar
heç yoxmuşlar.
Harda qalsa,
qürbətdə qalmırmı?!
Hara uçsa,
qürbətə uçmurmu,
köçəri quşlar?!

*1962*

**QORXU**

Deyirlər qoca fillər
ölüm günlərinin yaxınlaşdığını
bilirlər.
Bir neçə gün qabaq
başlarını salıb aşağı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nə sənə, nə mənə,
xortumları yellənə-yellənə
çəkilirlər meşənin tənhalığına.
Uzanıb sakit, gözləyirlər ölümü.
Son vaxtlar
qoca fil olmaq qorxusu
yaman sıxır könlümü.

*1961*

## GÖY AT

Göy atın sorağını eşitməyən var ola?
Yel qopa, tufan gələ, çovğun düşə, qar ola,
Göy atın dırnağından qığılcımlar qopardı.
Göy at kimi aparsa, deyərdin, yel apardı.
Yol gedəndə bilməzdi, yoxuşdu bu, enişdi,
Ömründə bir dəfə də Göy at büdrəməmişdi.
Qıratın nişanları onda tamam cəm idi –
Sinə meydan, göz alma, sağrısı əynəm idi,
Quyruğu top qara saç, xırda qulaqları dik.
Alın geniş, bel nazik, ayaq səkil, baş kiçik,
Kişnəyəndə, deyərdin yer əsdi, göy kişnədi,
Ağız-ağıza verdi, yeddi ərdoy kişnədi.
Ömründə bircə gün o, ayaq büküb yatmadı,
Göy atı dərd qocaltdı, ömür-gün qocaltmadı.
Darvazadan girəndə sədrin göy "Pobeda"sı
Ürəklərdən çəkildi Göy atın da sevdası,
Nə tərini soyudan, nə tumar verən oldu.
Nə Göy atı yəhərli, yüyənli görən oldu.
Arpasını kəsdilər, göy ot bəs elər deyə.
Səllimi buraxdılar, kənddə səs elər deyə.
Tərliyi ayaq altı, tövləsi qaraj oldu.
Elə gün oldu, Göy at susuz qaldı, ac oldu,
Arabaya qoşdular, mala da çəkdi Göy at.
Çölə peyin daşıdı, şumladı, əkdi Göy at...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hərdən suya, oduna Göy atla gedirdilər.
Bir gün oldu, kolxoza yük maşını verdilər.
Göy at lap düşdü gözdən, arıqladı, üzüldü,
Yal-quyruq seyrəklədi, alma gözlər büzüldü.
Bir gün baytar gözucu baxdı Göy ata sarı.
Dedi: - Ət hazırlığı tez başlayaydı, barı.
Göy atın nə dəftəri, nə də qələmi vardı,
Olsa da, əli yoxdu, Göy at necə yazardı?
Amma yaza bilsəydi, nələr yazmazdı Göy at.
Hamısı da fəlsəfə, ömür, ölüm və həyat.
"Pobeda" doxsan gedir, qaz verəndə yüz gedir.
İstəsən, gecə gedir, istəsən, gündüz gedir.
Göy at canlı Göy atdı, necə etsin, neyləsin?
Öz əlacsız dərdini hara, kimə söyləsin?
Bir dolumda üç tonu qaldırır yük maşını,
Gurultusu titrədir yolların dağ-daşını.
Göy atın nazik beli, zərif ayaqları var.
Necə girsin bu bəhsə maşınlarla göy atlar?
Göy at nə vurhavurda, nə də döyüşdə öldü,
Nə yarğandan sıçradı, qayadan uçdu, öldü.
Göy atın son günləri qəmli keçdi həyatda.
Göy atı öldürdülər myasokombinatda.

Ağzınızı büzməyin, deməyin ki, bu nədir?
Deməyin, şairə bax, maşın əleyhinədir –
Maşın ustuflu kəsdi Göy atımın başını,
Şair necə bəyənməz belə kamil maşını.
Həyatın qanunudur, getməlilər, gedəcək.
İndi maşın dövrüdür, Göy at anlasın gərək!
Nə eybi var, Göy atdan bir nəm-nişan qalmasa,
Zato, hər yanda boldur at ətindən kolbasa!

*1957*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ALDANIŞ**

Bir ömürlük hicran var Günəşlə aramızda.
O məni görür, mən onu.
Nə yazıq ki, dəyişmir yolunu,
dərd anlamazlar kimi.
Aramızda hicran var bir ömürlük.
Bənövşə göylərdə buludlar bölük-bölük.
Sarı Günəş oxşadıqca qaşları
kölgələr uzanır ayaqlarıma.
Kölgələr - mehriban köpək;
dırmanırlar qucağıma titrəyərək.
Günəş uzaqlaşır,
Kölgələr boy atır.
Göydə son aydınlıq sönür.
Kölgələr qucaqlaşır,
dərin bir axşam olur.
Hər tərəfdən bürüyür məni axşam.
Hər yer qara.
Qara bir toz səpilmiş boşluqlara.
Axşamla üz-üzə dururam.
Gözlərinə baxaraq ondan soruram:
- Axşam neçin gecikdin, neçin?
Aradığın uzaqlaşdı - qanlı qanad
göyərçin.
Axşam, yazıq axşam, yazıq axşam!
Məndən də təkmisən ki,
bir kölgən belə yoxdur?
O dinməyir, o susur.
Axşam susur Ay doğana kimi.
Ay sulardan boylanır,
qırıq qanad sona kimi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ay çıxarır kölgələri
qaranlığın bağrından.
Baxıram sarı yarpağa.
Düşünürəm uzun-uzun.
Demək, Aya ümidi varmış
bu qara yolsuzun.
Əllərim boşluğa uzanır.
Bağrım od tutub yanır.
Bağırıram, səsim gəldikcə:
- Axşam! Axşam! Axşam!
Mən də bu yalnızlığı boğmaq eşqilə
sərxoşam.
Ağlayır axşam mənə,
Ay mənə gülür...
Ayılıram...
Pəncərəmdən
lalə Günəş tökülür.

*Moskva, 2 oktyabr 1936*

**PƏNCƏRƏMƏ DÜŞƏN İŞIQ**

Qaranlıqdır otağım.
Sevirəm hərdən
qaranlıq otaqda tənha qalıb
düşünməyi.
Birdən pəncərəmdə yandı-söndü
bir işıq.
Bəlkə,
bir avtomobil fanarının
işığıydı bu.
Avtomobildə adamlar vardı,
bəlkə.
Xoşbəxt adamlar,
kədərli adamlar,
ümidli, həsrətli adamlar.
Bəlkə, onlar toya gedirdilər,
bəlkə işə, gecə növbəsinə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəlkə, bu maşın
bir qarış yeri əzilmədən,
əyləci salamat,
sükanı salamat,
başa vuracaq iki yüz min
kilometri.
Bəlkə, tini burulanda indi,
toqquşacaq başqa bir maşınla
bu maşın.
Gedər-gəlməz bir yol var, deyirlər,
arasında gözlə qaşın.
Bəlkə bu,
təcili yardım maşınıdır;
bir ömrü, beş ömrü xilas etməyə gedir.
Şəfəq bir an parladı;
sarı sabun parçası kimi
sürüşdü, düşdü pəncərəmdən.
Qaranlıq uddu onu,
zil qara bir pişik
sarı bir pərvanəni udan kimi.
Otaq qaranlıq, sükuta bürünmüşəm,
soyuqda qara yapıncıya bürünən
yolçu kimi.
Ancaq pəncərəni görürəm,
ovcumun içi kimi.
Düşünürəm:
bir işıq yandı-söndü pəncərəmdə.
Bəlkə şimşək çaxdı uzaqda.
O qədər uzaqda ki, səsi belə gəlmədi.
Bəlkə ildırım düşdü.
Bəlkə bu ildırım
yüzillik bir çinarı yarı böldü.
Bəlkə bu çinarda,
hələ palçığı qurumamış yuvada
bir ana qaranquş öldü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəlkə, işıqlandırdı bu şimşək
yolunu itirmiş bir yolçunun
kompasını.
Bəlkə, bir leysanla suladı
susuzluqdan yarpaqları sallanmış
moruq topasını.
Otağım zülmətə girdi;
enişə gedən qatar
işıqsız zülmətə girən kimi.
Mən yumdum gözlərimi,
qaranlıq görən kimi
Azmı keçdi, çoxmu,
bilmirəm
Qamçıladı yenə işıq
göz qapaqlarımı.
Pəncərəmdə axdı, keçdi
sarı bir duman.
Bəlkə, bir meteoritdi bu,
qızıl nöqtə ilə yazıldı
ömrünün sonu.
Bəlkə, küçədə qarovulçu qoca
yandırdı papirosunu.
Bəlkə qocanın bu son papirosu,
son kibriti idi.
Çəkdi kibriti, yandırdı
yan cibində əzik-üzük olmuş
son papirosu.
Bəlkə, bu papiros,
başı yeni açılmış qutunun
ilk papirosu idi.
Oğlunun qocaya ilk hədiyyəsi.
Qoca papirosu yandırıb
son qullabı vurana qədər
neçə insan doğuldu dünyada,
neçəsi öldü.
Doğulanlar
hamısı yaxşı adam olacaqmı?
Ölənlər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hamısı ölməli adamlardımı?
Yəqin ki, yox.
Doğulanların
əziyyəti, sevinci
Ölənlərin
Kədəri, həsrəti,
dünyaya nə artırdı?
Dünyadan nə apardı?
Otağım qaranlıqdır.
Sükut yatır.
Pəncərəm batıb qaranlığa
hələ nigarançılıq dadır.
Şəfəq pusqudadır.
Düşünürəm,
Pəncərəmdə yeni bir işıq
yanıb-sönsə,
şüşələr qızıl rəngə bürünsə,
Bu işıq
yolu bayrama, yardıma, ya qəzaya gedən
bir maşın olsun.
Bu işıq
bir qocanın ilk, ya son papirosu
olsun.
Bir şimşək olsun,
yaxın, ya uzaq.
Nəfəsindən qaralsa da,
bir çinar, bir qovaq belə.
Ancaq,
atom işığından
alışmasın dünya.
Alışmasın,
içi insan nəfəsli
otağım kimi,
on kiçik bir otaq belə.

*Buzovna, avqust, 1960*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ƏKS ETMİŞ İŞIQ

İşıq düşüb otağıma,
Elə bil ki, masamın kənarından
ağ kətan məhrəba sallanıb;
yarısı masada, yarısı yerdə
Nə bir kölgə var düşə üstünə,
nə bir külək var onu səyridə.
Sevinclə qalxıb yerimdən
əlimə alıram
ağ şüləyin bir parçasını.
Bir sazaq giziltisi duyuram
beynimdə.
Elə bil, bir ölü əlidir,
ovcuma aldığım.
Nə hərarəti var,
nə şəfəqlərin gümüşü.
Balıq kimi
ovcumdan sürüşüb düşür.
Kim bilir, neçə müddət belə
donub qalmışıq,
mən və
pəncərəmdən əks etmiş işıq!

*fevral, 1962*

## DÜNYALAR

İki böyük dünya var,
içi günəşlərlə, planetlərlə dolu.
Bir dünya var, kainatın bir hissəsi,
irili-xırdalı məmləkətlərlə dolu.
Bir dünya var,
mənim dünyam, sənin dünyan.
Ümidli, sevincli, kədərli,
arzularla dolu,
sınaqlardan keçir yolu.
Bir dünya da var könlümüzdə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəbbət, şəfqət dolu.
Bəzən acılarla, acıqlarla bulanır,
nigaran ümidlə yanır.
Böyük dünyanı dəyişməkdən
hələ acizdir insan.
Saysız ulduzlar,
nəhayətsiz fəza,
insan iradəsinə tabe deyil.
Bu gün Aya getdik,
sabah Veneraya getsək belə.
İkinci dünyanı
dəyişməyə qadirdir insan,
yaxa qurtara-qurtara
acılardan, acıqlardan.

*1962*

**XOŞ QAYITDIN**

*Y.Qaqarinə*

İlk dəfə göylərin qapısını açıb
xoş qayıtdm ana torpağa!
Günəş arxanda qaldı
heyrətlə baxa-baxa.
Heyrətlə baxmasın, neyləsin, Günəş,
milyard işıq ili boyunca
görmüşdü məgər,
insan hökmünə baş əyə göylər?
Köhnə tanış, qoca Günəş!
Şəfəq əllərini döşünə qoy,
salamla bizi!
Kainata yol açmış
sovetlər ölkəmizi.
Qəlbim fərəhlə, sinəm qürurla doludur.
Kosmosun ilk insan yolçusu
Torpağın, Yerin oğludur!
Kommunizmə açılan bir səhərin oğludur!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əziz vətəndaşım, əsrdaşım,
xoş qayıtdın doğma elə.
Sıxıram mərd əlini
İnsan adına layiq
Bütün insanların məhəbbətiylə.

*12 aprel 1962*

**MƏHRƏM OĞRU**

Bir it qonşu həyətə
tutub ağzını,
ucadan hürdü.
O biri it darvazaya yüyürdü.
Bir ağız yenə hürdü iki it.
Sonra biri kəsdi səsini.
Qadın qaranlığa dedi:
"Darvazanı bərkit!"
Susdu hər iki it.
Tamam kəsildi səs.
- Yandırımmı çırağı?
- Yox, istəməz.
Qaranlıqda tapdı dodaq dodağı.
Üçüncü xoruz banı
qadın açdı,
yenə bağladı darvazanı.
İt hürmədi.
Yerindən qalxmadı.
Darvazaya yüyürmədi.
Bilməsə də neçin gəlir
o, buraya,
anladı ki,
hürmək lazım deyil
evə məhrəm oğruya.

*1958*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DİVAR DAŞI**

Ev böyük.
Divarlar hündür.
Gah Günəş oxşayır,
gah şaxta döyür səni,
divar daşı!
Bu, sənin qismətin,
bu, sənin ömründür.
Ev boyük,
geniş pəncərəli, qapılı.
Düşünürəm, sən,
bu böyük binanın bir hissəsisən.
Sən o binanı
bir qarış ucaltmısan.
Sən onun min-min ton ağırlığından
bir hissəsinə dayaqsan.
Sən onu küləkdən, yağışdan
qızmar yaydan, şaxtalı qışdan,
boyuna görə,
gücünə görə, qoruyacaqsan.
Divar daşı!
Sən tək olanda, bir parça daşsan.
Böyük saray olursan,
milyonlaşsan.
Etinasız baxmasın sənə
divarlarında sükuta dalıb,
qarış-qarış yüksəltdiyin
binada yaşayanlar...
Səndə bu binanın taleyindən
bir parça var.

*1959*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DO-RE-Mİ

Do-re-mi-fa-sol-lya-si-do...
Yarımlar, dörddəbirlər.
Major, minor.
Bəm, ya zil.
Bunlardır ən şad,
ən ümidsiz nəğmələrin anası.
Bunlardan doğub
Baxın ölməz fuqası,
Bethovenin müdrik simfoniyası,
Çaykovskinin sehrli operası,
Üzeyirin qaynar Koroğlusu,
unudulmaz "Sənsiz"i,
muğamatın şirin xalları,
əzəmətli melodisi.
Bunlardan yaranıb,
həməsr dostlarımın
əsərləri,
neçə nəğməsi.
Bunlardan yara alıb,
adını çəkməyə arım gələn,
bəzi bəstəkar vəsiqəli
qoçaqların
dəmir qutuya tökülmüş
saxsı qırıqları kimi səslənən
mis-qu-səsi.
Və bəzi ətalət qidası havaların
yataq lirikası.
Mən nota bələd deyiləm.
Əllini keçsə də yaşım,
nə polifoniya, nə harmoniyadan
çıxır başım.
Ancaq bilirəm, onsuz da,
xalların uyarı,
səslərin çaları,
pərdələrin düzümü sonsuzdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tellərin ağı, sarısı,
dillərin bütünü, yarısı,
hər avazın yolu, ahəngi,
hər bəstənin rəngi var.
Simlərin titrəyişi
dalğa-dalğa axıb gedir;
yeyini var, ləngi var.
Do-re-mi-ni öyrənmək
mümkündür, çətin olsa da.
Musiqidə də vacibdir savad.
Ancaq...
Səslərin şerini duya biləsən, gərək.
Hər xalda çırpınsın canlı ürək.

*Bakı, yanvar, 1964*

**KİBERNETİKA**

Deyirlər, hər gün artır
möcüzələri elmin.
Ağıllı maşınlar yaranır;
düyməsini basırsan
belə maşın müəllimin.
Əmr edirsən: - Düşün!
Düşünür maşın.
Pis də olmur şeirləri,
tərcüməsi maşın yoldaşın.
İşləyir, düşünür,
soyuğa, istiyə baxmır.
Deyirəm, görəsən,
bu ağıllı, gözəl maşınlar içində
bədxah maşınlar da olacaqmı?
Olacaqsa, əgər
bu zəhmət, bu ümid nəyə dəyər?!

*fevral, 1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NƏ BİLİM?**

- "a" kvadrat üstə gəl, "b" kvadrat, çıx yeddi,
neçə saat sərf edib on bir fəhlə bu işə?
- Mən nə bilim, a qızım!
De görüm bir, "a" nədir?
Zavodun maşınları təzədir, ya köhnədir?
Yerkom necə işləyir?
Qırmızı guşə varmı?
Natiqlərin çıxışı,
hərəsi üç saata
qurtarır, ya qurtarmır?
"a" üstə gəl, "b", yaxşı:
Bəs o ikilər nədir?
"b" üstünə gəlməyi istəyir,
ya istəmir?
Birdən xətrinə dəydi "b"-nin ki,
"a" qabaqdır.
Yerləri dəyişəcək,
ya belə qalacaqdır?
Sözün qısası, qızım,
bilmirəm, keç suçumdan.
Beş məktəb dəyişmişəm,
bu "a", "b"-nin ucundan
Bilsəm də sevinc nədir,
ümid, iltifat nədir,
Anlaya bilmirəm ki, "a", "b" kvadrat nədir.
Ancaq ki, bu yaşımda,
ömrümə haram qatıb
öyrənərdim cəbri də,
bəlkə həndəsəni də,
bəlkə razı salardım cavabımla
səni də.
Bilərdim "a" kvadrat, "b" kvadrat nə şeydir.
Əgər onlar ömrümü arzumca dəyişsəydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VAY O GÜNDƏN

Köhnə bir dərs kitabı tapdım;
köhnə qovluqdan.
Əlifbası köhnə,
cildi köhnə,
səhifələri sapsarı.
Varaqladım kədərli-kədərli.
Elə bil, əbədi ayrıldığım bir dostun
məktublarını oxuyurdum.
Fokusu düzəlməmiş kino kadrlar kimi,
gözlərimdən keçdi
gənclik günləri.
Keçdi kadraşırı, nizamsız.
Bir səhifədə ilişdi diqqətim
bir neçə sətrə.
Başlığında "fəlakət" sözü.
Oxudum şeri:
"Vay o gündən,
Kar deyə: - Şıqqıltı gəlir,
Kor deyə: - Bir qaraltı var.
Çolaq deya: - Durun qaçaq!
Lal bir nəğmə oxuya".
Şerin sonunda tarix də,
müəllifin imzası da yox idi.
Düşündüm, nə fərqi var.
Fərz edək, belə imiş
tarix, imza!
Min doqquz yüz filan il...
Resul Rza.

*1963*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Dözüm*

Dözüm

Bir fincan su içdim,
bir fincan da doldurub
qoydum yanıma.
Su olmasa,
nə faydası,
sən ha de:
- Səbr elə! Yanma!

*avqust, 1961*

**UYDURMA**

Tanışım dedi:
- İnsan xatirəsində
ən acı iz qoyub gedir
təşkil edilmiş sevinc,
təşkil edilmiş kədər.
Yüz yaşında da
cavan qalar insan,
mandatla
qəlbinə girməsələr.

*1969*

**DEYİRSƏN**

Yaşıl-yaşıl yarpaqlar
saralacaq, - deyirsən.
- İşıq dolu gündüzlər
qaralacaq deyirsən.
- Üfüqlərin çənbəri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daralacaq, - deyirsən.
Olsun!
Olsun, neyləyək.
Olanlar olsun gərək.
Qəfil ölüm olmasın.
Qara zülüm olmasın.
Darısqallığa düşən
fikir, könül olmasın.

*1976*

## İKİBUYNUZLU İSKƏNDƏR, SİRLİ TÜTƏK, DOLU ÜRƏK HAQQINDA

Deyirlər, çox qədimdə bir gün
sirrini quyuya deyib dəllək,
sirrini deyib ki, partlamasın
sinəsində ürək.
Bir qarğı göyərib, qalxıb quyudan.
Bu qarğını kəsib
tütək qayınb çoban.
Hamı bilir, danışmaz qarğı;
quru ola, yaş ola.
Ancaq, bu qarğı danışıb.
Səslənib tütək.
Deyib: "Buynuzu var, İskəndərin".
Beləliklə, böyük sərkərdənin
sirri faş olub.
Nə buynuzlu adam görmüşəm,
nə danışan tütək.
Bəs neyləyək,
dolu olanda ürək?!
Bilmirəm, İskəndərin
buynuzu vardı, yoxdu.
Ancaq, Yer üzündə
cavabı müşkül suallar
indi də var,
onda da çoxdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxşı olmazmı,
onları deyək biz,
İskəndərsiz.
Çobansız.
Quyusuz.
Tütəksiz.

*1962*

**ACLIQ**

Bəzən gözlərim ac olur;
Sünbüllü torpaq
sırğa çiçəkli budaq,
kölgəli bulaq,
dumanlı dağ
görmək istəyirəm!
Bəzən qulaqlarım ac olur;
Dalğa uğultusu,
göy gurultusu,
quş nəğməsi,
insan səsi
eşitmək istəyirəm.
Ancaq, bilirəm,
bir aclıq da var!
Bütün bunları unutdurar!
Düşündükcə utandırır məni açığı;
gözlərimin, qulaqlarımın aclığı.

*1959*

**SIĞORTA**

Açmısan sığorta dəftərini,
düzmüsən sualları yan-yana.
Deyirsən: - Gələcəyi təmin edir.
Həm etibarlı, həm xeyirlidir, yazılsana!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yazılım, sozüm yox,
ancaq,
əvvəlcə, bir neçə suala cavab ver.
De, görüm: - Böhtandan, qaradan,
yalandan, riyadan,
nahaq sözün acısından,
adamın nacinsindən
sığorta edə bilərsənmi?
Yox, əgər
bu və bunun kimi
ömrümüzü gödəldən
şeylərdən sığorta mümkün deyilsə,
onda, nahaq zəhmət çəkmə.
Dəftərini bük.
Qələmi yaxana sanc!
Məndən sənə nə qazanc!
Mən ölümdən sığorta istəmirəm.
Yox, bu deyil məqsədim.
Şair yaxşı deyib:
"Ölüm də həyat qədər qədimdir, qədim".

*1958*

**DÖRDÜMÜZÜN SÖHBƏTİ**

Sığınmışıq qəlbimə:
Ümid,
Şübhə,
Kədər
və mən.
Xeyli keçib gecədən.
Yağış yağır,
külək əsir.
Ümid deyir:
- Yağış kəsəcək,
külək kəsəcək.
Qaranlıq əriyib
sabah olacaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günəş doğacaq,
qızıl telləri saçaq-saçaq.
Şübhə deyir:
- Haçaq?
Haçaq
yağış qara çevrilə bilər,
külək tufana dönə bilər,
gecə uzana bilər?

Kədər deyir:
- Yağış qurusa da,
səhər olsa da,
külək kəssə də,
nə təsəlli var,
nə son var
içimdəki yetim səsə.

Ümid deyir...
Şübhə yeyir...
Şübhə deyir...
Kədər yeyir...

Mən dinləyirəm:
Ümidi,
Şübhəni,
Kədəri.
Gözləyirəm səhəri.
Doğsun Günəş
qızıl telləri saçaq-saçaq.
Soruşmuram: "Haçaq?"
Danış, ümid!
Danış!
Köhnə tanış!

*Moskva, iyul, 1960*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNSAN

Səslər kəsildi.
Fikirlər dolaşdı.
Qurğuşun asıldı kirpiklərdən.
- Aç qapını!
- Buyur!
- Mən ölüməm, gəlmişəm!
"Xoş gəldin" desəm,
bir az gülməli çıxar.
Gəlmisən, apar!
Adı, atasının adı,
yaşı, ünvanı budur...
- Gedək, dur!
Sükut çökdü araya,
uzun, dərin bir sükut,
bir saniyə tamam...
Qalxdı ayağa
dedi: - Gedək.
Demədi: "Yanılmısan,
Mən deyiləm
sən axtardığın adam".

**SAATIM - QƏLBİM**

Saatımla ürəyimin
ahəngi birdir;
bir dəqiqədə 60.
Saatımı mən qururam,
vaxt üstündə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürəyimi həyat qurur,
qəm üstündə.
Qayğı.
ümid,
nigaranlıq,
baxt üstündə.
Saatım dayananda,
qulağını bururam,
yenə çıq-çıq işləyir
ürəyimin sükutunu gizləyərək.
Tez, ya gec,
Bilirəm ki, gələcək,
saatımla ürəyimin ayrılığı.
Nə qədər ki, vurur ürək
Saatımı öz vaxtında quram, gərək.

*27 avqust 1976, 17 may 1977*

***

Saatımı bərk qursam,
sına bilər.
Nə qəm, onu təmir etmək olar,
Bəd başında yenisini alaram.
Ürəyimi sındırmayın,
Təmiri mümkün deyil.
Yenisini almaq olmaz.
Tələsməyin, tələsməyin,
Bir gün özü sınacaq,
Dayanacaqdır, vallah...
Bəlkə, bu gün...
bu axşam...
Bəlkə, sabah.

*17 may l977*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QƏRİBƏ ARZULAR**

Axır günlər
məni düşündürür yaman,
Danəndə Bəhlul,
bir də
"Min bir gecə"nin
dolaşıq yollarındakı qara qul.
Bir də Kefli İskəndər.
Bəli, Kefli İskəndər.
Bir də Afrikanın qumlarında
göz-göz yara kimi açılmış faciələr.
Bir də azadlıq, koloniya,
"qüvvət", "ədalət" kimi sözlər.
Bir də Madriddə korridada
al-qanına boyanmış
matadorlar, öküzlər.
Hər şeydən artıq
düşündürür məni,
Danəndə Bəhlul.
Yox, Kefli İskəndər,
bir də kölgə kimi
məndən ayrılmayan bu kədər.
İşıqsız yaşasam,
kölgədən qurtararam.
İşıqda kölgəm var,
mən də varam.
Ah, Bəhlul Danəndə!
Bəhlul Danəndə!
Nə təb qaldı,
nə tavan məndə.
Götür, İskəndərə zəng elə,
Bəhlul Danəndə!
İçkini siz gətirin,
yeməyə bir şey tapılar məndə.

*Bağdad, 1959*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KEFLİ İSKƏNDƏR

Kimi dərdindən içir,
kimi kefindən.
Kimi təzə paltardan qorxur,
kimi kəfəndən.
İskəndəri soruşdunuz məndən?
İskəndər içərdi,
Ləqəbi də "Kefli İskəndər"di
Gecə-gündüz düşündürürdü onu,
diri ölülərin dərdi.
Yoxsa, o da bir poçt məmuru olar,
nə dərdlənər, nə içərdi.
Ömrü ölülər içində
sakit, səssiz keçərdi.
Qınamayın İskəndəri!
Yaman olur anlamaq dərdi.

*1960*

## İSKƏNDƏR, ÇATSKİ, ÇAYLD HAROLD

Təhlil vərəqlərində
Faizlər normaya yaxın.
Kefim duru.
Maqnitofondan axıb gəlir
ölməz fuqası Baxın.
Zəng çaldım İskəndərə.
Dedim: - Gəl!
Bu axşam bir fincan qəhvə içək.
Bənd olma,
yağış oldu, qar oldu.
Özün gəl,
həm də çağır, gəlsin,
Çatskini, Haroldu.
Əvvəlcə, İskəndər gəldi;
yanında Nazlı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çatski bir az sonra.
Lap axırda Çayld Harold.
Üzürü bu oldu:
- Yol uzaq!
Əsrin o tayı,
Dənizin o tayı.
Otağım, sanki,
dəyirmi masalı klub oldu.
Çatski danışdı;
ağıldan başına nə bəlalar gəlib.
Harold maraqlı macəralarım
açdı, tökdü.
İskəndər dinmədi,
baxdı Nazlıya.
Çıxartdı qoltuq cibindən
"Göygöl" markalı konyak şüşəsini.
Nazlı tutdu əlini onun,
Dedi: - Bəsdir, içmə, dadaş!
Vallah, deyəcəyəm atama!
Və aldı İskəndərin əlindən
konyak şüşəsini. İskəndər dedi:
- Mənim Nazlı bacım,
istəyirsən, sındır, at!
Amma,
şüşələri sındırmaqla
sağalmaz insan dərdi.

Bu gecə qonağım üçlərdi.
Ağlın bəlasını çəkmiş,
əsrin cəfasını çəkmiş,
ölülər aləminin yasını çəkmiş
üçlər...
Açdım pərdəsini pəncərəmin,
işıq nəhri kimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dalğalanıb axırdı küçələr.
Səssiz, sakit çıxıb getdi,
Harold, Çatski, İskəndər.
Otaqda mən qaldım,
Nazlı qaldı,
bir də kiçik qızım.
Nazlı sabah
tarixdən imtahan verəcək.
Ona yaxşı bir hədiyyə alam, gərək.

**İBLİSLƏ SÖHBƏT**

Gecənin bir aləmi.
Yarıqaranlıq otaq.
Açdım gözlərimi.
Gördüm kimsə dayanıb
pəncərə qabağında.
Kölgəsindən tanıdım onu;
İblisdi.
Gözlərimi sildim:
"Bəlkə, yuxudur" - dedim.
Boğuq qəhqəhə səsi gəldi.
İnandım, özüdür;
bu da onun kölgəsi;
bu da onun tükürpərdən səsi.
"Gərək gəlməyəydin! - dedim.
Gəlmisən, gəlmisən!
Mətləbini de!"
Kölgə qızardı, qızardı...
Elə bil, indicə
ətrafı yandıracaqdı.
Otağım da, sanki, daraldı,
bir qəbirə döndü.
Kölgə təklifsiz oturdu,
yatağıma yaxın.
Dedi: - Nə görmüsən yaşamaqda?
Dedim: - İnsan yaşamaq üçün doğulur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Güldü İblis.
Qəhqəhəsi titrətdi
Pəncərənin şüşəsini.
Dedi: - Allah kəssin,
insanların bu standart
damşmaq peşəsini!
Dedinı: - Allah niyə?
Sən ki ona düşmənsən!
Dedi: - Bu Hötenin uydurması,
Cavidin böhtanı,
Lermontovun yalanıdır.
İblis, ancaq
yalançı mələklərin düşmənidir.
Mətləbə qayıdaq, - dedi.
Dedim: - Səninlə mənim nə alverim!
Nahaq əsəbiləşirsən, - dedi, -
nahaq.
Mən İblis,
sən insan.
Gəl, anlaşaq!
- Necə?
- Bax, bu gecə
tanıdığın adamlardan
bir neçəsini sənə tanıdım.
Biri bax, bu, - dedi.
Baxdım, tanıdım.
- Necədir səninlə arası? - dedi.
- Çox yaxşı.
"Dost" deyir,
"qardaş" deyir mənə.
- Onda qulaq as! - dedi, -
sənsiz dediklərinə!
Dinlədim.
İlk cümləsindən
heyrətə gəldim.
Boğazıma qurğuşun kimi
tıxandı nəfəs.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Kəs! Dedim, kəs!
Bu, sənin hiyləndir!

Güldü İblis.
- Yox! - dedi,
- bu, mən biləndir.
İndi bildin sən də.
Tanıyarsan adamını bundan sonra
duz-çörək kəsəndə.
Bu da tanışdır sənə?
Eləmi?
Baxdım, dinlədim.
Elə bil, başıma çevirdilər aləmi.
Qulağımı tıxadım.
Yumdum gözümü...
Ayıldım.
Qan-tər içində gördüm özümü.
Gecəlik çırağın zəif işığında
divara düşmüşdü
kürsü üstündəki pencəyimin kölgəsi.
Nəfəsimi dərdim.
Dedim, nə yaxşı ki,
yuxuda otağım olmuşdu
İblisin fənalıqlar ölkəsi.
Yox deyil dünyada
namərd dost,
kəmfürsət adam.
İblis olsa da, olmasa da,
ayıqlıqda, yuxuda,
onlara yadam.
Qəlbimdə, əllərimdə
dost sözünün, dost əlinin
hərarəti var.
Yalan deyir İblis.
Məhəbbətə, etibara
dəyər insanlar.

*1961*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DƏLİDƏN DOĞRU XƏBƏR**

Dəliyə bax, dəliyə!
Baharlanıb çöl, bayır
Dəliyə bax, dəliyə!
Xalq gülür, o ağlayır.
Dəli sınıq budağı
bağlayır dəsmalıyla.
Deyir: - Pöhrə balamı
incitməyin, insanlar!
Dəliyə gülür onlar.
Dəli yazıq neyləsin,
ağlamağa haqqı var.

*1962*

**NƏNƏMUÇ**

Balaca bir cücü var,
"nənəmuç" deyirlər adına.
Üstü qara-qırmızı, xal-xal.
Ovcuma alardım onu
"nənəm uç, uç!" - deyə.
Qanadlarını açıb-yumardı,
ovcumu gəzə-gəzə.
Birdən qalxardı havaya.
Baxardım arxasınca nə qədər,
ey... gözdən itənə qədər.
Sola uçsa, yaxşı deyil,
Sağa uçsa səadət gətirər.
Nə qədər çalışdımsa,
bu zalımın cücüsü,
nə bir dəfə sola uçdu,
nə sağa;
elə həmişə düz, qabağa.
Neyləyə bilərdim;
dünya böyük,
mən uşaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonralar anladım ancaq.
Anladım ki, səadət nədir.
O başqasının qanadında deyil,
öz əlindədir.

*yanvar, 1962*

## YERSİZ MƏZƏMMƏT

Onun əynində qalın palto,
başında tüklü papaq,
ayağında keçədən çəkmə,
əlində yun əlcək var.
Mən də
sadalasan bunları,
cümlənin axırı "yox"la qurtarar.
Hava şaxtalı.
Qar tökür iynə-iynə.
O, heyrətlə baxır
əllərimin göyərdiyinə.
Və deyir:
- Şaxta yaxşı şeydir,
adama ləzzət verir.
Nahaq yerə sən
qışı sevmirsən!

*1958*

## AÇIM, YA BAĞLAYIM

Pəncərəni açsam
bol-bol hava gələr.
Bəlkə, bir az üşüyərəm.
Pəncərəm örtüləndə
bir otaq havam qalar,
başım ağrıyar,
töyşüyərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Neyləyim?
Deyirsən: "Hərdən aç,
Hərdən ört pəncərəni".
Onu mən də bilirəm;
avam sanma məni.
Son suala cavab ver, kişisən!
Tövşüsəm yaxşıdır, üşüsəm?

*yanvar, 1962*

**QOY ÇƏKİM**

"Papiros çəkmə!"
"Çəkmə!" -
dedi neçə həkim.
Nazimə dedi.
Səmədə dedi.
Müşfiqə dedi...
daha neçəsinə...
"Ürəyə zərərdir.
Qan damarlarına zərərdir.
Bir söz:
tütün tüstüsü,
tütün tozu,
tütün özü
insana zəhərdir.
Çəkmə!" - dedi neçə həkim
mənə de.
"Elə-belə,
vaxtaşırı,
məzə üçün,
tüstüsünü sinənə çəkməsən də,
çəkmə!" - dedi neçə həkim.
Çəkməyim?!
Bəs neyləyim, qardaş?
Neyləyim, əzizim?
Gözlərimi yumub,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qulaqlarımı tıxayımmı,
bu insanxanada?
Hardadır dünyada,
o tənhalıq?
Aparım xırdalanmış ömrümün
mis pul -
günlərini, ayını.
Görməsin, eşitməsin qəlbim
insan dərdini,
günlərin harayını.
Olsa da, belə bir tənhalıq,
gedərəmmi,
öz əlimlə boğmayıb
pasportsuz kədərimi!

*1968*

## TƏSADÜFİ RƏQƏMLƏR VƏ İNSAN SƏSİ

Rəqəmlər düzülüb yan-yana.
İkiylə başlayanı var,
üçlə başlayanı var;
hələ beşi, yeddini demirəm.
Barmağımı qoydum
iki rəqəmli dəliyə.
Çəkdim hərləci.
Bir səs
"Allo", - dedi.
Dedim: - Allo,
mən sizi təbrik edirəm.
Dedi: - Sağ olun, ancaq...
Dedim: - Münasibətini bilmək istəyirsiniz,
elədirmi?
Baxın, nə yaxşı gün çıxıb,
hava necə ılıqdır.
Göydəki topa-topa bulud
ağappaq, tərtəmiz,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

süd köpüyü kimi;
elə bil, sülh bayrağıdır.
Bu münasibətlər kifayət deyilmi?
O başda bir gümüş çağlayam
axdı dəstəyə.
Bu başda dəstəkdən
doldu qulağıma:
- Sağ olun,
öpürəm sizi, bir qardaş kimi.
- Sağ ol.
Asdım dəstəyi...
Heç olmazsa, bir günün səadəti üçün,
Bu ülfət, bu mehribanlıq bəs deyilmi?

*1962*

**ETÜD**

Hələ axşam düşməyib,
üfüqlərdə şəfəqlər
hələ gözləyir.
Axşamın yumşaq nəfəsi
sürünür yarpaqlarda.
Günəş getmək istəmir.
Bəlkə bilir:
Getsə, gələcək insan qəlbinə
qaranlıq kədəri.
Yavaş-yavaş
əriyir gündüzün rəngi.
Qurd qoyundan seçilməz olur.
(Belə deyib ərənlər)
Saatın əqrəbləri
bir-birinin üstündən
yubanmır keçir, gedir.
Ömür ölümə əsir -
Həyat: "Yubanım", - deyir,
Ölüm yaman tələsir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əqrəblər hey hərlənir.
Bu hərləniş, kim bilir,
nə zaman sona yetər.
Dünyamızda nə vardır
Belə bir intizardan,
belə möhnətdən betər?
Bir ümid var, bir inam;
Yaşayır hər gün insan.

*mart, 1980*

**İKİNCİ ETÜD**

Bu nə səsdir?
Yarpaqlardan
damcı-damcı süzülür,
Döyünür ürək kimi.
Gah, elə bil, pıçıltıya bükülür.
Narın-narın yağışdır,
ya küsülü nəfəsdir,
axır, əriyir gedir,
sükut olub üzülür.
Gah nazik sap kimidir,
qırılır.
Gah, qaranlıqda itir,
gah sükuta düzülür.
Gah elə bil söz deyir.
Birdən şütüyür, keçir.
Gah dayanır,
sanki, sükutu içir.
Nə səsdir?
Küləkdir, ya
mehriban nəfəsdir?
Ürək dilli tanışdır?
Anladım,
Könül adlı qəfəsdir.

*mart, 1980*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MİNİATÜRLƏR**

Gündüzümüzü Günəş verdi,
gecəmi sən.
Soruşursan: -
Necəsən?!

Yarpaqlar töküləndə
baxdım çılpaq budaqlara.
Küləyi kim gətirdi
bu çöllərə,
bu dağlara!
Quru oduna yandı,
yandı yaş.
Bəs deyilmi,
zamandaş,
dünyadaş?!
"Dilim-ağzım qurusun!
İraq olsun!" -
deyirdim,
acı təşbeh qorxusu
ürəyimə çökəndə.
İndi
dilim quruyur,
indi ağzım quruyur;
nigaran dünyamızın
qayğısını çəkəndə.

Ağlaya-ağlaya gəldik dünyaya,
ömrün acısını hələ duymadan.
Gülə-gülə gedək, yaxşı olmazmı,
acısı, şirini bol bu dünyadan.

Ay getdi, gələr yenə,
Gün çıxar səhər yenə.
Necə dözmək olar, bəs,
Əbədi həsrətinə.

*1959-1974*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DAŞLAR NƏ DEYİRDİ**

Dənizdən sahilə,
sahildən dənizə
sürüyür neçə yüz min ildir
dalğalar daşları.
Şırhaşır yoxuşa,
şırhaşır enişə,
yuxarı, aşağı.
Elə bil, sahildən dənizə
dənizdən sahilə daş axır,
Tinləri sürtülür, sürtülür
daşların.
Hap hamar, sığallı.
Baxıram, elə bil,
liberal adamdır.
Ancaq
rəngi ağ,
göy, yaşıl...
Doğrusu, bu sığal, bu hamar
daşlara yaraşır.
Zaman da insanı
aşağı, yuxarı çəkərək
haphamar eləyir.
Nə yazıq,
ən kiçik,
ən hamar bir daşın ömrünə
min insan ömrü də
bərabər deyildir.
Bəlkə də, təbiət - o qoca müəllim -
haqlıdır.
Dənizlər min illər boyunca
aşağı, yuxarı sürüyüb
sığallı, cilalı eləyir daşları.
Yəqin ki, bir şeyə yaramaz
adamın hər yandan hamarı.
Daşlara nə var ki, yüz əyil, yüz düzəl.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sürtülüb, kiçilib,
haphamar olurlar.
İnsan ki daş deyil,
İnsanın canı var.

## HƏYAT NOVELLASI

Mənə deyirlər
bagda yaşa;
sakit, həyəcansız.
Orda hava təmizdir, dəniz yaxın.
Şəhər yorur adamı.
Şəhərlə bağlı deyil işin, axı!
Bağda göyərçin də saxlamaq olar,
quzu da.
Gələn, gedən də az olar.
Yoluna düşər yazı-pozular.
İstəsən, ağac dibi götür,
istəsən, qapı, pəncərə rənglə,
istəsən, gül ək!
Necə?
Mən?
Şəhərdən ayrılım?
Bağda qalım?
Mən ha?
Maraqlı fikirdir,
Bir götür-qoy eləyəm, gərək.

*1962*

## XÜLYALAR YOLUNDA

Görəsən, Xəzərin neçə yaşı var?
Görəsən, nə zaman
qalxıb, qabarıb
Şubanı dağı?
Görəsən, Abşeronun altında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

neftdən qabaq nə olub?
Görəsən, kim yandırıb
birinci ocağı,
Bayıl sahilində?
Ulduzlara baxıram.
Dünən də vardılar,
bu gün də olacaqlar,
Sabah da olacaq...
Görəsən, Xəzər nə qədər yaşayacaq...
Görəsən, Şubanı dağı
nə zaman çökəcək?
Görəsən, Abşeron altındakı
neft qurtaranda,
yerində nə qalacaq?
Görəsən, kim yandıracaq,
yeni çıraqları Xəzər sahilində?
Görəsən, kim deyəcək,
yeni nəğməni,
nə dilində?

*yanvar, 1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ÖLÜMDƏN GÜCLÜLƏR**

*Qəhrəmanlıqla həlak olmuş dəniz*
*neftçilərinin xatirəsinə*

Kimi bura "Yeddi gəmi adası", deyir,
kimi, "Neft daşları".
Mən ad qoymalı olsaydım, əgər,
bura ad verərdim:
"Dənizdə nəğmələr".
İşiniz nəğmə kimi
qanadlı, gözəl, həyəcanlı,
nəğmə kimi sərt,
doğumu çətindir.
Nəğmə kimi həvəs dolu, canlı,
nəğmə kimi sarsılmaz, mətindir.
Neçə kərə gecələr uzandı,
elə bil, yollar bağlandı səhərə.
Çəkilmədiniz iş başından.
Geri durmadınız
həyatın sərt, amansız savaşından.
Buruqlara verdiniz
əllərinizin hərarətini,
qəlbinizin məhəbbətini.
İlk dəfə siz
yaydınız mavi səhraya
şülək-şülək polad yolları!
Ada-ada buruqları.
Dalğalar hiddətləndi,
hərəsinin kürəyində ağ yalı -
sıçrayıb qalxdılar
başaçıq, ayaqyalın,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bura bizimdir! - deyə.
Kimin nə həddi var gələ,
bu maviliyə!
Uğuldadılar uğum-uğum.
Dənizi böldülər buğum-buğum.
Siz çəkilmədiniz.
Qorxu bilmədiniz,
Buz dağları gəldi
nərildəyə-nərildəyə:
- Bura bizimdir,
bizim! – deyə.
Bir addım belə durmadınız geri.
Ayaqlarınızın altında çökdü suya
buz dağları,
parçalandı fırtına nəriltiləri,
Acizliyinə peşman kimi,
ölümünü gözünə almış düşmən kimi,
fırtına qalxdı yeni qüvvətlə.
Külək əsdi, nə əsdi,
Dalğaların zəlzələsi yolları kəsdi.
Fırtına coşdu
qışqıra-qışqıra,
ulaya-ulaya:
- Bura bizimdir,
bizim! - deyə.
Siz əzminizdən qalmadınız.
İşinizi sürətdən,
qolunuzu qüvvətdən,
qəlbinizi məhəbbətdən salmadınız.
Günlərlə sürdü,
insanla təbiətin mübarizəsi.
Üfüqlərə nəğmə-nəğmə yayıldı,
qalib insan səsi.
Fırtınalar yatdı.
Yoruldu dəniz.
Qırıldı inadı.
Yeni polad yollarla yazıldı
mavi səhralara
dənizi fəth edənlərin adı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Siz,
sabah yenidən doğacaq ulduzlar kimi
töküldünüz dənizə -
hansı fırtınadır,
qüdrəti tay ola
sizin iradənizə?!

*1961*

## BİR DOSTUN XATİRƏSİ

*Ağa Nemətullaya*

Adını Ağa qoydular.
Səndə ağalıqdan nə vardı?
Nə ocaqda köz,
nə bucaqda un çuvalı...
yamaq-yamaq arxalığın
göz muncuqlu, dualı.
Böyüdün...
Gözlərin intizar.
Könlün qubar.
Əllərin qabar.
Dərdinlə, möhnətinlə
qalxdın həyat yolunu,
addım-addım, pillə-pillə.
Bu gün səndən yadigar
neçə boylu buruq var.
Maili qazılanı da,
düz qazılanı da.
Maraqlı tarixi,
üstü mazut dəftərlərdə
Adınla başlayanı da,
adınla qurtaram da,
əlinlə yazılanı da...
Mən bilirəm;
Dastana layiqsən,
Lakin dastanlarımız tünlükdür,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eyzən, ideal həkim,
ağlı gözündə qız,
bir də yarım dahi bəstəkar.
Eləsi var, ömrü beşgünlükdür,
Bəzisinin uzun yaşamağa
Haqqı var.
Söhbətim onda deyil,
ürəyimdə yuvalanıb nisgil,
Baxışların yadıma düşür;
Ağıllı, etibarlı,
Yadıma düşür duzlu
zarafatın.
Gözlərimdə canlanır
sadə insan həyatın,
Gözlərinin mehriban gülüşü
yadımdadır.
Saçlarının seyrək gümüşü
yadımdadır.
Yadımdadır Moldaviyaya
səfərimiz,
Dilindən düşmürdü
iş, buruq, dəniz...
Kişinyovdan telefon elədik,
Mən Bakıya, evə,
Sən Bayıla, iş yerinə.
Bir əfsanə dinləyən kimi,
Heyran-heyran qulaq asdım
Sənin sorğularına,
sənin dediklərinə.
- 56 necədir?
On doqquzdan nə xəbər?
On dəqiqə qurtardı,
Telefonu kəsdilər.
Dedin: - Hə, allo, Bakı!
Allo! Allo! Uşaqlar!
Vaxt qurtardı!
Cavab ala bilmədin.
Gülümsəyib: - İnşallah
Buruqlar sağ-salamatdır, - dedin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaşlarının düyümünü,
elə bil, kimsə açdı.
Qırışdı gözlərinin kənarı,
Dodaqların da qaçdı.
Dedin: - Şair, sən soruş, barı!
Soruş, uşaqları.
İndi nə təbəssümün,
nə gülüşün var.
Gözlərim göynəyir.
Ürəyimə qısılıb arzular,
İstəyirəm qalxam
hündür bir dağ başına,
bağıram, səsim gəldikcə.
Elə ki, eşitsin hamı.
- Dostlar, bir dostum ölüb;
Ağa Nemətulladır adı.
Adamların ən yaxşısındandı!
Haray çəkəm:
- Dostlar, bir dostum ölüb;
Nə evimə gələrdi.
Nə evinə gedərdim.
Ev nədir, aləm nədir,
indi ürəyimə sığmır dərdi.

*1959*

**QƏHRƏMANIN ÖLÜMÜ**

*Bəsti Bağırovaya*

Öldü qəhrəman!
Nə alay bayrağı saldılar üstünə,
nə yaylım atəşi açıldı toplardan.
Susdu torpaq!
Yoluna illərlə kölgə salmış ağaclar
susdu.
Aratı faraş qoyulmuş şumlar,
yaxın yamaclar susdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, silah qəhrəmanı deyildi.
O, zəhmət ordusuna məxsusdu.
Axşam yatdı, səhər durmadı.
Çox yatmaqla arası yox idi.
Ömrünün ilk yarısındakı
acı günlərdən başqa,
yarası yox idi.
Eldən-elə, ölkədən-ölkəyə gəzdi adı.
Dolu, qaynar bir həyat yaşadı.
İndi uzanıb sakit,
nə qaşında düyün,
nə dodaqlarında bir iztirab qırışığı.
Lampasını dünən
özü söndürdüyü otağın küncündə
gecənin boyat qalığı;
çöldə, pəncərə qabağında
səhər Günəşinin gur işığı.
Hər şey yerində:
zərfi açılmış məktublar da,
bir neçə yerdən
qələmlə cızılmış qəzetlər də,
dəstəyi ağ baş darağı da,
qələmyonan cib bıçağı da.
Masa siyirtmələrində
məktublar yığın-yığın.
(Gündə neçə saat oxuyasan, gərək,
cavab yazasan, gərək.
Bu işi də var qəhrəmanlığın)
Uzaqdan gələni var.
Yaxından gələni var.
Hər məktubda bir insan məhəbbəti,
bir insan marağı,
bir insan ümidi.
Çoxlarına o, ana, bacı idi,
qardaş kimi idi.
Hələ neçə məktub yoldadır,
cavabsız qalacaq.
Mən "bədbinlik bizə yaddır" deyə,
yaza bilərdim: - Yox!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar yeni-yeni bəstilərdən
cavab alacaq.
Ancaq, necə deyim.
Bəsti-Bəsti idi!
Süräyya - Süräyya!
Adları yazmaq olsa da bir sıraya,
hər insan təkrar edilməz bir fərddir.
Nə bir-birinin eyni,
nə surəti, nə əvəzidir.
Bu, şərtdir.
Bəlkə insanın bir məziyyəti də bundadır.
Çörək – çörəkdir, su - su.
Ancaq min ağızda min cürə dadır.
Öldü qəhrəman!
Bəlkə, Ayın qızıl orağı
əyiləndə üfüqə gecə yarı
Ürək deyilən möcüzənin dərinlərində
qırıldı bir kiçik qan damarı.
Həkimlər adı bir latın kəlməsiylə yazdılar
qeyri-adi bir ömür kitabının
müəllifsiz son sətrini.
Bir də qonşusu qarı,
gözlərini balağıyla silə-silə dedi:
- Çox istəyirdi rəhmətlik mənim xətrimi...
Sonra da titrəyərək səsi,
yavaşdan, lap yavaşdan əlavə etdi:
- İndi istəməsin.
Öldü qəhrəman!
Nə alay bayrağı saldılar tabutuna,
nə yaylım atəşi xəbər verdi dəfnini.
Üstündə - göylərin
üfüqdən-üfüqə açılmış mavi bayrağı.
Altında - tər tökdüyü,
bala kimi əzizlədiyi Vətən torpağı.
Öldü sakit, alnıaçıq, üzüağ!
Bir xəfif yel, bəlkə,
dərdli insan ahı kimi,
əydi çılpaq ağacları,
çubuq-çubuq, budaq-budaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Apardı bu xəbəri yaysın,
ürək-ürək, dodaq-dodaq.
Öldü qəhrəman!
Bir an yubanmayıb, keçib gedən
iş günü,
həyat günü,
mübarizə günlərinin birində.
Pencəyinin yaxasında qoşa qızıl ulduzu...
Öldü xalq qəhrəmanı, Vətən qızı.
Öldü,
bir ağac illərlə bar verib
bir yazqabağı quruyan kimi,
Gur sulu bir bulaq
axıb-axıb quruyan kimi,
Öldü,
yanıb-yanıb
sönən bir ocaq kimi.
Calaq vurub,
çörək kəsib
birdən sınan bıçaq kimi.
Kim tanımırdı onu?
Əlləri miyanadan kiçik,
işi böyükdən böyük idi.
Boyu miyanadan alçaq,
özü qoçaqdan qoçaq.
Ayrıldı bizdən,
qəhrəman qızı yurdumuzun.
Bir müdrik kəşfiyyatçısı
zəhmət ordumuzun.
Xırda balışlar üstünə qoyuldu
medalları, ordenləri, ulduzları.
Sıra-sıra düzüldülər
tarlada doğmalaşdığı
oğulları, qızları.
Yaşlı gözlər, sanki,
tabutunun arxasınca ağır gedən
karvan-karvan - göy ulduzu idi.
Ö özü göydən enməmişdi.
Göylərə güvənməmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O bu yerin, bu torpağın qızı idi.
Saxlayın tabutu, el yolunda!
Saxlayın, bir qədər!
Əysin başını insanlar.
Əyilsin dağlardan enən kölgələr.
Sükut yayılsın,
üfuqdən-üfuqə uzanan torpağa.
Bu torpağın hər çimində
onun əllərinin qoxusu var.
Hər dan yeri qızartısında
onun ən şirin vaxtı qırılan
yuxusu var.
İndi sakit soyuq
o əllərin hərarətini,
indi qapalı
o gözlərin işığını,
bir uşaq tabutuna yerləşən
o bəstə boyunun yaraşığını
verdi ki, o,
insanlar arasında
qoca-cavan, yaxşı-yaman, deyə,
bölüm olmasın.
Ayrılıq olmasın, ölüm olmasın.
Danışanda, sakit idi,
çalışanda, deyirdin
od kimi közərir.
Doğulduğu yer - Gəncəbasar.
Səfikürd kəndi.
Milliyyəti - azəri
Ancaq yeri genişdi.
O, bir kəndə, bir obaya bəndlənməmişdi.
İftixarla adını çəkə-çəkə,
ona "qızım" deyərdi, xalq.
"Qəhrəmanım" deyirdi,
böyük bir ölkə.

*Peredelkino, 2 mart 1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Təkliflər**

İnsanlar,
ey insanlar!
Məni hərdən incidib
könlümü sındıranlar!
Axtarın bu qəlbimi,
bir caninin dolaşıq
cinayət yollarını
gəzib axtaran kimi.
Orda sizlərə qarşı
nə bir parça ədavət,
nə də kin görərsiz.
Bəlkə, tənə daşından,
büllur kimi qırılmış
ürəyimin
qızıl qan verdiyini görərsiz.
Elə günlərim oldu
el uzatdım dostlara,
əlim havada qaldı.
Bildim yaman gündəyəm.
Bitməz bu giley-güzar,
bir an ara vermədən,
oturub yüz gün deyəm.
Mən də ürəyi ət,
qan bir canlı, bir insanam.
Helə torpaq deyiləm,
qızmar oda dayanam.
Oddan, atəşdən belə,
şikayət eləməzdim,
söz yarası olmasın!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çirkin qəlbdə bəslənib,
acı dildən süzülən
iftiranm, qeybətin
tünd qarası olmasın!
Yoldaş, qardaş, vətəndaş,
düşmə sözün toruna!
Düşmə həsəddən doğan,
qara məqsəddən doğan,
yalan sözün toruna!
Kənar durma, yan qaçına,
mərd üzünü gördüyün
dostundan, işdaşından,
cüzamlı bir xəstədən
qaçıb yan duran kimi.
Gəl, açaq qəlbimizi,
açaq, nə var görünsün,
qaranlıq bir otaqda
işıq yandıran kimi.
Özün gör!
Özün düşün!
Özün götür qərarı.
Çətin gündə
yoxla, gör,
ağır gündə bax, sına,
dostları, insanları.
Mən də adi insanam;
Nə başdan-başa tərif,
nə də cılxa nöqsanam.

*1954*

**GİLEY**

Mən hansı xanədə
tutdumsa qərar,
Hər yetən piyada
"şah! şah!" elədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Neyləyim ki, belə
kür taleyim var,
Məni nadanlara ürcah elədi.

*1953*

## AYDINDIR ŞEİR DİLİ

Hər kim nə deyir, desin!
Şeir dili aydındır.
İstəyirsən sevincdən,
istəyirsən qəmdən yaz.
Elə aydındır bu dil,
nadan yüz yol oxusun –
yenə bir şey anlamaz.

*1958*

## YENİ SÖZ

Nə əynində arxalıq görürəm,
nə başında naxışlı təsək
Geyimin müasirdir.
Qan düşüb qiyamətmi olar,
qulağın öyrənməmiş
bir söz desək?
Ağzını büzürsən.
Bu, nə sirdir?
Ay bala!
Atam oğlu,
axı, geyimin müasirdir!

*1957*

## ƏNƏNƏ

Yollar torpaq olanda
ləpirimiz qalırdı.
Yollar beton geyindi,
ləpirimiz də qalmır



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

belə yollarda indi.

Neyləyək,
bir ləpirçin,
sökəkmi betonları!
Torpaq yolun çiyninə
necə yükləyək, deyin,
maşınlar tərkindəki
ağır-ağır tonları.

*1962*

**NEYLƏYİM, AY BALA!**

Eşitdim ki, yenə şerim xoşuna gəlməyib.
Neyləyim, bacıoğlu?
Neyləyim, bala?
Kimi özgə sözünü
noğul kimi udur,
kimi cırıldadır
köhnə cəhrəsini.
Mənim də bacardığım budur.
Nə qaşına sürmə çəkmişəm,
nə ənlik-kirşanlamışam
çöhrəsini.
Sətirlərim sığallı deyil,
şəkərli, ballı deyil.
Nə mey məclisinə,
ne qız albomuna yarayır onlar.
Onların başqa yeri,
ayrı gərəkliyi var.
Qafiyə axtarırsan,
yerli-yersiz.
Misralar da
həmboy olsun,
həmrəng olsun,
həm də əkiz.
Sən deyən başqa şeydir,
ay oğul:
- ...Şərbət;
hamam divarında bülbül;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dimdiyində qızılgül.
Ya bir dəstə
qırmızı çiçək.
Yanında,
oxa çəkilmiş ürək.
Sən deyən orda qalıb, bax,
o illərin
arxivə verilmiş günlərində.
Yoldan hamı keçir.
Suyu hamı içir.
Ancaq yol var, düz, geniş,
Yol var, yoxuş, eniş.
Yol var, günəşli sabaha gedir.
Yol var, ziyarətgaha gedir.
Çay var,
qurbağası ilə məşhurdur,
Çay var, suyundan alınan
qüvvətlə.
Adam var, "dərin getmiş", deyərlər.
Adam var, yad edirlər hörmətlə.
Otur yerində, bala.
Nə həsəd apar!
Nə xiffət elə!
Buna zaman deyərlər, zaman!
Nə xətir görür,
nə guzəşt bilir,
nə aman.
Nə rayon təəssübü çəkir,
nə tanış.
Saqqız kimi çeynəmə
xurcun qafiyələri.
Fikrin var,
söz danış.
Ağzını büzmə,
yüzdə birini qanmamış!

*noyabr, 1961*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏZMUN**

Atalar deyib:
"İgid başı qalda gərək!"
Haqlı sözdür.
Gərək zamanın isti-soyuğu
Kişiyə dəysin.
Ancaq gərəkəzmi
qeylü-qalın özü də
bir şeyə dəysin?

*1963*

**FANTASTİKA**

Oxudum, oxudum,
Dedi: - Başa düşmədim.
Təkrar oxudum.
- Başa düşmədim! - dedi.
Gözlərimə çökdü qaranlıq.
Şübhələrim gicitkənə döndü.
Canımı dişimə tutub,
bir də soruşdum:
- Heç nə başa düşmədiniz?
- Yox! - dedi.
Dedim: - Yaxşı,
Şeri inkar etdiniz;
heç olmazsa,
kağıza qiymət qoyun,
hüsnxəti bəyənin.
Dinmədi.
Birdən qanım döndü.
Tüklərim ürpərdi.
Baxdım, nə gördüm:
Çiynində başı yox imiş,
başa düşməyənin.

*iyun, 1963*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QAFİYƏ**

Alan və salan.
Dan və aman.
Yorulmadınmı?
Cüt olur qulaqları
insanın.
Nə olsun?
Elə buna görə gərək
bütün sətirləri
divara xalça mıxlayan kimi,
qafiyələyək?
Həm də yan-yana,
cüt-cüt.
Şaire yazığın gəlmirsə,
oxucuya yazığın gəlsin.
Qoy qulaqlan bir az...
Gözləyirsən, deyim:
- Dincəlsin!
Yox, "sakit olsun!"
Belə!
Qafiyəsiz.
Bu sözlərim
elə bilmə
hər cür qafiyəyə dairdir.
Yox!
Qafiyəyə nə gəlib,
Axtaran olsun gərək.
Qafiyəyə nə olub,
çeynəyib, gövşəməsək.
Onu yaman günə qoyan
qələmi küt şairdir.
Sözüm belələrinə dairdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QISA ŞEİR

*(Bir yığıncaqdan sonra)*

Qonorarı az olsun,
ömrü uzun.
Şair qardaşlar,
vallah,
ən doğrusu budur,
dava-dalaşlı,
həyəcanlı, təlaşlı,
şərəfli yolumuzun.
Qoy şeir
qısa olsun və dərin.
Yuxusu ərşə çəkilməsin,
haqq-hesabımızı çəkənlərin.

*1958*

## MAHNI

Gözlərin qapqaradır,
Neyləyim?
- Vur öldür!
Qaşların ayparadır,
Neyləyim?
- Dur, öldür.
O qaşların kamanı
yamandır.
Neyləyim?
Qəlbimdəki tufanı
mən kimə söyləyim.
Boy-buxun,
aman Allah!
Rəhm elə!
Qaşların yayını
çəkmə elə!
Dodaqlar, o dodaqlar,
talandım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ocaqlara, odlara
qalandım.
Qarət eləyib tamam
soydular, apardılar.
Nə səbr qaldı məndə,
nə qərar...
Dişlərinin incisi
elə sakit durub ki,
nə dil bilsin sirrini,
nə də dodaq incisin.
Yanaqların
nə alma,
nə lalədir.
O baxışlar, baxışlar,
dastanlara sığmayan
nalədir.
Qafiyə var, vəzn var.
Aparın, sizin olsun
umu-küsü, ahu-zar!
Aparın sizin olsun!
Bəs mənə?
Mənə də hərdən, hərdən
qoşmabazlar əlindən,
təqlidçilər selindən,
qafiyəsiz, vəznsiz
yazmağa izin olsun.

*1958*

**NATİQ DEDİ Kİ...**

Deyirlər ki,
uzun, gödək
sətirli şeir yazanlara
məqbul deyil,
şair demək.
Deyirlər ki,
şerin sətirləri
bərabər olsun, gərək;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

köhnə alaçıq çığları kimi,
Təşbehlər cunalı olsun;
sətirlər sığallı, yağlı,
qafiyələr xınalı olsun;
köhnə bir qoçunun
bığları kimi.
Deyirlər,
bir kəlmə sətir olmaz!
Sətir uzun olsun, gərək.
Hər sətir heç olmasa,
üç yarım
failatün olsun, gərək.
Sətrin boyu ilə ölçürlər,
şerin dəyərini.
Təyyarədən doğma, əziz bilirlər
cağlı araba təkərini.
Söz necə sözdür?
Sözün içindəki
soyuq güldür,
ya qızmar gözdür? -
Bunda işləri yoxdur,
bu sərrafların.
Bu nəcabət kanı,
bu elm dəryası,
bu mayası safların.
Döyüş silahından
iyirminin ikinci yarısında
hələ,
bir qılınc tanıyırlar,
bir də ox!
Nəzəriyyədə budur iddiaları;
müsbət qəhrəmanın
çayı bol olsun,
qarnı tox!
Onlar quraqlığa düşməndir.
Suya iştiyaqları var.
Onlar əsərə su hopduran kimi,
Yerə su hopdura bilməz,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

heç bir cuvar.
Bunu demək istəsən,
tabunu gözünə al, sən!
Əsərdə fikir az olsa da, keçər,
söz bol olsun.
Həm də bu sözlər, gərək
onlara tanış olsun,
Kəblə Fatmanın balağı kimi.
Kitab gərək böyük olsun,
yeddi il qızdırma çəkmiş,
bir titrətməlinin dalağı kimi.
Kitabdakı nədir,
fərqi yoxdur.
Kifayətdir ki,
özü qalın,
vərəqləri çoxdur.
Şerin isə sətirləri
uzun-gödək olmasın.
Onlar deyir idealımız budur:
şerin sətirləri,
şirmayı daraq dişi kimi,
bərabər olsun.
Təşbehlər, yüsür təsbeh kimi,
sığallı olsun;
nə çağırıcı,
nə qeylü-qallı olsun.
Onlar sətrin boyuna baxır,
yağlı bir tikəyə baxan kimi.
Əgər, söz alışırsa,
əgər, söz çaxırsa,
ildırım çaxan kimi,
deyirlər:
- Bunlar ənənəyə ziddir.
Kim "bismillah" deyib
nahara qurşanmasa,
xalis yezid oğlu, yeziddir.
Bəlkə də, sözümdə ifrat var.
Özüm bilə-bilə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yazıram belə.
Qoy şerə toxunmasın
şeir anlamayanlar.
Bağıraraq:
- Budur, yeni əsrin şairi,
yeni qırmızı Füzuli.
Təqdim etməsinlər bizə
hər tutuquşunu,
hər fizulu.
Rahat qoysunlar
əziz xatirəsini
böyük ustadların.
Gizlənməsinlər arxasında
ala-çiy əzbərlənmiş adların.
Bir armud üstündədir,
deyib atalar,
ayının yüz oyunu.
Sözün var, söz danış.
Arşın alıb ölçmə
Ssətirlərin boyunu.
Sətirlər müxtəlif olur, oğlan!
Sözlər müxtəlif olur!
Sətir var ki,
vəzni,
çürük qoz kimi,
sözlərlə limhalim dolur, oğlan!
Söz var ki, bir eşidən
bir də eşitsə,
yorulur, oğlan!
Sənətin yolu nə asfaltdır,
nə cığır.
Sənətkar,
bal arısı kimi
yüz çiçək gəzir,
bir damcı bal yığır.
Deməyə layiq sözün yoxsa,
yazma!
Sən ki, kankan deyilsən,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

quyu qazma!
Həm də bu qədər dərin.
Özün düşərsən,
zillətdə keçər günlərin.
Çərçisən, nədir?
Yükün elə bıçaqdır, iynədir.
Nə üçündür bu qədər iynə,
Elavə edirsən
hər sözünə,
her dediyinə?
Fikrin
düşmənlə vuruşmaqdırsa,
iynə silah deyil.
Şeir,
mətni əvvəldən məlum
dua deyil,
nikah deyil.
Çıxart, o qara eynəyi gözündən!
Müştəbeh olma özündən!
Həyata məhəbbətlə bax!
Şeir də həyatın bir parçasıdır.
Yeni yolları biz açmasaq,
kim açasıdır?
Vətəndaş,
işdaş,
yoldaş,
kim açasıdır?
Axı
bəs kim açasıdır?

*1954*

## ŞEİR, VƏZN VƏ MƏHƏBBƏT HAQQINDA DASTAN

Nə vəzndə yazım ki, mən məhəbbətin acı, şirin sözünü,
Yeknəsəklik yelləriylə soldurmayım alovunu, közünü.
Onaltılıq çoxotaqlı geniş, yekə bir mənzildir,
Yaxşı-yaman, nəyin varsa, yığ içinə, doldur bir-bir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

On beşlik də tutumludur, yazmağa da asandır.
Ancaq yekə vəznlərdə yazmaq xeyli nöqsandır.
Ondördlük heç bəd deyil, sevirəm bu vəzni mən
Ancaq neyləyəsən ki, yan bölürlər hərdən.
Onüçlük də ara-sıra yarayır işə,
Ancaq onu tutub durmaq olmaz həmişə.
Üç bölgülü onikilik vəzn də var
Ahəngində oynaqlıq da, hüzn də var.
Onbirlik gözəldir, onu biz, gərək
İşlədib yormayaq, seyid atı tək.
Onluq da var, bazan kasaddır.
Çünki başqa vəznlər asandır.
Doqquzu işlədən azdır, az,
Üç və üç, yenə üç yaramaz.
Səkkizlik də çox yaxşıdır.
On altının qardaşıdır
Nə deyim, yeddilikdən:
Bir dastan yaz istəsən.
Bir də var, altılıq,
həm kiçik, həm qırıq.
Beşlik vəzn var,
Bilir uşaqlar.
Dörd hecalı,
Cüt haçalı.
Üç heca,
Asanca.
Nəki,
İki
Mən,
sən
birdir.
Soruşmursunuz sərbəst hanı?
Gəlib versin,
vəzn və qafiyə meydanında
kamal imtahanını!
Burda qurtarıram vəzn söhbətini,
İndi başlayıram təsvir etməyə
bir gəncin bir qıza olan məhəbbətini.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sevdi, sevildi
Sağlam insana məxsus
bir həvəslə.
Sevdi,
nə Fərhad,
nə Məcnun,
nə də Kərəm kimi.
Nə daş yondu,
nə zəncir taxdı,
nə də yandı,
dədə Kərəm kimi.
Sevdi qızın incə belini,
yumşaq telini,
qaydasında çəhrayı yanaqlarını,
öpüş üçün,
mayalı xəmir kimi, qabarmış
dodaqlarını.
Sevdi xırda məmələrini -
Qalxıb-yatan sinəsinin mərmərini:
Və məhəbbətin ən çılpaq sözlərinə
açıq olan
qulaqlarını.
Bənövşə nəfəsini sevdi.
Yerişini, duruşunu, səsini sevdi.
Yanmaq üçün sevmədi, yox.
Zövqü, nəşəni danmaq üçün sevmədi, yox.
Dişlərinin incisini sevdi.
Əqlini, düşüncəsini sevdi.
Söhbətini-sözünü sevdi.
Ehtiras dolu baxışını
vücudunun ipək paltara yaraşıq verən
naxışını,
şirin vədlər dolu gözü sevdi.
Sevdi, nə bildi ki,
canlı - insan bir qadını sevir.
İnsan ünsiyyətinin,
insan mehrinin,
insanı məst edən
dadını sevir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəli, bir insanı, bir qadını sevir.
Deyən, ağız büzən var,
salonda.
Kimdir o, kim?
Yoldaşlar, yubanmayın,
riya xəstəliyi var onda,
Həkim çağırın, həkim!..

## MAYAKOVSKİ

*(Fantaziya)*

*Cəbhədaşlarına*

"Mənim arzum budur ki,
qələm
süngüylə dursun yanaşı,
Qurultayda şeir işindən
hesabat versin Stalin!"
Bu sətirləri yazan usta əlin
necə qıydı sənə?
Heyhat...
Bəraətçin yoxdur dəlil.
Mayakovski - "qatil!"
Sən öldürdün,
şeri sıra çəkib, duran
döyüşçüdən birini.
Sən öldürdün ölkəmin şairini!
Öldürdün, buna yox ikən səndə haqq.
Bilirkən bu cinayət
ürəkləri qanadacaq.
Bu, yalan deyil,
Mayakovski,
of... "qatil!"
Söylə, Mayakovski,
o qaynar qəlbində
bu köhnə,
sarı günlərin,
sarı xəzan axşamı kimi xəstə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir fikri necə başlədin?
Sənin ki, yanğını gündüzləri işıqladan
Hər sətrində
qaynayırdı acizliyə qarşı kin.
Gözlərimdə canlanır
xəyalı,
o gecə
o sakit çöhrənlə,
iti baxışlarınla,
yalnız sənə məxsus
sadəlik vüqarınla
göründün danışıq kürsüsündə.
Mən o gündən sevdim səni,
bir ustad kimi.
Səsin bu gün belə,
qulağımda çınlayır,
əyilib qırılmayan
xas polad kimi.
Sən,
köhnə şerin o sısqa
qamış belli daxmasını yıxa-yıxa,
yaradırdın yeni şerin
göydələn binasını.
Geniş addımlarla aşaraq
tarixin körpüsüz yollarını.
Bu günün qollarıyla
qucaqlamaq istəyirdin yarını.
Deyirdin:
- Kürəmiz
sevincə az yararlıdır.
Qoparaq nəşəni, gələcək günlərdən...
Mayakovski,
Mayakovski,
bəs nədən
durdun,
yollar olmadan yan?
Vurdumu yüksəliş qanadını,
imkan ildırımları?
"Bu, bir yol deyil,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

örnək olmasın..." desən də,
yaxanı qurtara bilməzsən, gende.
Qəlbimiz nifrətlə doldu, bil,
öldürərkən şair Mayakovskini
Mayakovski - "qatil".
Kimdir o,
kitabları varaqlayan?
Kimdir
üzünə "De koti" ətirli
yaylıq tutub ağlayan?
"...Lyubovnaya lodka
razbilas o bıt!"
Yetər! Kiri!
Sən deyildinmi
ona kəfən biçən diri-diri?
"Şeri şerə böhtandır.
Dili yamandır.
Yazdıqları kütlədən uzaq,
Onu kimsə oxumayacaq", - deyə,
üzünü tutub yana,
acı-acı gülərdin...
"...İşə bax,
bəyənməyir Aleksandr Sergeyeviçi,
rəssam adını daşıyan şirçi?"
İndi bu nədir, ey "dost",
Tərk etmisən
köhnə qını,
Sətirlərindən arayırsan
həyatla döyüşən
duyğuların qırğınını.
İndi səsin gəlir:
"O böyuk insan
sığmadı çərçivəyə.
Həyat qırdı gəmisini..." – deyə.
"Onu öldürdülər", - deyirsən.
"Qatili oldu mühit!
O böyük şair
bolşevik qəlibinə
sığdıra bilmədi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

talantını,
parça-parça doğradı,
xəncər qını..."
Sus!..
Aramızda keçmişdən qalma
casus!
Bizi inandırmaz,
bu saxta yaxınlıq...
Ey əsr-əsr dala qalmış
əsrdaş,
bu, səndə nə qılıq!
Matahını satmaqçın,
ölüm xəbəri gözləyən
tabutçu kimi,
sevinmə!
Sus!
Uğursuz!
Qəribə deyilmi bu dönüş,
ey "dost"!
Necə anladın indi,
onun düyümlü misralarını?
Necə tapdın,
o "tapmacaların" açarını?
Qəribədir, ey "dost",
çox qəribədir.
"Təmiz sənət" müridi!
Mayakovskiyə səcdə edirsən indi.
Lakin aldanma,
Vətəndaş, aldanma!
Yersiz alışma, yanma.
Aç, oxu,
o partbilet kimi,
qaldırılan kitabları!
Gör nə deyir:
"...Ey gələcəklilər!
Şeirlərimi taparkən birər-birər,
unutmayın, yalnız,
onlara köhnə,
fəqət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müdhiş bir silah kimi, yaxlaşınız..."
Get, aç köhnə kitabları,
bir də oxu!
Sevgililər müsibətindən
gözünə getməsin yuxu.
Biz də oxuduq onu,
lakin olmadıq
o yolların yorğunu.
Yolumuz ayrıldı
17-dən bəri.
Bizə yetər olmadı
köhnə rübabın telləri.
Sözümü anlama qeybət kimi,
Sevirəm Puşkini də
Fikrət kimi.
Lakin vurğun deyiləm...
Demək,
səcdə, təqlid yollarında
yorğun deyiləm!
Neçinmi sevdim Mayakovskini
mən?
Oxu, bəlkə, anladın
bu sözlərdən.
Mən tüpürdüm hüsnə xal yapışdıran
şairlərin yoluna.
Durdum yeni şerin qarovuluna.
"Tunc misralar durmuş səfə,
hazırdılar ölümə
və ölümsüz şərəfə..."
Udaraq bu günün havasını,
könlümdə böyütdüm
şerin gələcək sevdasını.
Yolumda kimsə cığır salmamış.
Mən elə bir maestroyam ki,
dindirdiyim bu telləri
kimsə çalmamış.
Nə qəm,
dar qulaqlara xoş gəlməsə
nəğməm!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məni "candan istəyən" dostlar!
Daha bir iddiam var:
Neyləyim, acıdır dil.
"Dostlar",
bir dəfə anlayın ki,
ədəbiyyat Braziliya meşəsi deyil.
Deyirlər,
meymundan törəyib
İnsan oğlu.
Amma
nə gərək var, yenidən
meymun olmağa!
Pasportlaşma başlanmış ədəbiyyatda.
Qorxuram yaxın bir gün
məzardan qalxa Şillər.
Acı-acı süzə səni, deyə:
- Tfu, sənə şüler!..
Elə isə,
Yaşasın Mayakovski!
İzin verin,
mənə bir haqq üçün,
izin verin, deyim:
- Əlvida! Əlvida,
ey böyük şair,
əziz Volodya!

*1936*

**TAPŞIRIQLI MƏRDİMAZAR**

Mərdimazarlar müxtəlif olur,
deyək, cücülər kimi, mikroblar kimi.
İşləri də müxtəlif olur;
cibgirlik kimi, qumar kimi.
Mərdimazarın bir çeşidi de var –
tapşırıqlı mərdimazar!
Belə birisi, qalxdı kürsüyə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yeddi arxın suyunu
qatdı bir-birinə.
Yüz quyruq qoydu
şairin bir şerinə.
Niyə qazdan yazıb?
Qaz hara, şeir hara?
Niyə məhəl qoymur yoldaş
mal-davara?
Bir deyib,
bir rəyasət heyətinə baxırdı.
Axı, gözünü yumub atdığı
bu çaxır da
birovuz çaxırdı.
Dedi.
Doydu.
Düşdü kürsüdən.
Az qala, qovuq kimi partlayacaqdı,
adam üzünə göstərdiyi hirsindən.
O, kürsüyə tək qalxdı,
ordan tək düşdü.
Ancaq, boynuna
vəzifə götürmüşdü.
Fit verəni,
dəhmərləyəni vardı.
Bir sözlə, bizim mərdimazar
adi yox,
tapşırıqlı mərdimazardı.

*fevral, 1962*

## "BƏZİ-BƏZİ" AZARI

"Bəzi yazıçıların
bəzi əsərlərində
bəzi nöqsanlar var ki,
bizə mane olurlar;
bəzən çox, bəzən də az.
Bəzi hallar da olur...
Görürsən ki, yazıçı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlbəttə, bu yaramaz!
Bəzi yoldaşların da
bəzi çıxışlarında,
görürsən bəzən,
bəzi nöqsanlar təkrar olur".
Bu "bəzi-bəzi"ləri
eşitməkdən, doğrusu,
qulağımız yorulur,
baş-beynimiz yorulur.
Soruşarsınız, niyə,
"Bəzi" deyirəm mən də?
Adlarını çəkmirəm
belə bəziçilərin
bir-bir, yeri gələndə?
Bu bəzi-bəziçilər
bir deyil, iki deyil...
Onlar builki deyil,
Onlar bildirki deyil.
Mənim bəzi deməkdə,
əlbəttə, məqsədim var...
Qoy ibrət dərsi alsın,
bir, ya iki nəfər yox,
bütün bu "bəzi-bəzi"
dərdinə tutulanlar!

*1954*

## ŞERİN GÜCÜ

Əlimdə təzə qəzet...
Başlıqlar -
irili-xırdalı
səpələnib hər yana.
Qərar, məqalə, xəbər.
Neçə zavod, neçə kolxoz qabaqcıl.
Dala qalanlar da var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürəkaçan sözlər çox,
tək-tək yalanlar da var.
Fotolar orda-burda,
Fotolarda adamlar.
Maşın, gübrə, ximzəhər.
Kök, cins inəklər.
Faizlər cərgə-cərgə.
Sıfırla qurtaranı var.
Sıfırla başlayanı var.
Bir küncdə
ayıbalası kərpic kimi yığılıb
şeir sütunu.
Hər yandan hamar.
İş nə hamarlıqdadır,
nə kələ-kötürlükdə.
Nə sığallı sözlərdə,
nə atmacalardakı kürlükdə.
Qafiyələr düzülüb:
canı - can yerində,
qanı - qan yerində.
Növbətçi milis kimi dayanıb
qoca Loğman yerində.
Nimdaş təşbehlər
düzülüb yan-yana.
Xüsusi yer ayrılıb
sərvboylu,
püstə dodaqlı canana.
Əvvəl, göz gəzdirdim ötəri.
Sonra dedim:
- Yaxşı-yaxşı oxuyaq, görək, nə var.
"...Bəxtim gülzarına..."
Bu nə dızıltıdır belə.
Pəncərə şüşəsində
vurnuxur tək bir çibin.
Bükdüm qəzeti.
Milçəkqıran düzəltdim.
Yaxınlaşdım yavaşca,
barmağımın ucunda.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedim elə vurum ki,
lap yerində qalsın.
Birdən boşaldı əlim,
Qoy yaşasın, nə olar,
Nə dəyişər,
dünyadan getsə,
bir mərdimazar.
Milçək qaldı yerində.
Mən də gəlib oturdum
masamın arxasında.
Açdım qəzeti.
Başladım yavaş-yavaş
oxumağa şeri.
Tıp!
Bu nədir belə?
Ey vah fələk!
Pəncərə şüşəsindən
ölü düşdü milçək.

*1965*

## BELƏLƏRİ DƏ VAR

Bir tənqidçi dünən gördüm mağazada
Yetmiş dənə qələm alıb,
Pul vermişdi qırx bağlama kağıza da.
Gördüm yaman acıqlanıb.
Alnında tər muncuqlanıb.
Hey güc vurur,
əlləşirdi;
yük ağırdı.
Qələmlər də yekə şələ odun kimi
gördüm, çiynini ağrıdır.
Dedim:
- Dostum, nə zəhmətdir!
Nə zillət, nə əziyyətdir.
Dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- İndi ağırdır bu.
Yazılanda yüngülləşər.
Gərək, yazam.
Aydın ola xeyirlə şər.
Dedim:
- Dostum, heç olmazsa,
söylə, kimdir qurbanlığın?
Dedi:
- Çoxdan tullamışam
mən daşını yamanlığın.
Zənn etmə ki, indi,
ancaq söz deyərəm üzə görə.
- Bu ehtiyat kiminçündür?
Bilirsən, de bizə, görək!
Mən düşündüm, dedim: - A dost,
yəqin tarix yazacaqsan.
Dedi:
- Yox, səhv eləyirsən.
Çoxalmışdır tarix yazan.
İndi ki sən tapammadın,
qoy mən deyim mərd-mərdana.
İstəyirəm tənqid yazam
başladığın o dastana.
Dedim:
- Dostum, axı mənim
dastanım ki bitməmişdir.
Dedi:
- Olsun, nə fərqi var,
guya ki, bu çətin işdir.
Mən yazaram başdan-başa
nə fikrim var, nə sözüm var.
Sən də ki, öz işində ol,
dastanını yazıb qurtar!
Məqaləmdə səhv olarsa,
bundan nə qəm!
Bilir aləm.
Boynum vardır, mən də varam.
Bir məqalə yazıb yenə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bütün səhvi başdan-başa,
öz boynuma m’n alaram.
Dedim:
- Dostum, bu alverdən, söylə,
sənə qalan nədir?
Dedi:
- Şöhrət,
yaxşı, ya pis.
Qalan şeylər əfsanədir!

*1950*

## TƏNQİD NƏCİB SƏNƏTDİR

(Açıq məktub)

Əvvəlcə tanış olaq!
Baxaq bir neyimiz var:
sakit, təmkinlə, səssiz.
Bir götür-qoy eləyək.
Görək şair nə şeydir,
anlayaq tənqid nədir.
Bolkə, bu iki sətri,
siz monə irad rutub,
deyərsiniz: - Şair - şey?
tənqidçi – nə?
Məlumdur,
bu dildə yazan özü,
nə yuvanın quşudur,
necə nüsxə, nə tumdur.
Rica edirəm,
bir az tələsməyin,
səbr edin!
Mən bir balaca çəkim
cilovunu Peqasın.
Siz də, dartın bir qədər
yüyənini tənqidin.
Bir mənə qulaq asın!
Mən sizin şəklinizi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tünd-qara bir qələmlə çəkmirəm.
Yox, çünki siz,
hamınız bir biçimli,
bir yeyim, bir içimli
adamlar deyilsiniz.
Tənqidçi var, görəndə
hörmətlə qarşılayıb,
xəstə olsam da, belə,
gərək ayağa duram.
Eləsi var,
rəhmətlik Sabir demiş,
fikrini qan-qan görüb,
qorxuram.
Tənqid, yarınmaq deyil.
Tənqid, barınmaq deyil.
Tənqid, yeddi oxuyub,
birini qanmaq deyil.
Tənqid, nəcib sənətdir.
Nə hökm, nə minnətdir.
Tənqidi tənqid etsəm,
bir az dərinə getsəm,
arzum budur sözümü
götürməsin özünə,
sənəti, şeri sevən,
fikri açıq, qəlbi gen,
qeyrətli, mərd, xeyirxah
tənqidçi yoldaşlarım.
Bir səngərdə bizimlə,
böyük sənət uğrunda,
döyüşən vaxtdaşlarım.
Tənqid var ki, nə qədər
ağır, amansız olsa,
o qədər xeyri çoxdur.
Sığallı, səksəkəli,
sətirləri ləkəli,
yüz eyhamlı, kölgəli
tənqidin həm şairə,
həm də onu yazana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vallah, bir xeyri yoxdur.
Tənqid də iş növüdür.
Bu nə zordur, nə də güc.
Nə gərəkdir tənqidə
zəhər, duz, iynə, ülgüc?!
İstəyirsən sözünü
kükrəyən alovla yaz,
istəyirsən buzla yaz.
Bircə şərti unutma!
Nə yazsan, namusla yaz!
Nərgiz asfaltı deşib,
yaşıl bir alov çıxıb.
Şair yazıb.
Tənqidçi
Heyrət edib, karıxıb.
Nərgiz asfaltı deşsin?!
Heç belə də şey olar?
Bir balaca düşünüb,
verib yekə bir qərar.
"Quru asfalt altından
nərgiz göyərməz!" - deyib.
Sonra da uzun-uzun
sənətkara dərs deyib.
Deyirlər, hər oxuyan
Molla Pənah olmayır.
Bir əlavəm var mənim,
bu doğru fikrə dair.
Vaqiflərin özü də
Həyatda cürbəcürdür.
Biri yazır, yaradır,
Biri baxıb köçürdür.
Biri xalqın, Vətənin
şanı, iftixarıdır-.
Biri avamlığıyla
Həməsrini xar edir.
Deməyin, tənqidçiyə
mən qara damğa vurdum.
Sərin su axtarıram,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

susayanda bir udum.
Nə cinəm, nə şeytanam,
mən də adi insanam.
Yazdığım şeirlərin
yaxşısı var, pisi var.
Sənət istehsalatdır,
qazancı, itkisi var.
Sözümdən inciməyin,
çünki özünə görə,
yeri var hər əməyin.
Mən şerimi oxuyum,
siz köhnə sitatları,
"Sevgili" vaxtdaşlarım,
Təzkirə doktorları!
Filan-filan əsrdə,
filan cüngün
mötəbər elm kandidatları.
Təzkirə, cüng deyəndə,
zənn etməyin mən elmin
əleyhinə gedirəm.
Yox, yox, tövbə,
Mən ancaq
deyirəm, təzkirə də,
cüng də lazımdır bizə.
Lakin köhnə vərəqlər
hörmətlə yad edilib,
kölgə salmasın, gərək,
müasir üstümüzə.
Sənət də neçə növdür,
ciddisi, mizahı var.
İnsan canlı məxluqdur,
sevinci var, ahı var.
Tənqidçi qaşqabaqla
oxuyur bu sözləri.
Birdən, çil toyuğunu
tülkü aparmış xəsis
qarı kimi qışqırır:
"Ay aman, hay qoymayın!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xalqa böhtan atdılar".
Mən belə hay-küylərə
çoxdandır öyrəşmişəm.
Ancaq qışqırma, yoldaş!
Bəlkə ürəyi xəstə,
əsəbi xəstələr var.
Belə gurultu salma!
Birdən qorxar uşaqlar.
Əvvəlcədən gəlin, biz
bir məsələni qəti
aramızda sözləşək.
Dediyimizə qəsdən
nə bir irad axtaraq,
nə də ürəyimizdə
qalsın bir şübhə, bir şəkk.
Nə desək, gəlin, deyək,
təmiz ürək dililə.
Nə üzgörənlik olsun
arada, nə də hiylə.
Yaxşıya yaxşı deyək,
pisə pis, aydın, açıq.
Nə qərəz, kin işlədək,
nə lağlağı, nə acıq.
Nə mən yazdıqlarımı
nənəm üçün yazıram,
nə də siz elminizi
boğçaya bükürsünüz.
Qüsurum, günahımçın
mən cavaba hazıram.
Əyriyə əyri deyək,
düzə, gəlin, deyək düz.
Yenilikdən qaçmayın.
Hər dəfə,
yeni sözü gələndə,
tər-tələsik,
iki dırnaq açmayın.
Çünki hər dəqiqəniz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əvvəlkinə bənzəmir.
Bədəndə hüceyrəniz
belə dəyişir hər an.
İndi savadlı olmaq,
çox şey bilmək, deməkdir.
Bayaqdan savad üçün,
bəlkə yetərdi "Bustan".
Bir şeyi, sən bilmirsən,
Niyə, gərək, pis olsun?
Niyə şair deyənlər
şübhəli olmalıdır,
sənin bütün dediyin,
gərək, şübhəsiz olsun?
Mən demirəm, yenilik
yaxşılıqla əkizdir.
Sən də hökm vermə ki,
nə yenidirsə, pisdir.
Daş daş üstə qoymasaq,
ucalarmı binalar?
Torpaq daxmada bir də,
indi yaşamaq olar?
Təyyarəmiz var ikən
arabaya minəkmi?
Traktoru olanlar
torpağı xışla əkmir!
Deyirsiniz araba
hələ bizə gərəkdir.
Bəlkə... ancaq ki, bizim
söhbətimiz dünən yox,
bu gündür, gələcəkdir.
Gələcək - yenilikdir,
öyrənişdir, bilikdir.
Qurduğumuz bu dünya
yenilərdən yenidir.
İnsan ölü deyilsə,
yeniliyə meyl edir.
Bəlkə, bu insan sözü
sizə mücərrəd gəlir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsan deyəndə, ancaq
gözünüzün önünə
xəbis, bədniyyət gəlir.
Yox, mən dediyim insan
xəbislikdən uzaqdır.
O insandır ki, bu gün
sökür, qurur, yüksəldir.
Yer üzündə ən böyük
səadət dünyasını
zəhmətilə yaradır,
mütləq yaradacaqdır!
Hərdənbir açıq-aydın
mən sizdən gileylənir,
yeri gələndə,
bir az sancıramsa,
nə olar?
Mənim də bədənimdə
sizin küt iynənizdən
göynək yaralarım var.
Bir də gördün, bir nəfər
bozbaşı duzsuz olub,
papirosu ucuz olub,
ya da diş ağrısından
bütün gecə yatmayıb,
ev əhlindən kimsəni
qıymayıb, oyatmayıb,
səhər tezdən,
qələmi götürüb tər-tələsik
"Babam mənə kor dedi,
"rast gələni" vur, dedi" –
deyib, düşüb üstümə.
Bəlkə də, kor deməkdə,
qoca haqlıdır, ancaq
şerin təqsiri nədir,
söylə, acıqlı "qoçaq"?!
Demək ki, bu maddədə
birdir vəziyyətimiz.
Qarşılıqlı dəyibdir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sizin mənə,
mənim də sizə
əziyyətimiz.
Madam ki, iş belədir,
bu nə haydır, nə küydür?
Əliniz hey işləyir,
diliniz hey üyüdür.
Qələm-qüləm bolsa da,
kağız ucuz olsa da,
axı, yer qalmamışdır
səbr adlı kasada.
İnandırıram sizi:
Mən dilini bilirəm
həm arfanın, həm sazın.
Ancaq bir tələbim var:
hər nə yazmış olsanız,
öz adınızdan yazın.
Xalq, oxucu adından
yazmayın: Filan, filan!
Sənət idman deyil ki,
qazansın çox tullanan...

*1959*

## İZAH

Hər biçilən taxıl deyil;
sünbülü var, samanı var.
Hər tənqidçi paxıl deyil;
yaxşısı var, yamanı var...

*1958*

## KARVANIMIZ GEDƏCƏK

Nə qumlarda dəvə ləpirləri...
Nə havada zınqırov səsləri...
Köçümüz indi
rezinli təkərləri
saniyədə yüz dəfə hərlənən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

maşınların üstündədir.
Yolumuzda maneə olsa,
fit veririk,
qulaqları cingildəyir.
Üfüqdə Günəş
alov yallı bir kürən.
- Bəs bu səslər nədir?
- Alabaşlardır hürən.
- Hürsünlər!
İllərlə onlar hürə-hürə
keçib-getdisə zınqırovlu karvanlar;
sürəti saatda yüzdən artıq
maşınlara nə var.
Nə qəm!
Nə qədər hürür
hürsün, alabaşlar!

*1957*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Damğa*

**ÇEŞİD-ÇEŞİD İNSANLAR**

İnsan var ki,
dedikləri həqiqətdir.
Acı olsa sözü, yenə
qədir bilən insanlara bir nemətdir.
İnsan var ki,
cır arı tək sancır;
demir, bu da candır,
bu da ətdir.
İnsan var ki,
çullu dovşan nədir,
öküz belə sığar gen ağzına!
Nə özünə rəhmi gəlir,
nə də rəsmi dövlət kitabxanasına...
Bildiyindən yazsa, yazsın,
cəhənnəmə!
Nə eybi var?
Ancaq yazır, yazdığının
Hər cümləsi - qətnamə,
Hər kəlməsi - rəsmi qərar!
Əlindəki qələm deyil,
sanki, milis ağacıdır!
Belə getmə, yol bağlıdır!
Belə getmə, yol haçadır.
Heç olmazsa, işıqforun
qırmızısı, sarısı var,
yaşılı var.
Qırmızıda dayanırsan.
Sarı yandı -
gözləyirsən, bir anlığa yubanırsan.
Yaşıl yandı - yol açılır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu zalımın "hə"si yoxdur.
Qəzəbindən dil tutulur.
Nə fikrinə işıq düşür,
nə yazmağa qol açılır.
O hər şeydən xəbərdardır:
Musiqini əzbər bilir,
Rəssam işi... Paho!
Onun ən mükəmməl bildiyidir
Memarlıq... Eh...
Alabaşın hinini o,
özü tikir.
Şeir - burda əllamədi, bilicidir.
Nəsr - ona aydın-açıq əl içidir.
Səhnə - əşşi, buna nə var!
O yaşayan məhəllədə
düzülübdür cərgə-cərgə afişalar...
Bəs, qüsuru onun nədir?
Niyə varı bir qayçıdır, bir iynədir?
Eləsinə yeri vardır, desək, bəli,
İnsan var ki, simüzər nəsib olmuş,
İnsan var ki, tünd bibər nəsib olmuş,
İnsan var ki, nə çarıqdır, nə də köşə,
İnsan var ki, tut qıçından, at dalına;
ağzı hara düşə, düşə!

*1958*

## DAMĞA

*(Rüşvətxor Binamusoviçə açıq məktub)*

Saçları ya şəvə kimi qapqara,
ya yumurta sarısı,
ya tünd qəhvəyi,
məxməri pivə kimi.
Qəlbini arayıb axtarsan,
dibə kimi,
bu fıkirləri taparsan, ancaq.
Neyləyək alaq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimdən alaq?
Necə alaq?
Gündüz alaq?
Gecə alaq?
Ucdantutma hamıdan,
yoxsa seçə-seçə alaq?
Pul var, pul alaq!
Yoxdu, imarət, pendir, yağ,
Xalça, palaz, keçə alaq!
Lap bəd başı,
fərə alaq,
beçə alaq.
Necə olur olsun,
necə yaşayır yaşasın xalq,
biz alaq, alaq!
Geliri iştahasından az olsa,
ovqatı təlx olur.
Deyinir... deyinir...
Tutasan yaxasından, deyəsən:
- Yəni, sən də kişisən?!
Arvadın özgə puluna geyinir.
Yatdığın yorğan-döşək,
yediyin xörək,
qızının başındakı örpək,
mənzilindəki limon ağacı,
içi büllur dolu servant,
dörd bir yana düzdüyün
qayırma çiçək,
qapı pəncərələrdəki pərdə-ipək,
hamısı rüşvət pulunadır.
Sən də kişi qoymusan adını!
Rüşvət alıb saxlayırsan arvadını.
Bəlkə, eşidib bunu,
Rüşvətxor Binamusoviç deyər:
"Bəs mənim pulum yoxdur, məgər?
Bəs mənim maaşım?"
- Yum kalafa ağzını!
Dayan!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Haray salma!
O xidmət yerini də
rüşvətlə almısan.
Gəlininin yumşaq başmağı,
qardaşının iki çeşmə otağı,
hamısı rüşvətə gəlib başa.
Oğlunun kostyumu,
ayaqqabısı,
qol saatı,
cib bıçağı,
bacının qızıl zəncir qolbağı,
hamısı rüşvətə düzəlib.
Gözümə soxma,
birgünlük kef məclisinə
bəs eləməz maaşım.
Hələlik girləsən başını,
hələlik saxlasan da,
yeznənin adına yazdırdığın
təzə "Volqa" maşını,
belə getməz.
Tez-gec verərlər,
suyunun aşını.
Yəni, sən də kişisən!
Gözünə girsin, o maaş!
Bilirsənmi ən layiq adın
nədir, sənin?!
Aşın müqəyyəd qafiyəsi!
Anladınmı?!
Qulaq as!
Dara-bara salma!
Sus!
Rüşvət puluna külfət saxlayan
dəyyus!
İndi get, al rüşvətini,
ala bilirsən.
Bu adla adamlar içində qal,
qala bilirsən.

*1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**RÜŞVƏTXORLAR MƏRSİYƏSİ**

"Ax, necə kef çəkməli əyyam idi.
Ondaki övladi-vətən xam idi..."
Rüşvət alırdıq azı - az, çoxu - çox.
Puldu, qızıldı, ya da şey, fərqi yox.
Əmr eləyirdik cibi tox, qarnı tox.
İndi nədir? Qoyma-haray, qorxhaqorx,
Xalqa ağır gün, bizə bayram idi,
"Ax, necə kef çəkməli əyyam idi".

Gör necə bir döndü bu bəxtin üzü,
Əyrini düz, əyri yazırdıq düzü.
Ruzi axırdı gecəsi, gündüzü.
Əllini bir, ayrı yığırdıq yüzü.
Sandığa pullar necə dam-dam idi,
"Ax, necə kef çəkməli əyyam idi".

Hansı lağım qaldı ki, biz oymadıq?
Hansı soğan qaldı ki, biz soymadıq?
Çarşı, bazar, budka, dükan qoymadıq,
Aldıq, alınca usanıb doymadıq.
Süfrə dolu gündə nahar, şam idi,
"Ax, necə kef çəkməli əyyam idi".

Biz kişiyik, məclisimiz şəndi, bil!
Bizdə vəfa, bizdə səxa gendi, bil!
Vardı bir az qorxusu hərçəndi, bil,
Yeddi verən on verənə zam idi "
Ax, necə kef çəkməli əyyam idi".

Hazır olurdu nə müfəttiş desək.
Gözdən itirdi balaca kiş desək.
Tez düzəldirdi nə sayaq iş desək,
Yeddi desək, altı desək, beş desək.
Barmağımız arifə eyham idi,
"Ax, necə kef çəkməli əyyam idi".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Müştəri bol, işləri bol, alğı bol,
Ölkədə bunca yox idi kontrol.
Yaxşı girinc etdi bizi komsomol,
İndi, yedin, qusmağa tez hazır ol!
Bir soruşan yox, bu, nə encam idi,
Hər şeyimiz, hər zadımız tam idi,
"Ax, necə kef çəkməli əyyam idi".

*fevral, 1964*

## SUAL-CAVAB

*(Sabir sağ olsaydı)*

*Köhnətas kəndinə gəlmiş qadın müxbirin*
*Qeyrətkeşovla söhbəti*

- Söyləyin kəndinizin indiki halı necədir?
- Köhnə ispalkom olan vaxt necəydi, eləcədir,
- Yeni məktəb açılıbmı? Çəkilibmi yeni yol?
- Yazışırlar iki nazir, bu xüsusda bol-bol.
- Vaxtlı-vaxtında gəlirmi də qəzet, məcmuə?
- Keçən il nəşr olunanlar yetişibdir bu cümə.
- Söylə, təmir edilibdirmi qiraətxana?
- Daşıyıblar, nəyi vardısa, hərə bir yanə.
- Necədir radionuzun son xəbəri, konserti?
- Mənə qalmışdı məgər kənd-kəsəyin hər dərdi?!
- Kəm-kəsir işləri tənqid eyləyirsizmi, barı?
- Bəzimiz eyləyirik, leyk boğazdan yuxarı.
- Alağa, pambığa kolxozda gedirmi kişilər?
- Nə dedin? Ağzına alma bu sözü, şər qızı, şər!
Necə bir, söylə, dilin gəldi, soruşdun bunu sən.
Qızyetər, Ağca, Tamamla işə çıxsın Gülhəsən?
Ölmüşük biz ki gedib arvad işindən yapışaq?
- Qadın azadlığı!
- Hə!.. Sübhə kimi, gəl, danışaq.

*1962*



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**ORA İKƏN MÖVÜC OLMUŞLAR**

(Sabir sağ olsaydı)

Ay haray, bir neçə şair, neçə nasir kimilər
Aldılar əllərinə yepyekə jurnalımızı.
Neyləyək, harda yazaq? Harda gəlirdən barmaq?
Düşünən varmı görən bir bizim əhvalımızı?
Ev dolu, cib dolu, portfel doludur, çanta dolu.
Hey yazır, hey yazırıq; harda sataq malımızı?
Hələ bax sən bu münəqqidlərə, hazır dayanıb
Zəhrə döndərmək üçün gündə bizim balımızı.
Körpəyik biz böyüyək naz ilə, nemətlə gərək.
Çox da gendən baxan hər kəs görəcək çalımızı.
Bizi çox danlamayın, çap eləyin hər nə verək.
Saf-çürük eyləməyin dəymişi, ya kalımızı.
Gərçi az şey bilirik, hər şeyə quyruq qoyuruq.
Köhnə simlərdə əvvəldən vururuq xalımızı.
İşləmək, zəhmətə qatlaşmağa meyl etməmişik,
Neşədə, zövqdə biz görmüşük iqbalımızı.

**QORXURAM**

*(Sabir sağ olsaydı)*

Taksi maşınla çıxıram yollara,
şoferi lülxan görürəm, qorxmuram.

Gah zooparkda gəzirəm səllimi,
hər cürə heyvan görürəm, qorxmuram.

Bağlı, dəmir çaxçaxın ardında çox
mürgülü aslan görürəm, qorxmuram.

Modaya vurğun bala meymunları,
az qala, üryan görürəm, qorxmuram.

Tənqidə düşmüş neçə gənc şairi,
"qanına qəltan" görürəm, qorxmuram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gah bitirib iclası, dərhal, yenə
bir yeni elan görürəm, qorxmuram.

Bağda, ya plyajda papaq - yan gəzən
təptəzə xuliqan görürəm, qorxmuram.

Şanısı, əncirləri səf-səf duran
bağları viran görürəm, qorxmuram.

Dəstəsi yüz-yüz qaçışan küdrüdə,
 tək bala ceyran görürəm, qorxmuram.

Sözləri əzbər, quru natiqləri kürsüyə
qalxan görürəm, qorxmuram.

Böylə şücaətlə, sözün doğrusu,
neyləyim...
Qoy olanı söyləyim:
Yerlipərəstlikdə hünər göstərən
arxah nadan görürəm, qorxuram.

Bisəbəb qorxmuram, vəchi var –
Fikrini qan-qan görürəm, qorxuram.
Dəyməsələr onlara, mikrob kimi
günbəgün artan görürəm, qorxuram.
Qorxuram, qorxuram, qorxuram...

*1962*

## VƏ

Bir vətəndaş oğlunun
adını "və" qoydular.
Demirəm, qərəzlə, ya
sevə-sevə qoydular.
Qoydular,
çünki adı uzun siyahılarda
"Və"dən sonra gələrdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yamanca günə saldı
Onu bu "və" - "və" dərdi.
İllər boyu çalışdı,
bir yerini dəyişsin;
"Və"dən qabağa düşsün.
Mümkün olmadı, ancaq.
Könlündə arzu yandı,
dilində vədə yandı.
Onun adından qabaq, həmişə
"Və" dayandı.
Toyda, bayramda, yasda,
söhbətdə, ya iclasda
həmişə dedilər ki,
filankəs, filankəs və...
Ancaq bu "və"dən sonra
onun adı çəkildi.
Qovruldu, pörşələndi,
Yanıq Kərəmə döndü.
Gözlərinin yuxusu,
xörəklərinin
tamam duzu, dadı çəkildi.
Gecələr yuxusunda qırdı
bütün "və"ləri.
Axırda "və" var deyə,
məhv etdi dəvələri.
Kitab keçsə əlinə
bütün "və"ləri pozdu.
Vətən sözünü gördü -
baxıb çox yerə yozdu.
Dedi:
Canım qurbandır ana yurda, Vətənə,
ancaq Vətən sözünün
ikinci yarısı düzü,
daha xoş gəlir mənə.
Ömrü boyu gözlədi siyahıda adının
yeri dəyişər haçan.
Əvvəldən necə "və"di,
"Və" də qaldı axıracan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anlamadı ki,
“Və”dən qabağa keçmək üçün
arzu kifayət deyil.
Sinədə od gərəkdir,
ürəkdə bir fil gücü.

*1968*

**QONŞU PAXIL OLMASA,**
**BAĞ ÇƏPƏRİ NEYLƏYİR**

Paxıl curbəcürdür,
Kimini qonşusunun canı sağlam
olduğu,
kimini qonşusunun xəstəliyi çürüdür.
Xəstəliyi deyəndə,
can yandığından deyil,
başqa səbəbdən doğur bu nisgil.
Paxıl baxıb deyinir:
- Bəxtəvərin evinə
nə tez-tez həkim gəlir!
İynə vuran, qan alan,
sığalçı, küpə salan,
daha, daha kim gəlir...
Dava-dərman görürsən,
Hey daşınır, hey axır,-
deyə sızlayır paxıl.
Kimi anadangəlmə,
görürsən, paxıl olur.
Kimisinin ürəyi,
get-gedə paxır olur.
Kimisinin qəlbinə,
paxıllıq qurdu, gördün
mururla daxil olur.
Kimisi də görürsən,
qəflətən paxıl olur;
dostuna baxır, olur,
Kimi bekarçılıqdan,
qüssədən paxıl olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimisi avam olur,
kütbeyin, cahil olur,
Kimi əlli-ayaqlı,
hay-haray, paxıl olur.
Əlindən gəlməyəndə,
qonşusuna göz qoyur,
Təklikdə bacarmasa,
dəstə yığır,
söz qoyur.
Necə, nə sayaq olsa,
müxtəlif paxılların,
bir ümumi rəngi var.
Ürək xırdalığından,
darısqal qılığından,
köhnə qurdlar dağından,
paxıl olur paxıllar.
Qapqara çeşmək taxıb
bu işıqlı dünyaya
yana-yana baxırlar,
paxıllar.
Oğru, rüşvətxor kimi
paxıllıq da pis addır.
Görünür, paxılların
bazarı
çox kasaddır,
Adam var paxıllığı özgəsindən
borc alır.
Görünür, paxıllığın ölümünə az qalır,
paxıllıq da qocalır.
Qonşu paxıl olsa da,
çəpər çəkməyək bağa,
Xeyirxah insanların,
gücü çatar
bağları
onlardan qorumağa.

*dekabr, 1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YALTAQ

İnsanlar əmək çəkir, tər tökür
Kimi ev tikir
Kimi dağ sökür.
Hərənin bir işi var, bir sənəti.
Ancaq necə gizlədim həqiqəti
Yaltaqlığı da özünə sənət eyləyən var,
Bu da bir döldür - yaltaqlar!
Elə zənn etməyin
yaltaqlıq asan işdir.
Elə söhbətdir, gülüşdür.
Yox.
Zarafatdırmı, hər gün,
nimdaş köynək kimi
üz-gözünü dəyişdir;
lazım olan vaxt şən görün,
lazım olan vaxt qaşqabaq elə,
hər gün qarşıla müdirləri
gülə-gülə,
əyilə-əyilə.
Bir xəzinədar sandığın gözündən
lazım olan xırdanı, əskinası
tapıb çıxaran kimi,
çıxart lazım olduqca
heyrəti,
nifrəti,
riqqəti, təbəssümü
könül qəfəsəsindən.
Məharətlə düz sözləri,
rəfə mal düzürsən, elə bil.
Hər sözün öz vaxtı,
öz yeri.
Yaltaq var ki, açıqdan-açığa
müdirə züy tutur,
Müdir olan yerdə
yanını yerə qoymaz;
yüz desinlər otur!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözlərin müdirin ağzına dikib

durur,
Əlini ovuşdurur.
Dodaqlar yaylı qapı kimi
açılır, yumulur
Dişlər, lazım gəlsə, qıcanır
qəzəblə,
lazım gəlsə, irişir.
Böyük yanında arıqlayır,
kiçik yanında şişir.
Yox, qardaşlar!
Yaltaqlıq asan deyil.
Ən çətini budur ki, birdən,
daş qayaya rast gəlir.
Onda necə!
Elə müdirə rast gəlirsən ki,
ürəyi - filiz külçə.
Nə tərif hərarətindən boşalır,
nə yarınmaq möhürü götürür.
Necə tərif desən, də,
bu qulağından alır,
o birindən ötürür.
Onda başlayır yaltağın qara günü.
Qara buludlar alır
başının üstünü.
Axı, yaltağın ayrı peşəsi yoxdur,
Olur sudan çıxmış balıq kimi,
süpürgə qabağına düşmüş qalıq kimi...
Şübhəsiz, işsiz qalar yaltaq,
biz ucuz təriflərə uymasaq.

*1963*

**ANONİMÇİ**

Qaranlıq gecələrdə
qara fikirlərini
qara qələmlə yazdı
köhnə vərəq üstünə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sağanaydı, yazdı sol əliylə.
Bəzi sözü qəsdən səhv yazdı,
bəzisini savad kəmliyindən.
Özünü fağır qələmə verdi,
yaz əmliyindən.
Yazdı, o yan-bu yana baxa-baxa,
yazdı, hər hənirtidən,
hər səsdən
qorxa-qorxa.
Yadına saldı söhbətləri, zarafatları;
görsün ələ gələn nə var.
Bir-bir tutuşdurdu
uydurmaları, yarımfaktları.
Hey dönə-dönə açdı, tökdü yaddaşını;
görsün, yenə nə var.
Gözləri qan çanağı
ağzı qupquru.
Barmaqları yazmaqdan qabar -
İy çəkən burun,
darı dənləyən qulaqlar.
Yazdı: "Nə mərdimazaram,
nə paxıl.
Haqsızlıq görüb yanıram, axı.
Xəttimdən bilinər necə dilxoram.
İmza qoymuram,
düzü... qorxuram.
Çünki bu adamın dayısı oğlu
bizim müdirin xalası nəvəsinə
elçi göndərəcək, deyirlər.
Yəqin ki, toy edəcək,
üç gün, üç gecə,
izdihamla, brilyant üzük nişanla.
Hələlik siz işdən çıxardın onu,
mən də gələn məktubumda
yeni beş nəfəri
ifşa edərəm, inşaallah".
Belə məktub mənim üstümə yazılmış ola,
fərqi yoxdur, yay ola, qış ola,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çıxıb küçə eyvanına bağırardım
məktubun - anonim,
özün - anonim,
sözün - anonim.
Ax, anonimçi!
Ax, anonimçi!
Sənin bacını, ananı...
Ağlar görəydim.

*1963*

**KAFTARLI**

Qoca bir vücud vardı,
gödəkboy, uzunburun.
Söz-söhbəti bu idi:
Əzin!
Qovlayın!
Vurun!
Qəribə adı vardı,
bu qocalmış kişinin.
Ad qoyanlar bilirmiş,
yəqin onun işini,
Mirzə Kaftarlı!
Bəli!
Lap məəttəl qalasıydı,
Kaftarlı!
Halbuki, o,
bir adam balasıydı.
Görənlər deyirdilər,
budur goreşən gəlir.
Yəqin ki, iy götürüb
necə də gör şən gəlir.
İşi-gücü həmişə
böhtan, qeybət, yalandı.
Köhnə-kövşən eşməkdə
mütəxəssis şeytandı.
"Filankəs çox kefi kök,
damağı çağ yaşayır.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Filankəs neçə vaxtdır
çox bidamaq yaşayır –
Onun niyyəti nədir?
Bunun illəti nədir?".
O iyləyib-cüyləyib
gərək biləydi niyə
o şaddır, bu kefsizdir.
"Əvzai-zaman" üçün
hansı yaxşı, ya pisdir.
Kaftarlı çox gor eşib,
çox su bulandırmışdı.
İllərlə köç-külfəti
belə dolandırmışdı.
Hərdən klassikləri
keçirirdi nəzərdən.
Deyirdi: "Heç kəs üçün
güzəştə getmərəm mən!
Şair bir vüsal üçün
aləmi yandırarsa,
sülhün düşmənidir o!
Vəssalam!
Aydın, qısa".
Şərini, böhtanını
Gündüz-gecə yazırdı.
Goreşənlər bilirlər
Hara, necə yazırdı.
Başqasının göz yaşı
onunçun sevinc idi.
Əlindən yaxın-uzaq
bezardı, girinc idi.
Xalq da intiqamını
ondan yaxşıca aldı.
Kaftar adı üstündə,
bir damğa kimi qaldı.
Belə Mirzə Kaftarlı
tək olsaydı, nə vardı,
harda bir mərdimazar,
harda bir quyuqazar,
harda bir bədxah, murdar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görsəniz, bilin: yəqin
Kaftar oğlu Kaftardır.
Neyləyəsən ki, hələ
beleləri də vardır.

*1968*

**SİTATCIL**

Danışanda gülür.
Susanda gülür.
Dodaqları çırmanır,
üzündən nur tökülür.
Söysən - gülür,
Öysən - gülür.
Döysən... yox.
Hələ görməmişəm döyüldüyünü.
Bəlkə dişi ağrıyanda ancaq
çatır qaşlarının düyümünü.
Bəlkə... bəlkə...
Bir rəssam istərəm
onun şəklini çəkə;
papağı həsir.
Altında da bu sözlər:
"Gülən adam".
Hüqonun yox,
müasir.
Ona deyirlər:
- Yoldaş müdir,
istirahət günü kuryer
yıxılıb, sındırıb ayağını.
O, çirməyir dodağını:
- Demək, idarədə yox.
İstirahətdə...
Aha...
Tez əl atır yeşiyə.
Uzun-gödək sitatları çıxarır,
tövşüyə-tövşüyə.
Başlayır növbəti nəsihətini:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"İctimai zəruri zəhmət,
bax, nə deməkdir...
Kapitalizmin gəlir mənbəyi
məhz izafı əməkdir".
Deyirlər ona,
- Yoldaş müdir,
dünən siz
göstəriş vermişdiniz,
hamilə qadınların
ərləri gərək
arayış gətirsinlər görək...
O gülür.
Gözləri bükülür,
Dodaqları çırmanır,
Əl atır yan yeşiyə.
Sitat, sitat, sitat
boşalır eşiyə:
"Qadın azadlığının əsas
problemləri".
"Filan alimin əsəri".
"Səhifə filan".
"Aşağıdan filan abzas".
Bütün sitatları
canına döşəməsə,
əlindən qurtarmaq olmaz.
Bir dəfə,
dayısı oğlunun üçüncü yeznəsi
ona bir şeir oxudu.
(Bunu da deyim ki,
şeirlə heç arası yox idi).
Amma yenə güldü.
Gözləri büküldü.
Çırmandı dodaqlar.
Dedi: - Rəhbərimiz yoldaş Marks da
şeir yazıb.
Yazıb Engels də,
özüm oxumuşam
İstirahət zamanı, Məngilisdə.
Sonra əl atdı yeşiyə,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

içində sitatlar
şirin-şirin yuxulayan,
açarlı beşiyə.
Çevirdi vərəqləri,
Kənd... şəhr... tarix...
mədəniyyət... duz... yun...
Aha... forma... məzmun...
Təsadüfən ordaydım mən də.
Özümü saxlaya bilmədim
işi belə görəndə.
Dedim:
"Gülən adam!
Bəsdir, çeynədin-tökdün
gözəl sözlərini
hörmətli adamların.
Birusan, barı!
Bir utan, barı!
Ört qızıl-gümüş dişlərinin üstünü.
Papirosunu yan tut!
Gözümə üfürmə,
şirin sitatları,
acı tüstünü.
Gülmək yaxşıdır, ancaq
hər şeyin bir yeri,
bir vaxtı var.
Bilmək yaxşıdır, ancaq
deməyiblər, ömrün boyu
yeşikdən sitat çıxart.
Hamam pəncərəsi deyil ağız,
açasan yay-qış.
Bəsdir, az gül,
Az qımış!
O ki qaldı şeirə, sitatlara
Su gərək quyunun dibindən çıxa...
Sən hara,
şeir hara,
Hikmətli söz hara!

*1960*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AĞRILI SUAL

Boş söhbətdən,
min amallı həqiqətdən,
tərif, həsəd və qeybətdən
yorulmadın?
Üzə görə məhəbbətdən,
uzun tostlu ziyafətdən,
Qəliblənmiş səadətdən,
icazəli cəsarətdən
yorulmadm?
Mızı-mızı şikayətdən
kifli, duzlu bəlağətdən,
ədalətsiz ədalətdən,
Qənaətsiz qənaətdən,
Təntənəli cəhalətdən
yorulmadın?

*1968*

## ALİCƏNABOV DEDİ

Hamı bilir ki, mənim
xeyirxahlıqdır peşəm.
Yaxşılıq eləməkdən sizə, təngə gəlmişəm.
Bilirsən, hər yamanlıq əlimdən gəlir,
həmi?
Bir-birinə qataram, istəsəm, bu aləmi.
Əl bulaşdırsam əgər
nələr etmərəm, nələr?
İndi ki, etməmişəm,
sən mənə minnətdar ol!
Xeyirxahlıq, yaxşılıq,
qardaş, bu qədər olmaz.
Mən sayım, sən qulaq as!
Yerkom seçkilərində
gizli səs verən zaman,
istəsəydim
adını poza bilərdim,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həmi?
Bu sən öl, pozmamışam.
Bax, bu bir.
Bəs xeyirxahlıq nədir?
Səndən gizli, imzasız
neçə-neçə material
yaza bilərdim,
həmi?
Bu sən öl yazmamışam.
Bu iki.
Yaxşı-yaxşı fikirləş!
Xeyirxah görmüsənmi ömründə,
mənim təki.
Qaynım şərəşur Səfər,
Dayoğlum dənəs Bəşir.
İstəsəm, öyrədərdim özüm onları bir-bir;
haray salıb hər yana,
min böhtan, min iftira
atardılar üstünə.
Qalardm yana-yana.
Su tökən də olmazdı
alovuna, tüstünə.
Eləməmişəm, həmi?
Qalxan kimi tutmuşam
dost yolunda sinəmi.
Kimin həddi var, mənə deyə ki,
bədqılıqdır.
Yamanlıq eləməmək,
özü də yaxşılıqdır.
Bu vaxtacan bir yerdə
tərif eləmisənmi,
ya məni, ya yeznəmi.
Eləməmisən, həmi?
Yaxşı, deyək ki, sənin
dilin gəlmir tərifə.
Niyə cavab vermədin
o demaqoq hərifə?
Hansı ki, srağagün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məni tənqid elədi?
Necə deyərlər,
bu fakt,
yalan deyil?
Elədir?
Yaxşı, cavab vermədin,
qəmin kəm.
Bilirsən mən nə aciz,
nə təkəm.
Yan-yörəmdə dostlarım,
Əlimdə də postlarım,
həmyerlilərim də ki,
cabaca, yerbəyerdir.
Dayanıblar, şir təki.
Salamını eşitmir,
hədiyyəni görmürük.
Deyir, dost bizi ansın bir qozla,
o da çürük.
Ha, ha, sən öl,
aşnayam səninlə.
Ver əlini.
Qızım sənə deyirəm,
qoy eşitsin gəlinim.

*1959*

**PƏRSƏNG DAŞI**

Yol kənarında
bir daş gördüm.
Maraqlandım,
Bu yer hara,
bu yekə daş hara!
Hardan gəlib düşüb bu uzaqlara!
Soruşdum:
- Kimsən?
Nəsən?
Hardan gəlib düşdün
bu daşsız yola,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu düzənə sən?
Daş dedi:
- Mən adi daş deyiləm.
Yaxşı bax!
Pərsəng daşıyam,
pərsəng daşı.
Məni tulladı bura
karvanbaşı.
Əvvəl əzizləyib
qoymuşdu yükün bir tayına,
lap yuxarı.
Elə ki keçdik əyri-dolay,
əynəmli yolları,
götürüb atdı məni
bu yol kənarına.
Kim inanar,
insanların etibarına.
Dedim: - İnsanı məzəmmət eləmə.
Günahı yoxdur burda
sədaqətin, etibarın.
Aqibəti belə olur
və belə olacaq
hündürə qalxmaq həvəsilə
pərsəng olanların.

*28 fevral 1970*

**MƏSLƏHƏT**

Dağ döşü!
Bulağın sərin suyu.
Köhnə şərab.
Əmlik ətindən
şiş kabab.
Ye!
İç!
Yat!
Tut özünü bala, yağa!
Dodaqaltı mədhiyyə oxu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cecə arağa.
Yox, vətəndaş,
bu, bir yol deyil.
Nə kababdan ikraham,
nə şəraba düşmənəm,
nə sərin bulaq suyuna.
Ancaq həvəsim yoxdur;
ancaq istəmirəm
hər gün enəm
qarın hakimiyyətinin ətalət quyusuna.
Demə ki, sözlərin ənənəmizə ziddir?
Harda, hansı kitabda,
hansı nəğmədə, dastanda
oxumusan, eşitmisən -
milli ənənəmizin
şərab, kabab olduğunu?!
Axtar nənələrin taxcasını,
babaların qovluğunu!
Axı on gözəl ənənəmiz
nəğmə olub, düşünmək olub,
əmək olub,
sevmək, sevilmək olub.
Düşmənlə vuruşmaq olub,
yaxşılıq olub.
Pis deyil yerində
kababın burnumuzu göynədən
iyi də.
Köhnə küpün
su qatılmayan meyi də.
Ancaq kababxanaya döndərməyək
yurdu-yuvanı, ölkəni.
Namusla, ağılla yeyək
yavan tikəni.
Gəlin, birdəfəlik qol qoyaq -
yeməyə, içməyə, yüngül kefə
qul olmayaq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÇİBİNLƏR

Çibinlər yenə də incidir məni
Aman vermirlər ki, dincəlim bir an.
Quru nəsihətçi, tənqidçi kimi
Bərk-bərk yapışıblar mənim yaxamdan.

Neyləyim, neyləyim, dil bilmirsiniz,
özündən bədgüman şairlər kimi.
Yoxsa açıb bütün tökərdim sizə
sizdən nələr, nələr çəkmiş qəlbimi.

Axı nə yamanlıq etmişəm sizə!
Belə qoşun-qoşun axıb gəldiniz?
Bu şəkər, bu pendir, bu da ət, yeyin!
Gəzməyə də bu çöl, bu bağ, bu dəniz...

Yanımdan bircə an ayrılmırsınız,
Bu necə rəftardır, bu nə ədəbdir?
Yoxsa, mən hamıdan şirin olmuşam.
Bəlkə, məhəbbətdə bu yeni dəbdir?

Neçə nöqtə, vergül düzdünüz bu gün,
yazıldı vərəqlər üstünə dən-dən.
Gündə bir dəyişən orfoqrafiyanı
yaxşı bilirsiniz, görünür, məndən.

Hava xoş, dəniz göy, əncir, üzüm bol,
Dənizdə oğlanlar, qızlar çimirlər,
Xoşbəxtlik əlçatmaz bir xəyal deyil.
Aman bu çibinlər, ah, bu çibinlər!..

*Buzovna, 1959*

## MIĞMIĞALAR

Məni şirin yuxudan oyatdı mığmığa.
(Cücülər də başlayıb mərdimazarlığa)
Bir alacağı yoxdur məndən;
bir damcı qandan qeyri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qan mənə lazımdır,
yaşamaq üçün,
qanın ona nə xeyri?
Deyirlər, o da yaşamaq istəyir.
Ona da qan lazımdır.
Axı, qan mənimkidir.
Xüsusi mülkiyyətin
Əleyhinə olsam da kökündən,
hemoqlobinlər, leykositlər
fərdi olmaya bilməz.
Zəhmətlə toplamışam onları damarlarıma.
Bu mığmığalar nə deyir, bəs!
Yaxşı, deyək, bir damcı qanla
mən nə zəngin olaram, nə yoxsul;
gəlirsən gündüz gəl apar,
açıq-aşkar,
həm də dağılmasın gözlərimin yuxusu.
İstə ədəblə, ərkanla,
sancaqsız, dızıltısız.
Bir damcı aparıb, bütün qanımı qaraltına.
Düşünürəm;
bütün dünyanın mərdimazarlarını yığalar
içində çibinlər, hünülər
və... ədəbi mığmığalar.
Söz verələr mənə.
Kürsü alçaq, ya hündür olsun,
nə ziyan.
Sözə başlayıb deyəm:
- Əya, kürühi-kifiryan!
İstəyiniz nədir?
Dızıltınız həm tanış, həm köhnədir.
Cücü mığmığalar
qaranlıq sevir, nəm sevir,
durğun hava sevir.
Ədəbi mığmığalar,
Fürsət gəzir,
girəvə axtarır.
Dava sevir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ deyək adi mığmığaya
yaşamaq üçün qan gərəkdir.
Bəs siz?
Ədəbi mığmığalar?
Axı siz özünüzü adam sayırsınız.
Niyə
həşəratı yamsılayırsınız?

*1962*

**MƏN BAĞA YOX, AYRI BAĞA!**

Qaraquşun başı ağrıyırdı yaman.
Haray çəkirdi:
- Ay, bir əlac!
Ay, bir dərman!
Bir də nə görsə yaxşıdır.
Bir çanaqlıbağa
xəndəkdən keçib,
ağır-ağır yollanır bağa.
Qanadını açıb-büküb bir neçə kərə
qaraquş qondu yaxın köbərə.
Üzünü tutub çanaqlıbağaya:
Dedi: - Bağa qardaş, amandır!
Başağrısı öldürür məni,
bir əlac elə, bir dərman de!
Bağa dərindən bir nəfəs aldı,
qalxıb yoxuşu.
Diqqətlə başdan-ayağa süzdü qaraquşu.
Sonra gülüb dodaqaltı, dedi:
"Bir çanaqlıbağa taparsan!
Amma bax, ha!
Mən bağa yox, ayrı bağa!
Vurub caynağına onu
qaldırarsan göyə.
Fikir vermə,
ha qışqıra, ha söyə.
Amma bax, ha!
Mən bağa yox, ayrı bağa!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə ki qalxdın lap hündürə,
ordan birbaş
bağanı tullayarsan yerə.
Sonra enib aşağı,
ürəyini parçalayıb yeyərsən.
Kəsməsə başının ağrısı
mənə min lənət deyərsən.
Ondan sonra istər yüzə,
istər minə çatsın yaşın,
ömür boyu ağrımaz başın.
Amma bax, ha!
Mən bağa yox, ayrı bağa!"
Sözlərini deyib,
bağa çəkdi başını qınına.
Hələ qürurlandı da
qaraquşa kələk gəlib,
rəqibinə tələ qurduğuna.
Qaraquş fikrə getdi.
Birdən çırpıb qanadlarını,
dedi: - Dayan görüm!
Niyə düşürəm dərəyə, dağa
Bağa, bağa, elə sən bağa.
Vurub caynağına göyə qaldırdı onu
Bəli!
Bağaları güdaza verəndə
unutma bağa olduğunu!

*mart, 1960*

**GÖZLƏR**

Çoxları dad çəkdi, şivən qopardı:
"Döndərmə yazımı xəzana, gözlər!"
Mən də qol çəkirəm onlar deyənə.
Ar olsun bu əhdi pozana, gözlər!

Biri qara dedi, biri alagöz,
Bu ceyrangöz dedi, o piyala göz,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə nə iri göz, nə də bala göz,
Ruhuma xoş gəlir miyana gözlər.

Rəngini bilmədim sarıydı, bozdu,
Könül nabələddi, min yerə yozdu.
Ancaq ki, sevgimin dəjini pozdu,
Qoymadı tərpənəm bir yana gözlər.

Dərin bir dəryadır şair xəyalı.
Götürdüm boynuma şəri, babalı.
Biri alça dərir, biri gavalı,
Heç bilmirəm baxır hayana gözlər.

*1939*

**SADƏ SƏBƏB**

Yüz bir gecə
düşündüm ki, sən,
niyə məni sevmirsən?
Bəlkə burnuma görə -
yekədir.
Bəlkə, qulağıma görə -
bir tikədir.
Bəlkə, gözlərimə görə -
göydür.
Bəlkə, əllərimə görə -
kösövdür.
Bəlkə, çənəmə görə -
irəlidir.
Bəlkə, şerimə görə -
məzəlidir.
Bəs niyə, axı, niyə
qaçırsan məndən
"Yox" deyə-deyə?
Bəlkə, saçlarıma görə -
darağa yatmır.
Bəlkə, bığlarıma görə -



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qulaqlarıma çatmır.
Bəlkə, boyuma görə -
uca deyil.
Bəs neçin, axı, neçin?
İnadın bica deyil.
Nəyi səbəb tutum axı,
Nəyi?
Aha, tapmışam:
mən sarımsağı sevirəm,
sən öpüşməyi.

*1958*

**BAŞ ÜSTƏ**

Bir kənd tanıyıram mən;
nə böyükdür, nə kiçik.
Belə adi kəndlərə
nə qədər rast gəlmişik!
Bir qəribə adət var,
bu kənddə çoxdan bəri.
Ondan agah eyləyəm
gərək bilməyənləri.
Bəlkə, deyəcəksiniz:
belə kənd yoxdur, əsla!
Bağışlayın, sözümü
mən deyirəm əsasla.
Mən bu kənddə olmuşam,
mən bu kəndə bələdəm.
Pis adətlər yaşayır
Bəzi yerdə, hələ də.
Hər nə istəsən istə,
burda lap daş-qaş istə,
cavabları bir budur:
- Arxayın ol, baş üstə!
İldırım vurmuş turac,
quş südündən aş istə.
Deyəcəklər: - Düzələr!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arxayın ol, baş üstə!
De, dastan yaz qələmlə
balaca xaşxaş üstə!
Deməzlər mümkün deyil;
Deyəcəklər: - Baş üstə!
Onlardakı bu adət
bir həftə, bir gün deyil.
Mümkün olmayan şeylər,
deyək ki, mümkün deyil.
Bəs mümkün olanları?
Danışmaq istəyirəm
Bax, elə mən onları.
Kolxoz sədrini gördüm,
dedim: - Hava ayazdır,
ancaq qışa az qalıb,
elə bilmə ki, yazdır.
Bilmək olmaz, qəflətən
çovğun gələr, qar yağar.
Açıq havada qalıb
soyuqlayar mal, davar,
Damın üstünü örtdür.
Qapı-pəncərə saldır.
Demə ki, eh, nə olar,
keçinər, qaramaldır.
Cavab verdi: - Baş üstə.
Üstündən keçdi bir ay.
Gəlib gördüm bir daş da
qoymayıb heç daş üstə.
Buyur, bu da "baş üstə".
Müavinə rast gəldim,
dedim: - Yol çox xarabdır.
Yubanma, ayaq götür.
Yol briqadiri tapdır.
De ki, körpü sökülüb,
Düzəltsinlər o yeri.
Bayaq az qaldı sına
maşının təkərləri.
Yola da çınqıl tokün.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Palçıq lap dizə çıxır.
Özünüz də bu yoldan
işləyirsiniz, axı!
Cavab verdi: - Baş üstə!
Bir həftə sonra gəldim,
gördüm nə bir gedən var,
nə də təmir edən var.
Müavin qoçaq, şirin
hesabdarla deyişir
birgünlük maaş üstə,
Dedim, əcəb! "Baş üstə..."
Briqadirə rast gəldim,
Dedim: - A yoldaş Səfər,
deyəsən, yaxşı getmir
sizin sahədə işlər.
Vədlər harada qaldı?
Siz handa, plan handa?
Yox, yaxşı getmir işlər
sənin heç bir manqanda.
Yubanma, ertədən get.
Adamları təşkil et!
Hərə bilsin yerini,
sahəsini, vərini.
Sabah axırıdır ayın,
nə açılıb toplayın!
Pambığı külək tökər,
sonra da yağış döyər.
Cavab verdi: - Baş üstə.
Səhər gəldim sahəyə,
görüm işlər necədir.
Gördüm ki, hamı cəmdir.
Möhkəm, qızğın iş gedir,
süfrədə... süddaş üstə.
Bu da sizə "baş üstə!"
Belə "baş üstə"lərdən
O kənddə çox gördüm mən.
Qafiyə tapa bilsəm,
danışardım sübhəcən.
İnanmayın yan gəzib,
ortada yeyənlərə!
Hər nə desən o saat,
"baş üstə" deyənlərə!

*1957*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ƏRZİ-HAL

*Bir neçə ildən bəri Buzovna bağlarında əmələ gəlmiş ağcaqanadlar artır. Onlarla mübarizə aparılmır.*

Qulaq as, bir gileyim var sənə, ay Kirpi dayı!
Tüklərim biz-biz olur xatirə saldıqca yayı.
Eləyir başımıza bağı cəhənnəm üç ayı
Bu zəhər dilli, ilan gözlü, müzür ağcaqanad.
Taqəti, səbri kəsir, canı üzür ağcaqanad.

Mən deyirdim, Bakı istisə Buzovnası da var,
Xəzərin sahili, xoş gəzməli zonası da var,
Nə bilim yay gecəsində belə zurnası da var,
Yuxumu ərşə çəkib indi mənim ağcaqanad.
Canıma oldu əcəb qanlı qənim ağcaqanad.

Yel əsir, "dız..." eyləyib xeyli yavaşdan deyinir.
Elə bil, molla Tükəzbandı, obaşdan deyinir.
Oyanır çolma-çocuq, "vay, yenə başlandı", - deyir.
Gün ki batdı ürüyür mərdimazar ağcaqanad,
Elə zənn etmə ki, bir gün yol azar ağcaqanad.

Gər miçətkən qurasan üstünə dincəlmək üçün.
Elə bil, neştəri var ağ cunanı dəlmək üçün.
Nə icazə, nə də rüsxət soruşur gəlmək üçün.
Çimirə, mürgüyə də vermir aman, ağcaqanad.
Gahi sürətlə, gahi asta uçan ağcaqanad.

Rəhmi yox, insafı yox, insana düşmandı, nədi?
Dələduzdur, qoçudur, yoxsa xuliqandı, nədi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə sancır ki, deyirsən, bədənim yandı, nədi!
Nə rəvadır ki, belə hökm sürə ağcaqanad?
Xalqı əncir dolu bağdan köçürə ağcaqanad?

Sən xəyal etmə ki, bircə məni bu vəhmə alır.
Gecələr hər tərəfə ağcaqanad nalə salır.
Sancıb ağlatmadığı nə iri, nə xırda qalır.
Dağılıb kəndimizin hər yerinə ağcaqanad.
Bağçaya, həm pioner lagerinə ağcaqanad.

Bir zaman Yevlaxa düşsəydi yolun birdən əgər,
Yeyəcəkdi səni min ağcaqanad sübhə qədər.
Orda tədbir töküb, gör, necə məhv eylədilər.
Kəsdilər nəslini, yox oldu tamam ağcaqanad.
İndi də burda tapıbdır bizi xam ağcaqanad.

Dərdimi mən sənə yazdım ki, tapıb çarə mənə,
Qoyma vursun həşərat hər gecə min yarə mənə.
Sən yaxınsan, telefon çək, başa sal bari, yenə
Söylə səhiyyə nəzarətliyinə: - Ay həzərat!
Qoymayın, gölməçələrdə dirilir ağcaqanad,
Nə nəzakət, nə ədəb tərzi bilir ağcaqanad.
Yekə bir lagerə bəsdir bala bir ağcaqanad.
Qoymayın, gölməçələrdə dirilir ağcaqanad!

*1954*

**HƏZƏR**

Sərxoşluqda
bir süfrədə
yüzyol
öpüşüb yalaşan,
tez-tez qol-boyun olub,
dönə-dönə dalaşan,
mey içəndə
qardaş olan,
ayılanda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qəlbi daş olan
dostların cəfasından
həzər!
Həzər,
biliyi əzbər,
dili qeybət, xəbər,
gözünə baxa bilməyən,
ömründə bir dəfə
ürəkdən gülməyən,
insan sevincinə sevinməyən,
toyda, yasda dinməyən,
adı söhbəti kimi uzun,
qəlbi kiçik,
beyni çirk,
insanların vəfasından
həzər!
Həzər,
sabun köpüyü kimi,
bir anda yaranan,
dillərdə, ağızlarda daranan,
yüz qəlbdə
yüz həsəd oyandıran,
içi özünü,
çölü özgəni yandıran
şöhrətin səfasından
həzər!
Həzər,
süfrənin başında oturub
çörəyini yeyən,
sənə
"canım, ciyərim" deyən,
çətin gündə
yüz bəhanə tapıb küsən,
gicəvari yel kimi
dörd bir yana əsən,
yeri gəldi -
pambıqla baş kəsən,
dostların məlhəmindən,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəfasından
həzər!
Bunlar -
nə dostdur,
nə düşmən.
Nə aslandır,
nə dovşan.
Bunlar -
payız günü
çöl-bayırda
balağına yapışan
pişpişidir.
Bunlar -
nə arvad kimi arvad,
nə kişi kimi kişidir.
Bunları damğalamaq
sənətin borcudur,
şairin
müqəddəs işidir!

*Oktyabr, 1953*

**QARĞIBİRLİYİNDƏ YUBİLEY**

"Hörmətli Qənbərlinin
yeddicə gündən sonra
həyatının ən gözəl,
ən dəyərli günüdür.
Ancaq, o çox sadədir,
tərifi-zadı sevməz,
elə bil ki, şöhrətlə
qanlıbıçaq günüdür.
Biz əməkdaşlar isə
bunlara baxmayaraq,
hazırlaşıb layiqli
yubiley keçirməliyik.
Xalq gündə yubileyləyir;
altıaylıq, birillik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Quyruqdamı gedək biz?
Neçin, məgər dəliyik?"
Vartan, Zeynal, Nurməmməd
dəydilər bir-birinə.
Qasım İvana dedi,
İvan dedi İdrisə.
Kultfənd, Sosfond, Keffonddan
təcili pul ayrıldı.
Buyruq getdi çaparaq
birbaşa İnturistə.
Fotoqraf da çağrıldı.
Qəmbərlini ayrıca,
köhnə əməkdaşlarla
bir dəstədə çəkdilər.
Tez divar qəzetinin
təcili nömrəsində
müdirin gördüyü iş
sayıldı birər-birər:
"Azqarğı birliyi"nin
bütün şöbələrində
Qəmbərlinin həyatı
təhlil olundu geniş.
Natiqlər çox danışıb,
qısa nəticə verdi:
"Hələ Qarğıbirliyi
belə müdir görməmiş".
Çağırış biletləri,
tapşırıldı rəssama:
"Sadə olsun, az olsun,
beşcə min nüsxə ancaq.
Yəqin bir çox idarə
bizdən inciyər, əgər
belə mühüm bir işdə
onu yada salmasaq".
Şübhə yox ki, ilk gündən
keçirməkçün yubileyi,
bir komissiya düzəldi
beş nəfərdən ibarət,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir də yeddi nəfərlik
köməkçilər heyəti,
bir də məsul təhkimçi
qeyd edildi, nəhayət.
Ancaq yoldaş Qəmbərli
tərif sevən deyildi.
Bu hazırlıq işini –
hardansa duydu, bildi,
Çataraq qaşlarını,
sığalladı başını.
Dedi: "Heç mən bilmirdim,
il tamam olduğunu.
Əlbəttə, bu diqqətə,
hörmətə minnətdaram.
İşi başlamışsınız,
qalmayıb artıq çaram.
Ancaq rica edirəm,
işi böyütməyin çox.
SSRİ miqyasında
yubileyə ehtiyac yox".
Əməkdaşların gözü
riqqət yaşıyla doldu.
- Sən bir sadəliyə bax!
- Sən bir geniş qəlbə bax!
- Bu qədər ki, təvazö
yoldaş Qəmbərlidə var,
bizə nə ad verərlər,
ona qiymət qoymasaq?
Yubiley həvəskarları
Hər gün qan-tər içində
iclas edir, yığılır,
qərar qoyur, dağılır.
Xərcləri ödəməkçün
dövlət kassası hər gün,
bir sağmal inək kimi
bollu-bollu sağılır.
Ürəklər çırpınaraq,
gözlənən gün yetişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səhnənin hər tərəfi
baxsan, güldür, çiçəkdir.
Natiqlər dilə gəldi:
"Bizim Qəmbərli yoldaş
bilikdə, bacarıqda,
demək olar ki, təkdir...".
Yubileyçilər coşdular,
təbrik üstündən təbrik.
Hədiyyələr haqqında,
hələ bir söz demirik...
Xəyalından ayıldı
birdən Qəmbərli yoldaş.
Bütün olanlar, hayıf,
xəyal dünyasındaydı.
Onun, iş bacarmayıb,
qulluqdan qovulduğu
bu gün, cümə axşamı,
artıq tamam üç aydı.
Bizdə böyük günlərin
hörməti çox əzizdir.
Layiqli insanları
yaddan çıxartmır Vətən.
Bəzi yüngül adamlar
ancaq peşəkar olub.
On iki yubiley verir
bir il başa yetmədən.
Qırx bir il bundan qabaq
Həsən anadan olub,
ya, Qumdaşittifaqın
səkkiz ili tamamdır.
Görürsən, haray düşüb:
"Qeyd eləmək gərəkdir.
Bu, tarixi bir gündür!
Bu, böyük bir bayramdır!".
Bir xəbər alan gərək:
- Əzizim, yoldaş Həsən!
Böyükmü iş görmüsən,
anadan olmaqla sən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ya, ay Qumdaşittifaq,
səkkiz il müddətində
ölkədə nə yaranıb
sənin bərəkətindən?
Hər namuslu vətəndaş
bizim eldə əzizdir.
Alim, kuryer, daşyonan,
toxucu qadın, əsgər,
Sağlam bir təşkilata,
Dəyərli bir insana,
təhqirdən başqa nədir,
yersiz, ucuz yubileylər?

*1952*

**ƏDATLAR VƏ İNSANLAR**

Dedilər: - Bu yaxında
bir nəcib peyda olub.
Dedim: - Hanı o nəcib, uşaqlar?
Dedilər: - Nəcib budur.
Bol təmənnası da var.
Ancaq... ancaq... başında
Daimi "Na"sı da var.
Dedilər "namus" sözü
lap boyuna biçilib
bax bu gözəl oğlanın.
Ancaq... ancaq...
başına yapışıq
"Bi"si də var.
Güldüm, dedim:
- Nə yaman, iynəli diliniz var,
uşaqlar, ay uşaqlar!
Dedilərki:
- Təpədən-dırnağacan vicdandır
bu adam.
Binədən evlənməyib,
nə oğlu, nə qızı var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ancaq... ancaq...
Sonunda həmişəlik
"Sız"ı var...
Dedim: - Bəsdir, uşaqlar!
Səsinizi eşidər birdən
dələduz ağa.
Başlayar üstünüzə
ucuz çaxır atmağa.

*1962*

**HƏQİQƏT**

Əyri budaq, cır meyvə
düzəlir, peyvend olur.
İnsan var, zəhmətilə
yol açır nəsillərə;
Adam var, "Mən! Mən!" - deyib
qocalır, həpənd olur.

*1969*

**İCLAS BƏLASI**

Yeddi min yeddi yüz yetmiş yeddi nəfərlik
iclas
davam etdi
yetmiş yeddi saat.
Natiqlər danışdı odlu-odlu.
Kimi əzbər, kağızsız,
kimi əzbər, kağızlı.
Belə oldu nəticə:
Daha əhatəli iclas çağırılsın
yaxın bir gün;
ətraflı danışmaq üçün.

*1964.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İKİAÇILAN

"Yaşasın azad məhəbbət!" - deyib vələdüzzina
şorgözlə baxır baldızına.

Adı peyğəmbərin adından,
özü primitiv şeytan.

Üz-üzə bir qoşunla vuruşa hazıram mən,
Ancaq qoruyun məni xəlvət tutan itlərdən.

Şairlik də sənətdir,
Bacarmayana dərddir.

Hərə yazıq Günəşi min bir şeyə oxşadır,
Çiçək yerdə yaxşıdır, Günəş göydə yaxşıdır.

Qara matəm rəngidir - deyirlər, yox, yalandır,
qaldır kirpiklərini, gözlərinlə inandır.

Dünyaya nə gətirdin, dünyadan nə apardın?
Həsrət, sevinc, təəssüf, yoxsa tənə apardın?

Qoca gördüm, gözləri qaynar bir bulaq kimi,
cavan gördüm, yarpağı tökülmüş qovaq kimi.

## DOĞRUNUN ACISI

"Acı olur doğru söz" - babalar deyib bunu.
Çox görmüşəm bu fikrin dopdoğru olduğunu.
Acıdil ad veriblər mənə bəzi adamlar,
Bu da səbəbsiz deyil, bunun da öz sirri var.

Salon. Qabaq sırada əyləşib bir nazənin,
Əynindəki paltarı alışdım-yandımdandır.
Səhnədə Dezdemona ağlayır həzin-həzin.
Alışdım-yandım gözəl, sağa-sola boylandı.
Əyilib qonşusuna dedi: - Sən öl, bu qışı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beş dəfədir gəlirəm. Gör bu qarnı yanmışın
Neçə dəst paltarı var. Bir-birindən qəşəngdir.
Alikə dedim: - Öl, qal, ülgülərini çəkdir!
Necə bilirsən, ay qız, qolu bir azca gödək,
O gül rəngli paltardan mən də, sən də tikdirək.
Bu söhbəti eşitdim, yaman qaraldı qanım.
Əyilib yavaşcadan dedim: - Əfv edin, xanım!
Zərif ayağınızı hər dəfə yora-yora
Deyin, lütfən, nə üçün gəlirsiniz siz bura?
Yaxşı olmazmı evdə rahat oturaydınız,
Saçlarınızı da qızmış maşayla buraydınız?
Alikdir nədir, yəqin zavallı ərinizdir,
O tapıb gətirərdi ülgüləri də bir-bir.
Həm sizə xoş olardı, həm Alik bəxtigirə;
həm də yazıq müəllif, rəhmətlik Şekspirə!
Əyri-əyri baxdılar mənə xeyli bacıgil.
Sonra da ağız büzüb dedilər: - Fu, acıdil!

Bir şair sinəsini qabardıb körük kimi,
Yumruğunu göstərdi quru bir kötük kimi.
Qolunu açdı, bükdü, dedi: - Əzələyə bax!
Heç bilirsənmi nədir iki pudluq oynatmaq?
Dedim: pəhləvanlıq da, əlbəttə, yaxşı şeydir,
Yumruqla yazmayırlar deyəsən, axı, şeri.
Şairlik, pəhləvanlıq, məncə, eyni zad deyil,
Üzümə baxdı dedi: - Məlum oldu, acıdil!

Bir romançı tanışım o gün gəlmişdi bizə.
Süfrə açdım onunçun: plov, xuruş, mey, məzə.
Dedi ki, məqsədim var, romanıma əlavə
Yeni parça yazmışam, qulaq as oxuyum və...
Dedim: - Hansı romandır, hansı əlavədir bu?
Deyəsən, heç açmadı dostumu belə sorğu.
Mən üzrxahlıq etdim, dedim: - Bağışla məni,
Yaxşı başa düşmədim, doğrusu, sən deyəni.
Yəqin adını dedin, yəqin mən eşitmədim.
Boğazını arıtdı tanışım əvvəl hım, hım,
Sonra xeyli danışdı hörmətdən, qanacaqdan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məntiqsiz, əlaqəsiz, evdən, küncdən, bucaqdan
Nəhayət, romanına əlavəni oxudu.
Məzmunu az olsa da varaqları çox idi.
Fikrimi soruşanda elə-belə də dedim.
(Xeyirxahlıqdı vallah, billah mənim məqsədim)
Tanışım baxdı, baxdı, dedi: - Bu yalan deyil,
Sənə yaxşı deyiblər, acıdilsən, acıdil...

Bir "natiq"ə rast gəldim nə "net" bilirdi, nə "yest"
Rus sözləri qatırdı məruzəsinə tez-tez.
"Əgər seryozna baxsan deyirdi məsələyə,
zaputat eləyiblər bizi yaman kələyə.
Mən iskrom adamam, hamı bilir çesniyəm,
Heç abijat olmaram, yaşasam da tesni mən.
Butdum dobrum, sizin də bir sovestiniz olsun.
Bizim obşestvada layiq mestiniz olsun".
Məruzə qurtaranda yanaşdım "natiq"ə mən.
Dedim: - Üzr istəyirəm, inciməyin sözümdən.
Nə üçün iki xalqın dilini, yoldaş, belə
Rüsvay eyləyirsiniz pəltək məruzənizlə?
Məgər, yaxşı dil bilmək sizinçin vacib deyil?
Natiq baxdı üzümə, dedi: - Vot kak, acıdil!

Bir gün iclas zamanı namizəd verirdilər;
Bir nəfər qalxdı, dedi: - Yusif, Əli, Mir Əkbər,
Qulu, Cəlal, Səməndər, bir də bizim bu Qara.
Cavanlardan da Həsən, Hüseyn, İbiş, Gülxara.
Sədr dedi: - Yoldaşlar, siyahı oldu tamam.
On bir adam seçirdik, bu da ki, on bir adam.
Söz aldım: - Ay yoldaşlar, belə yaramaz, axı!
Birtərəfli tutulub, görürəm, bu siyahı.
Qohum, qardaş sarıdan deyən xeyli tünlükdür.
Namizədlər hamısı bir elli, bir günlüdür.
Ağzımdan söz çıxmamış yerindən beş-on nəfər
Başlarını çevirib baxdılar mənə tərəf.
Bir ağızdan dedilər: - O sənin borcun deyil!
Şuluq salma məclisə, otur yerə, acıdil!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir tənqidçi aramsız deyirdi: - Yoldaş, gərək
Biz həyatı öyrənək! Biz həyatı öyrənək!
Həyatdır nöyüt, taxıl, barama, yun, tərəvəz.
Nə vaxt öyrənəcəkdir yazıçı həyatı bəs?!
Biz həyatı bilməsək, sənətimiz süst olar,
Nə forma zəngin olar, nə məzmun dürüst olar.
Bizə həyat gərəkdir! Bizə həyat gərəkdir!
Həyat bir talant üçün su, hava və çörəkdir.
Dilim dinc oturmadı, dedim: - Yoldaş filankəs,
Hər şeydən danışdınız, insan necə oldu bəs?
Barama da, nöyüt də, pambıq da çox gərəkdir,
Ancaq həyat - yaradan, canlı insan deməkdir.
Bu axır beş-on ildə, doğrusunu de görək,
Özün harda olmusan, həyatı öyrənərək?
Dostum əvvəl tutuldu, sonra dedi: - Eşit, bil,
Uşaqlıqdan bilirəm mən həyatı, acıdil!

Bir otaq gözləməkçün, biri katibənindir.
İcazə alsan, sonra üçüncü otağa gir.
(Qoy bunu da deyim ki, qalan on-on beş nəfər
bir balaca dördüncü otaqda işləyirlər)
Müdirin kabinəsi: - Uzunu on beş metr,
eni yeddi. İstəsən motosiklet sür gətir.
Stullar, kreslolar, güzgülü divan, xalı.
Vaz, şkaf, əlüzyuyan - hamısı da bahalı.
Şir ayaqlı bir stol. Boyu uzun, beş arşın.
Soyutqan, televizor, radio, qəndqıran maşın,
Büllurdan üç qrafin, yeddi dənə külqabı.
Miz üstə bir "Manifest", bir də "qəzəl" kitabı.
Dörd telefon cihazı: bircəsi doğruçudur.
İkisi lal dayanıb, dördüncüsü zəng vurur.
Bir saat mizin üstə, ikisi də divarda.
Çoxlu eksponat var rənglənmiş qutularda.
Cərəyanlı iki yelpinc, üç yekə Çin termosu.
Bir sifonlu ağ şüşə, içində sodalı su.
Rəngli qələm bir yığın, mürəkkəb al, göy, qara...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir patefon yanında yeddi dənə "Avara".
Tərs kimi mən gələndə bütün bunlar ordaca
səliqəylə durmuşdu öz yerində cabaca.
Əvvəlcə salam verdim, sonra soruşdum: - Deyin
Nəyin şərəfinədir belə dəm-dəsgah, nəyin?
Büdcəniz beş rəqəmdən güclə birtəhər aşır.
Bu əndazə, bu büsat nəyinizə yaraşır?
Mən lap çaşıb qalmışam, yoldaş müdir, doğrusu,
İş yeridir, yoxsa ki, univermağazadır bu?
Vaxtında verilməyir işçilərin maaşı.
Elə günü bu gündən, yoldaş, ixtisarlaşın!
Müdir tırs baxdı, dedi: - O sənin borcun deyil.
Elə bir sən qalmışdın, əzvay oğlu, acıdil!

Belə hallar, əlbəttə, həyatın bir cüzidir.
Mənə verilən adın səbəbidir, üzrüdür.
"Acıdil" desələr də, mənə belə adamlar,
Yaxşıların içində mənim yaxşı adım var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Üzüyümün qaşı firuzədəndir*

## BAKI

Dəli xəzrin də xoşdur,
asta gilavarın da.
Ağlı-qaralı şanın,
Seyrəlmiş bağların da.
Qızınmışam qışında.
Donmuşam baharında.

Hər havası, hər fəsli
başqa bir aləm Bakı!
Arzumun bələdçisi,
könlümə həmdəm Bakı!

Qanadlı nəğmələrin
Gah zil, gah da bəm olur.
Yarpaqların, güllərin
niyə hərdən nəm olur.
Səndən ayrı düşəndə
sinəm dolu qəm olur.

Qucağında Xəzərim
yatıb dincələn Bakı!
Qarı, çiskin yağışı
əyri, köndələn Bakı!

Dünyada çox şəhər var
böyük, kiçik, miyana.
Xalqlar hörmət bəsləyir
gözəl təməl qoyana.
Hələ rast gəlməmişəm
tamaşandan doyana.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoynunda qərinələr
yanaşı duran Bakı!
Məhəbbətlə, ilhamla
yaradan, quran Bakı!

Sinəndə qatar-qatar
işıq karvanları var.
Polad keşikçilərdir
dörd yanında buruqlar.
Səndə kim qərib gəzib?
Qayğını kim unudar?

Ana kimi sevimli,
əziz, mehriban Bakı!
Şöhrətimi, adımı
daim qoruyan Bakı!

Dünyada çoxdur şəhər.
Sən mənim şəhərimsən.
Xoş ətirli baharım,
şəfəqli səhərimsən.
İftixarım, öyüncüm,
qələbəm, zəfərimsən.

Məhəbbəti könlümdə
dalğalı Xəzər Bakı!
Gələcəyi xəyalım
səninlə gəzər, Bakı!

Keçmişindən danışsam
sarayın var, qalan var.
Hər millətdən, hər eldən
sənə mehr salan var.
Böyük günlər yolçusu
min-min doğma balan var.

Bu günümün qüdrəti
şanım, şöhrətim Bakı!
Elim, günüm, məskənim,
eşqim, həsrətim Bakı!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ neçə küçəndə
güllər dəstələnməyib.
Hələ böyük nəğmənin
xalı bəstələnməyib.
Yüz il ömür sürəydim,
bir gün xəstələnməyib.

Yazaydım, yaradaydım
şah nəğməni mən, Bakı!
Oxuyaydı dostların
onu ürəkdən, Bakı!

*noyabr, 1961*
*Vasif Adıgözəlov mahnı bəstələmişdir.*

## GƏNCƏ

Bağlarında salxım-salxım təbrizi.
Buz kimidir Dördyolunun kəhrizi.
Göygölünün havasını udanlar
Ömrü boyu yaxın qoymaz pəhrizi.

Tarixdə var adın, Gəncəm, a Gəncəm!
İldən-ilə sən boy atdın, a Gəncəm!
Qarşısında əyməmisən başını
Ömrün boyu heç bir yadın, a Gəncəm!

Nəğmələrin ya şux olsun, ya həzin;
Alovludur Qoşqarının təpəsi.
İgidlərin nərəsindən bölünüb
Parça-parça qayaları Kəpəzin.

Gecə-gündüz canlı qəlbin döyünür.
Ellər bu gün zəfərinlə öyünür.
Neçə qurban bahasına qazandın
Şöhrətindən xəbər verən bu günü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sorağın var yüz ölkədə, yüz eldə.
Məhəbbətin neçə-neçə könüldə.
Dil yorulmaz tərifini deməkdən
Bundan sonra ömür etsəm yüz il də.

Telman Hacıyev mahnı bəstələmişdir

**ÜZÜYÜMÜN QAŞI FİRUZƏDƏNDİR**

Üzüyümün qaşı firuzədəndir,
Könlüm açılmayır bu gün nədəndir.
Yaman gündə dost əlindən bərk yapış,
Dünyanın həvəsi keçib-gedəndir.

Bizim bağlar, çöllər - xoş bir tamaşa
Sonalar göllərdə gəzərlər qoşa.
Necə çətin olsa, ömrün yolları
Birlikdə yorulmaz, vurarıq başa.

Bulud gələr, çiskin çilər, çən eylər,
Yar yarından ayrı düşsə qəm, eylər.
Sevgilimdən necə qalım aralı,
Bir baxışla qəlbə yüz məlhəm eylər.

*Tofiq Quliyev mahnı bəstələmisdir*.

**SƏNƏ DƏ QALMAZ**

Könlüm sənin əsirin, qəlbim sənindir, yar,
qəlbim sənindir.
İnsaf eylə, xoş sözlə məni gəl dindir, yar, məni
gəl dindir.
Söylə, nədir bu ədalar, bu işvə, bu naz
Gedər bir gün bu gözəllik sənə də qalmaz.
Nəqarət
Yalqızam, yalqız,
Yalqızam, yalqız.
Gəl məni möhnətə, oda
Salan vəfasız.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söylə, nədir   bu odalar, bu işvə, bu naz
Gedər, vallah, bu gözəllik səno do qalmaz.

Dağlar başı dumandır, aman Allah, yar, yenə
dumandır,
Ayrılığın ölümdən mənə yamandır, yar, mənə
yamandır.
Söylə , nodir bu ədalar, bu işvə, bu naz
Gedər bir gün bu gözəllik sənə də qalmaz!

*Tofiq Quliyev mahnı bəstələmişdir.*

**ALA GÖZLÜ YAR**

Gözlərin aladır yar,
Bir cüt piyalədir yar.
Dərdlərimin dərmanı
Başıma bəladır yar.

Nəqarət
Ala gözlü yar,
Şirin sözlü yar,
Gülər üzlü yar,
Şirin sözlü yar.

Təzə bahar gülümsən
Sevimli bülbülümsən
Dodaqların qönçədir
Qoy açılsın, gülümsə.

Nəqarət
Gözlərini süzmə, yar!
Ürəyimi üzmə, yar!
Qəlbimi incitmə gəl,
Məndən tez-tez küsmə, yar!
Nəqarət

*Süleyman Ələsgərov mahnı bəstələmişdir.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**KƏKLİK**

Yamacları, yaşıllığı bəzəyən;
ayaqları qan xınalı kəkliyim!
Qayalarda, təpələrdə təziyən
Qanadları göy cunalı kəkliyim.

Buxağında gəlinlərin yaşmağı,
gözlərində gözəllərin gözü var.
Nədir belə səkə-səkə qaçmağın?
Dayan, kəklik, sənə dostun sözü var.

Dərə əlvan, çəmən əlvan, düz əlvan...
Bu rənglərin düzümünə aldanma!
Namərd ovçu dovla qurar arxadan –
Göyqurşağı, çöl düzünə aldanma.

Bu təpədən o təpəyə səkirsən,
Nəğmən coşqun bulaqlara qoşulur;
Sən də bahar həsrətini çəkirsən,
Sərin mehli yaz səhəri xoş olur.

Sən dazıyıb yoxuş boyu qalxanda
maddım-maddım baxa-baxa dururam.
Şən qaqqıltın dərə boyu axanda
Xəyalımda nə aləmlər qururam.

Dağlarımın nadir, nazlı gəlini,
azad yaşa, nəğmələrin susmasın!
Yel salmasın bir lələk, bir telini,
Ovçu səni bərəsində pusmasın.

Səni görüb ovçuluqdan əl çəkdim,
bundan belə bir güllə də atmaram.
Bu yerlərdə indi tüfəng atsa kim
Mən sübhədək rahat olub yatmaram.

İnsan olan gözəlliyə qıyarmı?!
Sənsiz dağlar yetim qalar, kəkliyim!
Cılız ürək gözəlliyi duyarmı,
Dağlar qızı, qatar-qatar kəkliyim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yamacları, yaşıllığı bəzəyən;
ayaqları qan xınalı kəkliyim!
Qayalarda, təpələrdə təziyən
Qanadları goy cunalı kəkliyim.

*1974*

**YEDDİ ÇİNAR**

Yeddi çinar, yeddi çinar –
yeddi meydan, yaşıl çadır.
Yarpaqları ləçək-ləçək,
budaqları göyə çatır!

Əsmə külək, əsmə külək!
Bir-birinə dəyib sınar
zümrüd kimi o yarpaqlar,
çılpaq qalar yeddi çinar!

Qalxıb pöhrə budaqları,
pıçıldaşır yarpaqları.
Doğma, əziz torpaqları
kölgəsiylə qucaqlayar
yeddi çadır, yeddi çinar!

Kim yetirib sizi belə!
Alnından tər silə-silə,
aydan-aya, ildən-ilə,
keçirsiniz qatar-qatar,
yeddi çadır, yeddi çinar!

Əsmə külək, əsmə külək!
Bir-birinə dəyib sınar
zümrüd kimi o yarpaqlar,
çılpaq qalar yeddi çinar!

*Şamaxı, may, 1961*
*Vasif Adıgözəlov mahnı bəstələmişdir.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GİLAVAR

Gəzib-gəzib dərələri, düzləri,
nə durub, nə dincəlmisən, gilavar!
Vətənimin bu mehriban qoynuna
xoş gəlmisən, gilavar!

Fəsil-fəsil dəyişdikcə havalar
könlümüzdə nəğmə desin ilk bahar.
Sən də qoşul bu nəğmənin səsinə,
gilavar, ay gilavar!

Hərdən xəyal bir qanadlı quş olur,
həzin, coşqun nəğmələrə qoşulur.
Yüz möhnəti bir sevinclə əridər
insan ömrü xoş olar.

Buz bağlasa axar sular, bulaqlar –
könlümüzdə nəğmə desin ilk bahar.
Sən də qoşul bu nəğmənin səsinə,
gilavar, ay gilavar!

Hansı igid çətin yolda qocalar?
İnsan oğlu zəhmətilə ucalar!
Sən də qoşul nəğməmizin səsinə,
gilavar, ay gilavar!

*Emin Sabitoğlu mahnı bəstələmişdir.*

## AXŞAM GÖRÜŞLƏRİ

Ulduzlar yaxın-uzaq,
Düzülüb çıraq-çıraq.
Ulduzları çağıraq
Axşam görüşlərinə.

Hər könüldə bir bahar.
Gəlsin dostlar, tanışlar.
Gəlsin nəğməli quşlar
Axşam görüşlərinə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məclisimiz xoş olsun.
Şən mahnılar qoşulsun.
Deyək: - Sevinc nuş olsun
Axşam görüşlərinə!

*Tofiq Quliyev mahnı bəstələmişdir.*

**BƏLKƏ YARIM GƏLƏR OLDU**

Sarı bülbül gül başına dolandı,
Yazıq könlüm həsrətinə qalandı.
Səbr, taqət nəyim vardı apardın,
Bir demədin nə soyğun, nə talandı.

Əsmə, külək, əsmə, külək!
O dağlarda bir az yuban!
Əyil, budaq, bəlkə yarım
Gələr oldu bu yollardan.

Karvan bulud narın-narın səpələr,
Gözəlləşər göy çəmənlər, təpələr.
Aman Günəş, qoyma soyuq damcılar
Sevgilimin yanağından öpələr.

Əsmo, külək, əsmə, külək!
O dağlarda bir az yuban!
Əyil, budaq, bəlkə yarım
Gələr oldu bu yollardan.

Dərələrdən ağır duman sürünür,
Göy yamaclar ağ örpəyə bürünür.
O Aydırmı çıxdı qara buluddan,
Yoxsa yarım gözlərimə görünür?

Əsmə, külək, əsmə, külək!
O dağlarda bir az yuban!
Əyil, budaq, bəlkə yarım
Gələr oldu bu yollardan.

*1958*

*Rauf Hacıyev mahnı bəstələmişdir.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ƏHDİMİZƏ İNAN YAR

Ay işıqlı, göy ulduzlu, yol aydın.
Könlüm evi çıraqbandır bu gecə.
Nə bir çiçək, nə bir yarpaq solaydı,
Nə inciyib yardan küsən olaydı!

Hər möhnətə dözərəm.
Sına məni, sına, yar!
Əhdə çıxsam vəfasız,
Onda məni qına, yar!

Yar yolunda duman nədir, çən nədir?
Əllərinin hərarəti məndədir.
Dünya-aləm bütün gözələ dönsə,
Mənim könlüm, mənim gözüm səndədir!

Hər möhnətə dözərəm.
Sına məni, sına, yar!
Əhdə çıxsam vəfasız,
Onda məni qına, yar!

Bizi bir gün ayrı görsə yağılar,
Könlüm sənin həsrətindən dağılar.
Gündə yüz yol sənə qurban olardım,
Qorxuram ki, deyərlər, çox ağ olar!

Hər möhnətə dözərəm.
Sına məni, sına, yar!
Əhdə çıxsam vəfasız,
Onda məni qına, yar!

*1958*

*Ələkbər Tağıyev mahnı bəstələmisdir.*

## ƏFV ETDİM HƏR ŞEYİ

Əfv etdim hər şeyi, əfv etdim sənə,
O soyuq sözləri, o gülüşləri,
Zənn edirdim səni unutdum, mənə
O axşam "yox" deyib gedəndən bəri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yuxuda bu gecə dodaqlarından
Öpürkən qəlbimin əsdi telləri.
Görünür, ağlımmış səni unudan,
Könlümün bu işdən yoxmuş xəbəri.

*Bakı, iyun, 1934*
*Emin Sabitoğlu mahnı bəstələmişdir.*

## İNSAF DA YAXŞI ŞEYDİR

Ürəyimin sevinci
sənin yadigarındır.
Yuxumu qaçıran da,
sənin intizarındır.
Sən dərdimdən xəbərsiz.
Sən nəşəli, kədərsiz.
Görən deyir:
- Bu göyçək,
hansı bəxtəvərindir?!
El içində xar oldum.
Dildən-dilə car oldum.
Yar deməyə qorxuram,
ocəb bəxtiyar oldum!
Gözlərinin rəngini
Dağlarda axtarmışam.
Saçlarınm ətrini
bağlarda axtarmışam.
Mən gələndə gedirsən.
Mən gedəndə gəlirsən.
Elə bil, sən baharsan,
mən şaxtalı bir qışam.
Qərarımı kəsən yar!
Söz deməmiş küsən yar!
Ne dedim ki, incidin!
De! Bu mən, yar, bu sən yar!
Fərhad olsaydım, əgər,
qayaları yarardım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məcnun olsaydım, əgər,
min fəryad qopardım.
Dedim: - Sevirəm səni!
Dedin: - Eh, gözüm aydın.
Burda nitqim kəsildi.
Burda sözüm qurtardı.
Könlüm nəğməli neydir,
Dilim dolu gileydir.
Öldürdü nazın məni.
İnsaf da yaxşı şeydir.

*1954*

*Emin Sabitoğlu mahnı bəstələmişdir.*

**STALİN**

Əlində üçtelli sazı
Ucalır göyə avazı
Qoca aşıq el içində
DEyir: - Budur, ömrün yazı
Yaşa-yaşa, can Stalin!

Gəlin, dostlar qulaq asın
Bu ellərin nəğməsinə
Cavanların mahnısına
Körpələrin şən səsinə.
Söyləyirlər bir ağızdan:
- Yaşa-yaşa, can Stalin!
Dillərdə dastan Stalin!

Quş keçməyən sərhədlərdə
Eldə, obada, hər yerdə
Geniş mavi dənizlərdə
Keşik çəkən qızıl əsgər
Deyir: - Yaşa, can Stalin!
Ey böyük insan Stalin!

*1938*

*Niyazi mahnı bəstələmişdir.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÖLƏN NƏĞMƏM

Bir nəğməm vardı, dillər əzbəri.
İnsan olsaydı, yəqin
həsəd aparardı ona el nəğmələri!
Bir nəğməm vardı - gözəl,
həm oxumlu, həm cavan,
həm də ürəyə yatan.
Hər guşəsi yerində.
Hər bəstəsi duzlu, xoş.
İndi neçə müddətdir oxunmayır.
Bir də oxunmayacaq.
Nəğmə ölü deyilmi,
gəzməsə dodaq-dodaq?
Nəğməm öldü,
Sevincimdə yeri qaldı.
Nəğməm öldü,
Ürəyimdə ağrısı diri qaldı.

*1954*

## "QƏM KARVANI"

*R.Rzanın müxtəlif şeir və poemalarından top-lanmış bu parçalar əsasında Vasif Adıgözəlov 1990-cı il yanvar şəhidlərinin xatirəsinə həsr olunmus oratoriya bəstələmişdir. Oratoriya Qara yanvarın 10-cu ildönümündə, 2000-ci ildə ilk dəfə səslənmişdir.*

I

Vuruşdular,
son gülləyə,
son süngüyə,
son qundağa qədər.
Vuruşdular,
hər şey qırmızı geydi,
daşdan torpağa qədər.
Vuruşdular,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

alt dodaqdan
üst dodağa qalxa bilməyən
səsə qədər.
Son nəfəsə qədər.
Yaralılar ufuldamadı,
can verənlər inləmədi.
Susuzlar "yandım" demədi.
Öldülər ayaqlarının altında
Vətən torpağı.
Başlarının üstündə Vətən ulduzları.
Könüldən könülə uçdu
ümidləri, arzuları.
Gecə ağır-ağır keçdi
cənazələrin üstündən;
keçdi getdi yolu səhərə.
Günəş şəfəqdən örtük çəkdi
torpağı qoruyub, torpaqda dincələn
cənazələrə.

II

*Qaranlıqdan səs:*
- Sonu varmı, sonu varmı
yolumuzdan çəkilməyən,
dan ocağı sökülməyən,
üzümüzə bir gülməyən
gecələrin, gecələrin?
Göydə bulud - qara gəmi
Qara günün qara qəmi!
Ömrün işıqsız aləmi!
Gecələrin, gecələrin,
sonu varmı?
Bu qaranlıq qurtararmı?

*Əks-səda:*
- Keçməlisən bu qəm dolu
ağır yolu, çətin yolu.
Vuruşlarda qazanacaq
azadlığı insan oğlu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Qaranlıqdan səs:*
- Gözümüzün kökü sarı
İllər keçir - qəm qatarı!
Kim qırar bu intizarı!
Nə vaxt, nə vaxt yıxılacaq
Gecələrin dərd hasarı?

*Əks-səda:*
- Keçməlisən bu qəm dolu
ağır yolu, çətin yolu.
Vuruşlarda qazanacaq
azadlığı insan oğlu.

III

Nə son dəqiqələrindən xəbərim var,
nə harda basdırıldığını bilirəm.
Bəlkə qara quzğunlar
caynaqlayıb yedi qara gözlərini.
Bəlkə üstünə cansız sərildiyin torpaqda
cəsədin qaldı neçə gün.
Və düşmən ayağı dəymədi torpağın o parçasına.
Bu da sənin vətənə son borcun oldu.
Bəlkə də o torpaq ki,
sinəsinə aldı səni,
Dönə-dönə sənin qorucun oldu.
Lakin nə son qoruya bildin onu
sona qədər,
nə o səni.
Əbədi qaldı o torpaqda
yurdumun
neçə-neçə
Əlisi, Əhmədi, Həsəni.

IV

Baxıram qəbristana
ağlayan adam görmürəm.
Bircə torpağı təzə,
üstünə səpilmiş
çiçəklər indi-indi soluxan,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hələ başdaşı qoyulmamış
qəbrin yanında diz çöküb
üzünü torpağa qoyub,
həzin-həzin ağlayan qadından başqa.
Yəqin anadır.
Göz yaşları ürəyimi qanadır.
Başımı qaldırıb birdən,
hər qəbrin üstündə
bir dəstə çiçək görürəm.
Deyirəm: - Salam!
Yurdumun qəhrəman oğulları!
Əzizlərim!
Yəqin siz cavandınız
yəqin boy-buxunlu
bığ yeri təzəcə tərləmiş oğlanlardınız.
Bəlkə tikə-parçanızı
tapıb yığan olmadı.
Ancaq bir zaman
qara ya ağ bənizli,
sinəsində ürək çırpınan,
canlı insan olan
sizin,
bir-iki parçanızı,
basdırıblar bu torpağa.
Yoxsul olsun, ya zəngin,
qara ya ağ,
insan torpaq üstündə yaşayır.
İnsana gərəkdir torpaq!
Bu doğrudur -
Ancaq ömrün qırbacı
insanları belədən-belə qovur.
Torpağı satın alırlar,
zəbt edirlər,
mənimsəyirlər.
"Bura bizim idi!
Bura da bizim oldu", - deyirlər.
İnanmasan,
Səs bir pərdə yüksəlir,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daha qəzəbli gəlir:
- Bizimdir!
- Bizim oldu!
- Yox! - desən
Söz verilir topa, gülləyə.
Yenə inanmasan,
susmalı olursan,
zəncirlərin nəğməsini dinləyə-dinləyə.

V

Biz körpü olduq,
üstümüzdən keçdi zaman
ağır yüklü günləriylə.
İnlədik
eşitmədilər.
Çağırdıq
hay vermədilər.
Yalvardıq
baxmadılar.
Ağladıq
görmədilər.
Qolumuzun zəncirini göstərdik,
- Açın, - dedik.
Açmadılar.
Yaralı düşəndə belə
bizə yanaşmadılar.
Ən insaflısı dedi:
- Bir əlacın var,
öl, qurtar!
Nə gözümüzdə yaş qaldı,
nə qəlbimizdə məhəbbət.
İlanın ağına da,
sarısına da lənət!

VI

Azadlıq nə xurmadır,
gözləyəsən, yetişsin, yığasan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə alçaq təpədir,
həvəslənib yüyürəsən, çıxasan.
Zəncirləri qırmaq azdır
zəncirlərin dünyasını
gərək yıxasan!
Məzlumların qəzəbi
çox tufanlar qoparasıdır.
Hələ bu harasıdır
hələ bu harasıdır.
Başını dik saxla, qardaş!
Bayrağını, silahını möhkəm tut!
Dünya sənə baxır,
tarix sənə baxır
hələ çox bağlı qollar
zəncirlərini
həlqə-həlqə qoparasıdır.
Hələ bu harasıdır!
Hələ bu harasıdır!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VAXT VAR İKƏN

Çıq-çıq saat işləyir.
Düşür əbədiyyətə
ömrün geri dönməyən anları.
Zaman alıb aparır insanları
bu günəcən heç kəsin
qayıtmadığı uzaqlara.
Vaxt var ikən dünyaya bax!
Baxıb doymasan belə.
Bir divara daş qoy!
Çiçək iylə!
Saçlarını
sabahın xoş nəsimiylə dara!
Könlünü aç Günəşə, bahara.
Vaxt var ikən gəl,
şəfəqləri qarşılayaq
səhər-səhər.
Sevək, sevilək!
Fikrimizdən işıqlansın zülmətlər.
Dodaqlarında açılsın
təbəssüm çiçək-çiçək.
Vaxt var ikən
əllərinin hərarətindən
isinsin bir insan əli.
Nə qədər iş var görməli,
Nə qədər söz var deməli.
Vaxt var ikən
bircə qələm vur,
bir budaq peyvənd elə.
Demə, o necə, mən də elə.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Düşmənə amansız ol,
dosta xoşqılıq!
Vaxt var ikən
elə yaşa, elə çalış
bir gün sən olmayanda
hər kəsə aydın görünsün
yerində qalan boşluq.

*1961*

**VAXTI ÖLDÜRƏK DEDİN**

Dedin: - Neyləyək, vaxtı öldürək?
Gün uzun, gecə uzundur!
Düşünmədin,
boş keçən anlar da,
möhləti bilinməyən
ömür yolumuzundur.
Yol qurtarar,
bircə an dayansa ürək.
Nə rəvadır,
vaxt bizi yaşadırkən,
biz vaxtı öldürək?!

*1961*

**VAXT**

İlkin gördüm onu,
Saç, nə saç!
Göz, nə göz!
Dodaq, nə dodaq!
İnsan şəklinə girmiş
alovlu bir qadın ehtirası!
Dantenin Beatriçası!
Titsiyanın Venerası!
Füzulinin Leylası!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

... Rast gəldim.
Saçlara,
gözlərə,
dodaqlara baxdım!
Hey,hey!..
Hanı elə bir qüvvət
Hanı?
Canlandıra yenidən.
Beatriçanı!
Veneranı!
Leylanı!!!

*1964*

**VAXTIN KARVANI**

Neçə-neçə insanın
burda qəmi, sevinci var.
Deyilmiş sözləri,
can yanğısı, arzusu;
ümidi,
ködəri var.
Hələ deyilməmiş
nə qədəri var.
Dediklərindən artıq
deyə bilmədikləri qalıb.
Uzun illər əsrlər boyu
insan xəyalını,
insan arzusunu,
sözünü,
insanın özünü,
sıxıb qanun adlı qəlib;
ya dolayı,
ya düz;
ya hökmlü,
ya hökmsüz.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ƏSRLƏRİN SƏSLƏNMƏSİ

Burda neçə ömür yolu çatallaşıb.
Neçə doğulmamış istək
nisgili var.
Neçə ürək yanğısı,
neçə könül dili var.
Neçə arzu, neçə dilək var.

Kimi deyir: boş sözdür.
Kimi deyir:
üstü yazı dolu
çərxi-fələk var.
Dinləmədən
acları, toxları;
yoxlamadan
varları, yoxları;
çıxıram insan taleyinin
dolaşıq yollarına.

Uğur olsun,
Yol boyu bələdçilərim:
Duyum,
Hünər,
İradə,
Vicdan.
Mindirib yel qanadlı
xəyala məni.
Gəzdirirlər
sonsuz könüllər aləmini.
Orda rast gəldiyim
gah təsəlli,
gah nigaranlıq,
gah həlli çətin sual olur.
Gah camcanlı varlıq,
gah kədər heykəli - hicran,
gah ser-sevincli
vüsal olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VARAQLARDAN BİRİNDƏ

Soruşuram qəlb ağrısından:
- Bir ağrı ki,
kəlmə olub süzülüb
bəlkə könül yanğısından,
bəlkə ciyər yanğısından.
Hansı sinədən çıxıb
bağıra-bağıra,
insanlığı şahid
çağıra-çağıra
gəlib.
Dindirməsən dinməz,
söylətməsən söyləməz,
Yuvalanmısınız
bu sarı yarpaq üstündə?

## BAŞQA VARAQ

Soruşuram sevincdən:
- Dünyada bu qədər
fəlakət, qəm, kədər;
bu qədər nisgil varkən,
bu boyda dünya
canlı insan qəlbinə darkən,
haqqın varmı
belə -
gülər üzlü,
sakit gözlü
dayanasan?
Nə kövrəlib, nə yanasan?

## YENİ SƏHİFƏ

Soruşuram ümiddən:
hardan gəlmisən?
Hanı vəsiqən ki,
sən doğrusan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir gün həqiqət olacaqsan
Zəmanətin varmı;
zamandan, gələcəkdən?
Ümidsənmi gerçəkdən?
Cəbhədaşın kimdir?
Keçənlərdən, olanlardan
zəmanətin varmı?
Ağır sınaq günlərinə dözümün,
intizara dəyanətin varmı?
Yoxsa, qoçaq,
adına güvənirsən ancaq?

**ÜZ-ÜZƏ**

Danışıram
hər şerin müəllifiylə;
yazdığına görə,
şerinə görə.
Danışıram
oxuyub yazısını neçə kərə.
Soruşuram: məgər dünyanın
tükənməz dərdi-səri
sənə qalıb!
İnsanlığın
sevinc sözü,
dərd əsəri sənə qalıb?

Belə həyəcanlı,
belə rahatsız
belə səksəkəlisən,
Sən, adi insan oğlu
insan?
Hansı günlü,
hansı illi,
hansı ölkəlisən?

Səslər gəlir...
Neçə səs eşidirsən cavabımda,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

neçə sual,
neçə heyrətli nida.
İnsan qəlbi
necə biganə qala bilər;
insan qəlbidirsə, əgər.
İnsanların dərdini görə-görə
necə "neyləyim",
"necə eləyim" eşidib?
Hansı saya, hesaba gələr
insan dərdinin
insan arzusunun
çeşidi.

## OXUYURAM BİR DƏ SƏNİ

Sətirlər düzülüb
alt-alta,
üst-üstə,
yan-yana.
Bütövü var,
qırığı var.

Hər səhifədə
min könüldən xəbər verən
yığı var.
Əsrlər durub yan-yana,
Homerdən, Nizamidən
üzü bu yana.
Börnsdən, Sabirdən o yana.
Hələ çağdaşlarımı demirəm;
biri yerindən aşağı,
biri yerindən yuxarı.
Sözlər, sətirlər:
birində güllə qaynarı,
birində qılınc ovxarı.
Hansı əllər yazıb
bu sətirləri, sözləri!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hansı dillər deyib
bu yanıqlı sözləri.
Biri gedib
fikri, səsi qalıb.
Biri gedib
beş-on vergülü,
bir-iki nöqtəsi qalıb.
Birini unutduran,
birini yaşadan nədir?
Birində odlu silah,
birində quşatan nədir?
Mətləbdən uzaq düşdün
Rəsul Rza!
Onlar deyib, gedib,
Biz də davam edək yolumuza.
Həyatın Nuhdan bəri
sevinci də, yası da var.
Ömrümüzün hələ
səhifələrə düşməmiş
mübarizə edim
antologiyası da var.
Yaxşısı budur, desənə,
tarix hansı səhifəsində
yer ayırıb sənə?

**CAVAB**

- Əzizim!
Həmgünüm, həmilim!
Nə bilim!
Nə bilim!

## HƏR YAŞIN BİR NİSGİLİ

Dərələrin başından,
qayaların qaşından,
çağlayıb axan sular!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Daşdan-daşa tökülüb,
hey qıvrılıb, bükülüb
qıjıldayan xan sular!
Gah göz-göz bulaq olub,
gah coşqun irmaq olub,
gah dalğası dağ olub,
qabarıb qalxan sular!

Gah sakit, gah gur axıb,
gah quzu, gah kür axıb,
dəhnəsində darıxıb
sahilə çıxan sular!

Sızqovlar, süzüntülər
bir-birinə qatıla-qatıla
dərələrin çalovundan keçib,
qızmar Günəşin alovundan içib
yığılır, birikir, nəhr olursunuz!
Axırsınız sakit, lal;
bu sahildən o sahilə
ləngər vura-vura.
Müdrik qocalara bənzəyirsiniz;
çiynində ömrün yükü,
əqlin, biliyin yükü, qocalara.
Lakin şənlik yox, həvəs yox.
Sanki son mənzilə qalmış yolu, -
bəryaların qoynuna, -
gedirsiniz, gözü tox, nəfsi tox.
Belədir həyat.
Hər yaşın bir nisgili var.
Yaşlı görünməyə can atır gənclər.
Gəncliyə həsrət çəkir qocalar.

*1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**İNAN**

Cavanlığa aldanma!
Səni gücsüzlüyə,
üz qırışına,
yorğunluq qışına
tapşırıb gedər.
Gözəlliyə inanma!
Səni təəssüflü xatirələrə,
soyuqluğa, boyatlığa,
laqeydliyə təslim edər.
Qəlbinə inan!
İlk gündən son günə qədər
səninlədir.
Sənə sədaqətidir ki, hərdən
həzin-həzin
ağrıyır,
səni də inlədir...

*1968*

**GƏNCLİK, QOCALIQ, VƏFASIZLIQ VƏ SƏDAQƏT HAQQINDA**

Kim desə: "Gənclik hər şeydən yaxşıdır!"
mübaliğəli olsa da,
xoş sözdür.
Kim desə: "Qocalıq qiymətlidir!"
Düz olsa da,
boş sözdür.
Gənclik özü gedir.
Qocalıq özü gəlir.
Nə onu saxlaya bildim,
Nə bundan qoruna bilirəm.
Nə doyunca sevindim.
Nə ağlaya bilirəm.
Deməyin, yaşamağa hərisdir.
Gənclik vəfasız çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qocalıq vəfalıdır.
Ömrün son gününəcən
məndən ayrılmayacaq.
Bu pısdır.

*1960-1962*

**BURUQLARIN SÖHBƏTİ**

Qoca buruq
yanındakı cavan buruğa dedi:
- Ayaqlarını möhkəm bas
polad döşəməyə!
Hazır ol!
Fırtına gəlir
dəmir çeynəməyə,
polad kövşəməyə.
Cavan buruq dedi:
- Niyə nigaransan?
Qorxum yoxdur mənim
Fırtınadan, tufandan.
Bəlkə paslanıb dirəklərin?
Bəlkə dalğaların ləngəri
qaynaqlarını qoparıb, töküb?
Yoxsa, canına
cilovsuz küləklərin
qorxusu çöküb?
Qoca buruq dedi:
- Mən uzun bir ömür yolu keçmişəm.
Yıxılsam da, nə qəm!
Təkəbbür hünər deyil!
Ağır gündə möhkəm dayan qoçaqsan!
Mən getsəm, keçmişim qalar.
Sən getsən,
gələcəyini aparacaqsan.

*1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QUM DƏNƏLƏRİ,
## TƏQVİM VƏRƏQLƏRİ

Sahildəyəm.
Bir ovuc qum götürdüm əlimə.
narın qum dənələri axdı
barmaqlarımın arasından;
bulaq suyu kimi;
təmiz,
işıqlı,
sakit, səssiz;
geri dönməyən vaxtın
anları kimi.
Sahilə baş qoyub
yatırdı dəniz.
Qum dənələri süzülürdü
barmaqlarımın arasından.
Gözlərimi yumdum
Dinlədim dənizin
qəmli sükutunu.
Bir an,
mənə elə gəldi ki,
bu səssizlik içində,
lal külək,
bir-bir
çevirib qoparır
təqvim varaqlarını.
Bu xəyali aləmdə, gördükcə
bayramlı bayramsız varaqların
tək-tək qopub düşdüyünü.
Duyurdum qəlbimin,
sızım-sızım üşüdüyünü.

*1976*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## PERPETİUM-MOBİLE

Məqaləni qurtardım dünən.
Bu gün şeri verdim çapa.
Bu gecə son səhifəni çevirib
vida etdim oxuduğum kitaba.
Gözlərim deyir:
- Yat! Yat!
Nə vədin var,
nə borcun,
nə yarımçıq işin.
Məni dincəlməyə çağırır,
əbədi ayrılıqla,
kövrəlmiş keçmişim.
Ancaq, duyuram,
qarşıdan,
bir an yubanmadan,
gələcəyim gəlir.
Açılır səhərin qapıları.
Maraqlıdır, nə gəlir?
Kim gəlir?

*Bakı, 1964*

## HAMIMIZ YOLDAYIQ

Yol. Qatar.
Minənlər var, düşənlər var.
Kimi gülə-gülə minir,
gülə-gülə düşür.
Kimi kədərli, qayğılı.
Duracaqlar ötüşür...
İskələlər keçir.
Qurtarmaq bilmir qatarın yolu.
Gündüzü var, gecəsi var.
Hələ gülə-gülə minəcək,
kədərlə düşəcək neçəsi var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə mən bilirəm harda düşəcəyəm,
nə qatardakılar bilir.
Bəlkə heç qatar dayanmayır:
düşonə elə gəlir,
minənə elə gəlir.
Bəlkə mənə elə gəlir.
Gedir qatar.
Çay içirəm, papiros çəkirəm,
düşünürəm, şeir yazıram.
Mən bu uzun yolda
getməyə, getməyə, getməyə də,
ən yaxın duracaqda düşməyə də hazıram.
Ancaq..,
Bu şeri qurtarım.
Bir yenisini başlayım.
Bir də...
Nə yol qurtarır,
nə arzular.
Yeni iskələlər, duracaqlar ötüşür.
Kim isə minir,
Kim isə düşür.

*mart, 1962*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**HƏYAT EŞQİ**

Gözlərimə baxdı həkim,
kağıza xeyli baxandan sonra.
Mürəkkəbə batırdığı qələmdən
damcı-damcı
mürəkkəb axandan sonra.
Baxdı və dedi:
- Şəkər!
Mən bilmirəm hansı dəqiq tərəzi
gözlərdeki təəssüflin
ağırlığını çəkər?
Mən gördüm, həkimin
təəssüf rəngli gözlərini.
Eşitməsəm də onun
əvvəlki sözlərini,
ancaq bir kəlməni eşitdim.
Eşitdim
top gurultusu
eşidən kimi:
- Şəkər!
Gözlərimi həkimin
gözündən çəkmədim.
Gözlərinə and olsun
bir qırpım, bir an
gözlərimi çəkmədim,
onun baxışlarmdan.
Ancaq soruşdum:
- Uzun çəkər? Dedi:
- Çox xəbis şeydir bu şəkər!
Özü bir şey deyil, ancaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəzi adamlar kimi, ara qarışdırandır.
Çox azar törədəcək;
bu cəhətdən yamandır.
Dedim:
- Elmin bu vaxtı...
Təbabətin qüdrəti...
Məgər...
Həkim dedi:
- Zəhrimara qalsın bu şəkər!
Dedim: - Qalsın... qalsın!
Neyləyək.
Nazilən yerdən üzüləcək.
Bəli!
Rəfiqəm mənim!
Əzizim!
Nə məyusam, nə şad.
Gözlərimdə canlandı
Keçirdiyimiz həyat.
Ümidli, arzulu.
Mübarizə, səadət dolu
günlərimiz
gözəl ümidlər içində keçmədimi?
Dodaqlarında bahar təbəssümü
çağırdın adımı.
Ən şirin xülyamız
canlı həyat olmadımı?
Mən deyərdim: - Payız ayları
yaxşıdır iş üçün.
Yeni poemamı qurtaram gərək.
Sən də gülərək
deyərdin: - Məgər
qurtararmı
şerə dönən
düşüncələr, həvəslər?
Bir əsəri bitirdin,
yenisi növbədədir.
Hələ bu yarı olmamış,
Gəlir yeni çağırışların sorğusu.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən səninlə həmrəy idim doğrusu.
Rəfiqəm mənim, əzizim!
Günlərimiz bizim
necə gözəl istəklərə bağlı keçdi.
Demirəm haraylı keçdi.
Demirəm təmtəraqlı keçdi.
Qış oldu, yaz oldu.
Bəzən sevincimiz
qayğımızdan az oldu.
Ancaq yenə də maraqlı keçdi.
Mən həkimin gözlərindən oxudum:
Möhlət qurtaracaq,
arzular qurtarmadan.
Yolu çovğun kəsəcək,
mənzilə varmadan.
Olsun!
Doğrudur, hər kiçik yarpaq belə,
nə qədər oxşasa da başqasına,
Yenə təkdir;
bəlkə rəngi,
bəlkə biçimi,
bəlkə də hərarətilə
Bəli, təkdir.
Saplağından üzüldümü
bir də bitməyəcəkdir.
Lakin!..
Nə təəssüf edirəm,
nə də dəymə-düşər qonaq kimi
küsüb gedirəm.
Yox!
Məna ömrün boyunda isə;
onda eşq olsun
ala qarğaya,
bir də qart qurbağaya!

Biz ömrümüzü yumşaq
yaşıl mamır kimi
ağac gövdəsində keçirmədik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hansı göz var ki,
ona açıq və dik
baxa bilmədik?!
Ümidlər içində,
arzular içində keçdi ömrümüz.
Nəğmələr, qovaqlar içində keçdi ömrümüz.
Bahar içində keçdi ömrümüz.

"Yarımçıq əsərləri bitirək", - dedik.
"Uşaqları böyüdək,
yetirək", - dedik.
Düşünmədik, günlər sayılı imiş,
ömrün yolu gödək.
Gör nə qədər
Yarımçıq iş var.
Ümidlər!.. Arzular!..
Məhəbbətin
çevrilməmiş varaqları var.
Yurdun hələ
sinəsi sirli qalan
silsilə dağları var.
Hələ Mildə, Muğanda
salınmamış meyvə bağları,
hələ Bakıya gəlməmiş
Şah dağın buz bulaqları var.
Hələ pəncərəsi şüşələnməmiş,
hərəsi bir şəhər evlərin
boyaqsız otaqları;
hələ nur muncuğu kimi
neçə kəndin yoluna düzülməmiş
ildırım çıraqları var.
Ölümü susdurmaq üçün
hələ yaranmamış
nə qədər şəfa, əlac yaraqla,
hələ kölgəsini çöllərə salmamış
neçə yaşıl meşə zolaqları var.
Hələ zəfər nəğmələrində
nəqarət olmarmış
neçə qurtuluş soraqları var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ nə qədər
könlümüzün nəğməsi, harayı var.
Hələ bütün bu işlərdə
qolumuzun, beynimizin
payı var!
Hələ sənə deyilməmiş
nə qədər sözüm var.
Rəfiqəm mənim!
Hələ gözlərindən doymamış
gözüm var.
Mənim eşqim, könül həyanım!
Sevgilim mənim!
Hələ yazılmamış nə qədər şerimiz var.
Holə tərənnüm edilməmiş
nə qədər tarixi iz var.
Hələ neçə dəfə sallanacaq
gümüşü bədmüşkün
iyli, tüklü budaqları,
bizim eşqimizin
yeni-yeni nəğmələrini dinləmək üçün.
Kim yazdı möhlətini
bu gedər-gəlməz köçün!

-Yox!
Mən yolçusu deyiləm bu yolun.
Rahat olun, dostlar, rahat olun!
Nigaranlığa yoxdur əsas,
Hələ mən,
bənövşə dərməyə gedəcəyəm bu yaz.
Gedecəyəm iyli, rəngli,
adlarını yüzdə bir adam bilməyən,
yeni çiçəklər dərməyə.
Gedəcəyəm, yeni-yeni şerimi
oxucuma göstərməyə,
Gedəcəyəm, öz ayaqlarımla.
Gedəcəyəm, yanımda balalarım.
Bir də eşqimi sınaqdan çıxarmış
vəfalı yarım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəstəm böyük olacaq,
əzizlərim, çox böyük.
Qohum-qardaş, dost-aşna.
Dünyanın bütün yaxşı adamları.
Bir də,
yurdumun baharı.
Bir də,
baharın nəğməli qaranquşları.
Qarşımızda yeni günlərin
şəfəqli yoxuşları.
İllərin zirvəsindən aşa-aşa,
mən vətənimin gözəl günləriylə
girəcəyəm yüz yaşa.
Mən qolları açıq
qarşılayacağam,
nəğmələrlə bəzənmiş
neçə yeni baharı.
Vətənimin oğulları, qızları!
Könlümün dostları!
Biz bir yerdə qarşılayacağıq
neçə min neçədə gələcək
qoynu nəğmə-nəğmə,
sinəsi çiçək-çiçək
yeni baharı!

*Bakı, 1955*

**BEYİN FOSFOR İSTƏYİR**

Beyin fosfor istəyir,
şəkər istəyir ürək.
Həkim deyir:
- Şəkəri az yeyəsən, gərək.
Beş-on il dözər can
ciddi pəhriz saxlasan.
Diabetsən.
Özünlə insulin götür,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hara getsən.
Bu yandan da minyera,
özü də angianoz...

Nə qəşəng adı var andırın!
Ancaq inanmayın bu gözəlliyə
Rast gəlsə, yan durun!

Həkim pıçıldayır: -
Vəziyyət ciddidir,
başa salın, qandınn!

Düşünürəm:
Deyək əlac tapıldı
daibetlə minyeraya.
Bəs qan təzyiqini
hara qoyaq, hara?
Heç də adı ondan pis deyil:
Gi-per-to-ni-ya!
Eh, kimdir onları bir-bir sanıya!
Biri belə adlanır,
biri elə,
hamısı ömrümüzü sökür-aparır
parça-parça, gilə-gilə...

Minyeran var,
ət yeməlisən.
Gipertoniyan var,
ətə vida deməlisən.
İndi gəl ayırd elə,
başa düş, anla:
hansı pəhrizi
uyğunlaşdırmalısan
hansı dərmanla?

Düşündükcə adamın başı
qazana dönür.
Yazdıqca, adam
anbarda siyahı yazana dönür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömür çox da qalsa, az da, -
yol gedə bilmirəm
asta-asta.
Könlüm bahar istəyir.
Bir an olsa da,
istəmirəm sükut,
dinclik!

Odsuz-alovsuz həyatın
hər dəqiqəsi
hər dərdə şəfa verən
dərman olsa da,
istəmirəm
arxa sıralarda qalam.
Canlı olam, -
ətalət çeşməsindən
dirilik suyu alam.

Titrəyə-titrəyə,
sısqa və cılız yaşamağa,
ömrün yükünü,
inci-gövhər dolu
bir xurcun kimi
çiynimdə daşımağa
meylim yoxdur!
Həkimim - nüsxəbəndim
Loğman olsa da,
mən ürəkdən gülmək,
könüldən sevinmək,
sevdiyim insanları
qucaqlayıb bərk-bərk
sonra, lazım gəlsə,
tufanda qanrılıb
kökündən qopmuş
gövdəli palıd kimi ölmək istəyirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən qorxmuram, -
dəqiqələrin sahili
ölüm olsun, həyat olsun, -
ancaq
nə sözlərim sinsisin,
nə şerim boyat olsun.
Her misramda
dalğalı
alovlu
həyat olsun!
O ki qaldı
diabet-miyabet,
minyera, gipertoniya, -
illər keçib getsə də,
hər sözümdən
bahar məni tanıyar, -
Bir bahar ki,
lalələrdən çəmənləri
qanıyar...

İnsanlardan soruşun, -
min bir nəğmə içində
onlar məni tanıyar.

*Buzovna, 1958*

## MƏN GEDƏSİ DEYİLƏM

Əvəzi[1] yola saldıq
Xəstəliyi: Diabet!
Bir gün Mikasız[2] qaldıq
Xəstəliyi: Diabet!
Su oymuş qaya kimi
uçulur dörd bir yanım.

---

[1] Əvəz Sadıx
[2] Mikayıl Rəfili



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilirəm gec-tez gəlib
çatar mənə də növbət.
Hələlik, növbətə var,
bir il, bir gün, bir saat.
Yaratmaq istəyirəm.
Sənə eşq olsun, həyat!

*1958*

**SULAR AXIR GÜMÜŞÜ**

Qar yağır lopa-lopa.
Uşaqlar adamları,
Gülüb basır qartopa.
Navalçadan asılır
sırsıra lülə-lülə.
Xizəklər zolaq salır
yuxuya batmış gölə.
Bilirəm, sən də varsan
qürubun sansında,
fırtınalı bir ömrün
qırılmış yarısında.

Budaqlar yarpaqlayır,
çiçəklər rəng-rəng açır.
Durnalar ötüb gedir,
qəriblikdən qürbətə
ikisi bir, üçü bir.
Günəş mehribanlaşır,
bağçada gül üşümür.
Bilirəm, sən də varsan,
Kölgələrin izində,
göz yaşı dənizində.

Çaylar axır köpüklü,
sular qaynayır, daşır.
Günəş yandırıb-yaxır,
zəmilər qızıllaşır.
Dənizin ləpələri



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

oxşayıb sinəmizi.
Dalğaların nəğməsi
basır səsinə bizi.

Kölgələrdir qapqara,
Ağappaqdır işıqlar.
Gecə-gündüz bilməyir
gülüşlər, qışqırıqlar...
Bilirəm, sən də varsan,
Ağır, sükut içində,
gözə adi görünən
taya bulud içində.

Salxımlar sıra-sıra.
Üstü yüklü budaqlar
söykənib budaqlara.
Bağlar qızılı geyir,
sular axır gümüşü.
Qulağımda səslənir
gəncliyimin gülüşü.
Bilirəm, sən də varsan
Səslərin susumunda,
adicə bir meyvənin
çür-çürümüş tumunda.

Yaşamışam, görmüşəm
ömrün yaxşı-pisini;
günlərin qazancını,
illərin itkisini.
Nə bir kəsə borcluyam,
nə də alacağım var.
Nəyim vardı vermişəm
xalqıma, insanlara:
Yaxşı söz, qayğı, ülfət,
sevinc, kədər, intizar.
Az olmuşsa neyləyim;
olub-qalanım budur.
Vermişəm hər nəyim var:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ümid, arzu, etibar.
Biliręm gęlęcęksęn.
Gęlęcęksęn tez, ya gec.
İxtiyar męndę olsa,
qoymazdım gęlęsęn heç.
Ancaq ki, bir qaçılmaz
qanunu var hęyatın.
Günlęrin damlasından,
dolacaq ömür gölü.
Necę uzaqda olsa
Gęlęcęk bir gün ölüm.
Gęlęcęksęn, gęl!
Ancaq Bunu da bil!
Hęr zaman
sęni düşündükcę męn;
ölmęmękçün vuruşub,
yaşayıb, yaratmışam.
Nigaran deyilęm, gęl!
Haçan, necę bacarsan.
Sęhęr, gündüz, ya axşam.
Sęn varsan, męn bilirdim.
Doğrudur, illęr boyu,
Doğrudur, hęr dęqiqę
yaxınlaşdırıb męni sęnę,
bir xęncęr boyu.
Ancaq ki, męn dę sęni
azca gözlętmęmişęm,
görüb-götürüm deyę,
şeri bitirim deyę.
Elimin bayramını
bir dę keçirim deyę.
Dayan, oğul toyudur,
sağlıq içiręm deyę.
Dayan! Qırılır deyę
kölęlik zęncirlęri.
Yuban! Dinlęyim deyę
nęğmęli zęncilęri!



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Yubatmışam mən səni
insanlara, işığa
yerə məhəbbətimlə.
Acizliyə, sükuta
və sənə nifrətimlə.
Gözlətmişəm ya bir il,
ya bir gün, ya bircə an.
Bu mənim qələbəmdir,
bu mənim zəfərimdir.
Hər başlayan yeni gün
mənim iş səhərimdir.
Hələ çox gözləyəcək -
yubanacaqsan hələ.
Hələ çox işim qalıb -
çox davam var səninlə.
Bir gün gedəri olsam,
bəlkə azalacaqdır
bu dünyadan bir damla.
Ancaq dünya qalacaq;
dopdolu bir həyatla,
yepyeni nəğmələrlə,
yaşayıb yaratmağa
qadir saysız adamla.

*1960*

## BİZİM DOKTOR

*Doktor H. Veysova*

*"Təbabət, əksəriyyətlə təsəlli verir.*
*Bəzən xəstənin halını yüngülləşdirir,*
*nadir halda sağaldır".*
**Hippokrat**

Nəbzimi yoxladı.
Qan təzyiqimi ölçdü.
Sinəmə qoydu qulağını:
"Nəfəs alma" dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Al! - dedi.
-Alma! - dedi yenə.
Xeyli çəkdi müayinə.
Gözüm onun üzündəydi.
Görüm qaşları çatılacaqmı?
Görüm rəngləri dəyişəcəkmi?
Axı, neçə gündür,
bu öskürək məndən əl çəkmir.
Nə qaşını çatdı,
nə dəyişdi rəngi,
nə pozuldu səsinin ahəngi.
Nüsxələri yazdı.
Məsləhətlərini verdi.
Əlini uzatdı,
dedi: - Dərmanları atsan,
bir həftəyə sağalarsan,
atmasan, yeddi günə.
Hamı güldü,
doktorun zarafatla dediyinə.
-Xudahafiz!
Uşaqlar qapını açdı.
O getdi.
Qapı örtülməmiş
eşitdim onun zümzüməsini.
"Gözəllərin ürəyi
xəyanətə meyl edir".
Belə adəti var:
vidalaşıb gedəndə
pəsdən-pəsdən oxuyar.
Ancaq,
xatırladım neçə il əvvəl
halı xarab bir xəstənin yanından
oxumadı getdi.
Getdi sakit, pərişan.
Mən bilirəm bizim doktor
yeganə deyil;
var adlı-sanlı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayrıları da.
Ancaq,
bizim doktorun
cana böyük şəfadır
zümzümələri də,
ariyaları da.
Şəfa verir
pəhrizi də,
davacatı da,
duzlu zarafatı da.

*fevral, 1962*

## DOKTORLA ÜRƏK SÖHBƏTİ

Gələnim bir təbib,
bir də dərman verən,
iynə vuran bacıdır.
Yediyim duzsuz yemək,
bir də həb-həb acılar.
Gecələr gözləyirəm
nə zaman
pəncərəmdə səhər açılar.
Gündüzlər gözləyirəm
axşamı.
Məlumdur ki, xəstələr
yaşamır.
Xəstələr gecə-gündüz
ölümlə dava çəkir.
Bəzi səsli, haraylı,
bəzi səssiz, səmirsiz;
mən təki.
Yaşamaq - fəaliyyət,
yaşamaq - qaynar işdir.
Nə anlayar,
nə duyar bunu
o kəs ki,
bu yola düşməmişdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günlər yüyürür, keçir,
vaxt bir il də qocalır.
Dünya belə qurulub.
Ağac,
daş,
torpaq özü,
söz də,
dil də qocalır.
Hətta ölülər belə;
yaşayıb gündən-günə,
qocalır ildən-ilə -
daş ya ağac ölüsü?
Fil ya turac ölüsü.
Ölü dillər də vardır.
Olü çaylar,
vulkanlar,
ölü göllər də vardır.
Ancaq,
qocalığın da
növü var,
möhləti var.
On min il də yaşayır
bəzi nadir ağaclar.
İnsanların möhləti
çox quşdan çox olsa da,
çox həşəratınkından
xeyli qısadır, qısa.
İndi gülüb, danışıb
vidalaşdığın insan
sabah gözləri bağlı
yola düşür dünyadan.
Yanırsan için-için
ancaq düşünmürsən ki,
bir gün də gələr sənincin.
Düşünmürsən ki, ölüm
dayanmışdır pusquda.
Ömür də keçib gedir,
iş günü, yuxu, mahnı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

söhbət, hay-huy susqu da.
Sevdiyin bir qadının
sığallayır başını,
bəzən də unudursan
keçən ömür yolunu,
hər gün artan yaşmı.
Qara xəbər gələndə
yaxından, ya uzaqdan
düşünmürsən:
sənin də belə günün gələcək.
Deyirsən: "Əzizlərim,
yeni il sağlığına
badə qaldırın, içək!"
Bir füsunkar gözəlin
torpaq olmuş bədəni,
ya kuze, ya cam olur.
Görürsən,
düşünürsən.
Hələ ki, möhlət vardır,
qaldırın badələri
yeni il sağlığına,
a dostlar!
Xəyyam şerin diliylə
çox deyib bundan bizə.
Mənim deyildir
"torpaq, bədən,
cam, kuzə".
Mən təkrar sevməyirəm.
Deyiləni deməkdən
faydasız bir şey yoxdur.
Ancaq, əzizim doktor
iş ondadır ki, bütün
bunları bilə-bilə
necə yaşayırıq biz,
xeyirli, ya xeyirsiz?

*1965*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SƏHƏRİN QAPISINDA

Bir gün mənsiz olacaqsan.
Sənsiz olacağam deməyə
gəlmir dilim.
Kim bilir,
hardadır
ömür yolunun finişi.
Ömrümüzü uzadacaqmı
məhəbbət,
kədər,
nifrət,
sevinc;
ya qısaldacaqmı!
Yolumuz döngə-döngədir.
əzizim!
Bu döngələrin
kor dalanı da var.
Baharlı günlərin
ümid qaynağı;
şaxtalı günlərin
talanı da var.
Bir sükut, bir qaranlıq
kəsir qarşını.
Dur!
Qurtar!
Deyirsən, axı,
bitməmiş işlərim,
nə qədər ümidim,
arzum var.
Soyuq bir səs
yandırır beynini.
Möhlət bitdi!
Qurtar!
O sözləri deməyə,
bu sözləri eşitməyə belə
macal olmayacaq.
Bir gün mənsiz qalacaqsan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənsiz qalacağam deməyə
gəlmir dilim.
Xəstə qəlbinə
ağır olacaq bu nisgilim.
Başını qaldır!
Gözlərinin yaşını sil!
Dünyaya bax!
Neçə ulduz sönüb, gedib
yaşı yüz-yüz işıq ili olsa da.
Dənizlər, çaylar quruyub,
dağlar çöküb,
nə qədər ağac qopub kökündən,
nə qədər çiçək solub
milyon illik
ya bir günlük doğulsa da.
Nə qəm, nə kədər!
Hamımız getməliyik;
Vaxt gəlsə haçaq.
Ancaq,
vaxtsız gəlməsin bu vaxt,
gəl yeni il süfrəmizi açaq!
Dolduraq piyalələri.
Qarşılayaq
yaşamadığımız gələcəkdən gələn
səhəri!
Dilimizdə ölümsüz nəqarət!
Var olsun həyat!

*31 dekabr 1969*

**ALLAHA MƏKTUB**

Mənim imkan qanadımı
qırıb kəsən,
qadir, adil,
ya hər nəsən!
Xəstəlikdən,
yorğunluqdan
bir sədd çəkdin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

niyə yazmaq həvəsimə.
Yoxsa, qorxdun
bir gün gələr,
hamı bilər,
sənsən qadir, adil,
yoxsa
Nəsiminin nəvəsi -
mən.

*21 fevral 1970*

**HƏYAT**

Otağım tək.
Pəncərəm bağlı.
Nə səs var,
nə də bir vərəq tərpənir
masamın üstündə.
Düşünürəm nə zamandır.
Düşünürəm, gözləyir qələm.
Saatlar, dəqiqələr keçir.
Nə bir fikir var cümləyə girsin,
nə bir söz var qəlbimi dindirsin.
Ağ vərəqlərlə doludur masamın üstü.
Tavanda buludlanıb tüstü.
Bilmirəm azmı, ya çoxmu keçib.
Ayrılıram fikirdən.
Qələmi basdığım yerdən deşilib
kağız da, masamın üstü də.
Tavandan çəkilib bulud, tüstü də.
Açıram pəncərəmi tay-tay.
Otağımla bərabər!
Çıxıram şəhərin
gurultulu qoynuna.
Sinəmdə üfüqlər,
pəncərəmdə şəfəqlər.
Qəlbim arzularla dolu,
gözüm günəşlə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sinəm bu günün sözüylə.
Yandırıram sükutu da,
sükunəti də;
qəlbimi alovlandıran
yaşamaq, yaratmaq közüylə.

*1958*

## BAHAR HƏR İL GƏLƏCƏK

Göyə baxdım,
birəm-birəm qar gəlir.
Kərəm düşdü yadıma.
Əfsanələrin ən gözəllərindən:
iki məzar,
arada bir qaratikan kolu.
Ax, bu kollar, bu kollar!
Hər zaman
işimizə, gücümüzə əngəl olurlar.
Qar çox yağsın, az yağsın,
bir vaxt kəsəcək.
Günəş daha mehriban,
daha canayatan,
dağ-dərələr az duman,
çöl-bayır al-əlvan olacaq.
Küləklər daha mülayim əsəcək.
Hər il belə
qış gedib bahar gələcək.
Bu bahardan biri
mənsiz gələcək,
mənsiz gedəcək.
Ban çiçəkli, otlu olaydı yolu.
Dağında, düzündə
bitməyəydi qaratikan kolu.
Belə, dünya, belə!
Gülə-gülə!

*1969*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GÜNDÜZ HANSI, GECƏ HANSIDIR

Bir-birinə qarışıb
gecə-gündüz;
dumanlı havada
ağac kölgəsi kimi.
Pəncərələr
ağarır,
qaralır.
Yumşaq qaranlıq içindəyəm.
Sürətlidir damarlarımda
qan axarı.
Nəbzim -
yüzdən yuxarı.
Qırx onda beş hərarətim.
Onda altı!
Onda yeddi!
Anıra bilmirəm
gələn-gedən kimdi,
həkim nə dedi.
Elə bil ki, ikiyə bölünmüşəm
nə kağız var, nə qələm
yazam bu ikiliyi.
Açılan, sıxılan
qeyri-müəyyənliyi.
Bir düzümə salıb
dərk edə biləm
canıma hökm edən həkimlərin
köhnə, təzə,
kamil, naqis biliyini.
Hələ ki bilmirəm,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gecə hansıdır,
gündüz hansı;
istər gün çıxsın,
istər çıraq yansın.
Qəlbim vurur:
"Va...ram!.. Ma...ram!
Səni qur...ta...ra...ram!"

*1973*

**BİR GECƏNİN TARİXİ**

*(İnsan insanlar üçün)*

Haradasa,
uzaqdamı, yaxındamı
aylar, illər ötdü,
insan yorğun günləri,
yorğun gecələri
bir-birinə caladı.
Neçə şübhə,
neçə ümid qırığı
fikrini haçaladı.
Ayların, günlərin
həvəsli zəhmətini
bir təcrübə,
bir nəticə
heç elədi.
Bəzən bir qatmanı tez,
bəzən gec elədi.
Kolbalar doldu, boşaldı.
Maye köpükləndi, qurudu.
O, yüzü birə,
biri yüzə vururdu.
Zərrələr yığıldı, dağıldı,
həb oldu –
böyük, kiçik.
O çalışdı;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gözlərində yorğunluğun acısı
xəyalında ümid toranı,
qəlbində incik.

Otaq.
Pəncərələrdə qalın pərdələr.
Yataqda insan;
sinəsində iki parça mum.
Gözləri işığa qapalı.
Təbəssümsüz dodaqlarda
çəkdiklərinin acısı.
Nə rahatlıq,
nə ağrıların biranlıq
amanı.

Zərif, mehriban əllər
gətirdi dərmanı.
- Atın! - dedi,
bu əllərin yiyəsi.
Ağır-ağır açıldı
yorğun gözlərin qapağı.
Sanki uzaqdan,
sinəsinin dərinlərindən
bir səs gəldi:
- Yenəmi?
Yetər, deyilmi?
Neçin mənə acı həqiqət
deyilmir!
Şəfqətli səs təkrar etdi:
- Atın!
Atın!
Bu yeni həbdir.
Xəstə inlədi:
- Yeni, yenisi.
Daha, daha yeni.
Dadı başqa,
rəngi başqa,
təsiri eyni!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dərindən bir ah çəkdi.
Ümidsiz atdı.

Bir gecədə
dəyişdi halı.
Geyişik kəsildi.
Ürək döyüntüsü azaldı.
Ağrılar
azdan az qaldı.
Hardasa,
yaxındamı, uzaqdamı,
süd işıqlı otağında
sınaq laboratoriyasında
üzərində qarışıq dava tozu
dolu, yarıdolu, boş kolbalı
miz üstünə
yorğun bir baş əyilmişdi.
Rəqəmlər, düsturlar,
nəticə yazılı kağızlar
sərilmişdi yan-yana -
İnsan
yeni-yeni əlac axtarır,
xilas yolu kəşf edirdi.
Görmədiyi,
bilmədiyi
insana.

*1974*

**PAYIZLI DUYUMLAR**

Pəncərəmdən görünən
bir dənizdir;
kvadrat içində,
birdə
göylərin uzunsovluğu.
Yanımda
nüsxələrin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hərarət cədvəlinin
sarı qovluğu;
Gözlərimdə
nə ağac kölgəsi,
nə çəmən yaşıllığı.
Beynimdə müxtəlif üzlər;
insan oğlunun
yamanlığı, yaxşılığı.
Qulaqlarımda rəngsiz gecələrin
döyənək alqışları
və gözlərimdə
qaya çopurları,
torpaq qırışları.

**HARDAYAM?**

Payızın nəfəsi
alıb məni içinə;
ürəyimə daman duyum kimi...
Hardasa sarımtıl,
solğun yaşıl var.
Qırmızı-narıncı yarpaqların
vida nəğməsi var:
pıçıl-pıçıl -
kövrək xışıltılar.
Yumulu gözlərimi qapayıram
xəyal içində.
Quş dimdiyi - nur yarpaqlarının
sarısını görürəm
və solğun yaşılını
həmişə cavan ağacların.
Qırmızı ləkəli xurma yarpaqları
titrəyir
yarıçılpaq budaqlarda.
Payız
həzin nəğmə kimi
süzülür



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pəncərədən
susqun otağa.
Süzülür,
sərin nəfəsli
tez düşən axşam toranı,
rənglərin qarışıq quraması ilə.

## QARŞI YÖNDƏ

Qarşıda qış var;
şaxtası,
qımqısa günləri,
upuzun gecələri,
nəğməli quş yoxluğu,
böyük, kiçik çillələri,
baharla savaş meydanı –
boz ay da,
gah qazandığı,
gah itirdiyi günlərilə,
Buzlu, sazaqlı düzlərilə,
ağır qar yüklü budaqları,
işıqsız gündüzlərilə.

## İNDİ

Payız içindəyəm.
Otağım da,
gözlərimin görüm dünyası da
payıza bükülüdür.
Özüm də payıza bükülüyəm.
İlin son fəsli
təbiətin vidalı günləri
ağır gedir,
lal sular kimi,
nisgilli arzular kimi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ANTİMƏĞLUBİYYƏT

Yaşayıram baharın sorağı,
ılıq, işıqlı günlərin
qaçılmaz gəlişinə
ümidlə, inamla.
Yaşayıram
həkimlərin
nigarançılıq qarışıq təbəssümü,
tanışların, bilişlərin,
bir tikə də inanmadığım,
şükür, şükürləriylə.
Başım üstündə
geri yönü olmayan
qəmli, kölgəli yolun
dumanlı zolağı.
Qısalmış nəfəsimdə,
dodağımdan qulağıma çatmayan
səsimdə
qollarımın girsizliyində
duyduğum təəssüfün acığına,
adi məntiqin tərsinə
Yaşayıram.
Yaşayıram.
Hələ insanlara gərək olduğumu
duya-duya.
Pənah qəlbin sədaqətinə,
şəfa gətirən yuxuya.
Yaşayacağam
payızın sarı gözəlliyi,
qışın şaxta şiddəti,
baharın qan qaynadan ılığı,
gözlərimə
həyat həvəsi gətirən
əlvan çiçəkli fırtınasının
həvəsi ilə.
Yaşayacağam
"ola bilər",



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"bəlkələrlə" yox.
Qəlbimdə insanlara bəslədiyim
inam gerçəyilə.
Gecələrin qarasını silən
yeni-yeni səhərlərin
çıldır-çıldır
şəfəq çiçəyilə.

*1973*

**YUXULAR GÖRÜRƏM...**

Qəribə yuxular görürəm.
Beynimin ekranında canlanır
həyatda gördüklərim,
görmədiklərim;
rəngli, rəngsiz.
Arzular, ümidlər
yan-yana, əkiz,
...Cakartalı qocanın
kəsdilər sağ ayağını, -
sim ürəyə yeriməsin.
"Qocanın çox yaşı var", -
dedilər.
"Bir ayaqla bir neçə il
yaşayar", - dedilər.
Qoca rikşadır.
Yaşamaq üçün ona
iki ayaq gərəkdir.
Bir ayaqla qoca rikşa
neyləyəcəkdir?
Ayılıram,
"Kəsdilər!", - eşidirəm.
Qonşu palatada yatan
həkimdən danışırlar.
"Bir ayaqla da çalışar", -
deyirlər,
onu yoxlamağa gələn tanışlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## NAZİMLƏ GÖRÜŞ

İki aləm arasındayam,
Biri gerçək;
sevincli, hicranlı,
xatirəli, unudumlu-nisyanlı.
Biri bilinməzlik,
oyanlı.
...Nazim gəldi
Dedi: "Mərhəba, şəkərim!
Necədir həyat?"
Dedim: "Mərhəba!
Üç aydır yataqdayam, ustad!
Gözləyirəm nə zaman gələcək.
Yorğun qəlbim, dincələcək".
Dedi: "Xoşbəxtsən, şəkərim,
gedəri olsan da.
Mənim arzumdu -
konserdən, vərəmdən ölmək.
Deyə bilmədiklərimi deyim,
ölüm qərarım yazılanda.
Əfv - ümumisiz
baş-başa qalanda
ümidsizliklə ikimiz.
Ölmək istədim yavaş-yavaş,
gilə-gilə.
Olmadı belə,
Ürəyimdir, dedilər,
ölümümə səbəbkar.
Bu sözlərdə, bəlkə,
az-çox həqiqət var.
Ancaq tam deyil bu həqiqət.
Getdim, ürəyimdə
ümidimin ölüsü,
ciyəri tütün tozlu
izmirli qardaşlarım,
xış dəstəyindən
yamaqlı köynək kimi asılmış,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anadolu köylüsü.
Bir də Uludağlı yaşıl
Bursa.
On yeddi baharın rəngsizliyi,
canı bezdirən qışı
bir də minarəli
İstanbul,
bir də Boğaziçinin
ilkindilərində axan
mavi işıq,
Füzuli demiş:
"...Fələk dönmədi muradımca,
dönə-dönə mənə zülm etməyi
şüar etdi..."
Ancaq "Nazim öldü" demə!
Xatırla səməndər quşunun
sehirli lələk tükünü.
Bircə sətrimi oxu könüldən.
Görərsən sağlığında gördüyünü.
Yanında hazır olar Nazim.
Lakin nə deyim, nə yazım?!
Ağır oldu möhnətim.
Kim dözərdi mən çəkənə, kim!..
Neyləsin qəlbim.
Nə yanımda dilimin
qida torpağı,
nə qulağımda
doğma yurdun
ağ günlər sorağı".
Ayıltdı məni,
baş ucumda
xısın-xısın danışıq:
"Qanında stafelakok tapılıb".
Açdım gözlərimi,
nə Nazim vardı,
nə onun yanıqlı gileyi.
Dedim: "Yazıq Nazim, yazıq!
Ölümdə də doğrulmadı diləyin".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qayıtdım öz-özümə.
Yaman ağrıyırdı sinəm.
Yaman ağrıyırdı
sol qolum,
absesli biləyim.

## "HƏLƏ TEZDİR" DEDİLƏR

İxtiyarsız qapanır
yorğun gözlərim...
Xəstələr evi
dərin sükut içindədir.
Gəzirəm böyük binanı
mərtəbə-mərtəbə:
Nə inilti,
nə xəstə arabasının
xırıltılı təkər səsi.
Nə telefon zəngi.
Heyrətlidir bu bina -
dünyanın bugünkü mənzərəsi.
Palatalar bomboş.
Hər yan dümağ geyinib.
Hərdən-hərdən
körpə gülüşü gəlir.
Diqqətlə dinləyirəm,
Bir gənc qadın səsi yüksəlir:
"Ay Allah, bundan üç dənə ver!
Üç dənə azdır, beş dənə ver!
Həsrətini çəkmişlərə ver!"
İkinci qadın səsi
qoşalaşır onunla:
"Dağda darılar,
sünbülü sarılar,
qoca qarılar
bu balama qurban!"
Çıxıram dünya bağına,
bu nədir?
Nə maraqlı səhnədir,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cərrahlar meyvə ağaclarına
calaq vururlar.
Kardioloqlar diqqətlə dinləyir
torpağın nəbzini.
Dantistlər alaqları çıxarırlar
torpağın
köksündən.
Okulistlər, əllərində qabarıq
şüşə,
yoxlayırlar çiçəklərin tozunu.
Endokrinoloqlar
gübrə verir ağaclara bu gündən.
Onkoloqlar axtarırlar
hansı ağac gövdəsində şiş var.
Bir söz, burda hər kəsə
peşəsinə görə iş var.
Sınıq budaqları sarıyırlar
tibb bacıları.
Arıdırlar gül topalarını,
əldə gümüş qayçıları.
Çalışır hamı:
cavanlar, qocalar.
Pəncərədən görünür
ağ geyimli pediatorlar,
mamaçalar.
Yol başında mürgüləyir
gümrah bir qoca.
Xəstə gözləməkdən
saralıb gözünün kökü.
Gedib, gedib qayıdır,
gözlərinə mürgü.
Yolda görünür
aypara nişanlı maşın.
Bir ortaboylu qadın
ehtiyatla enir maşından.
İlkin - ana olacaq,
görünür davranışından.
Ayılıram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ iniltilər də var.
Xəstə arabasının xırçıltıları da,
su, toz dərmanlar da...
Tiyəsindən qan daman
xilas bıçaqları da...
Bir səs gəlir qulağıma:
"Helə tezdir, tez!
Nə dünya bir meyvə bağıdır,
nə arzuyla imkan əkiz".

## ƏVƏZSİZ HƏDİYYƏ

Bir gün qonşum Əziz gəldi,
həkim Əziz.
Ümidli, təsəllili sözlər dedi:
"Nə var ki, səndə!
Çox adam əhvalsız olur
Bakımızın məşhur küləyi
əsəndə".
Getdi.
"Yaxın gün şadlıq məclisində
görüşərik!" - dedi.
Demə, ömründən bir neçə ay,
neçə gün, neçə saat qalıbmış
Nə ağrılı, incikli keçdi
bu qış!
Qəribədir insan taleyi, qəribə.
Kim bilir nə vaxt,
hardan dəyəcək zərbə.
Düşünürəm: özünün
günləri sayılı ikən,
bəlkə də onun inamlı
sözlərindən,
bir çimdik də olsa
qüvvət aldım mən.
Belə olur insanın
insana əvəzsiz hədiyyəsi.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bir xoş baxışı,
bir ümidli sözü,
bir inamlı səsi.

**QƏRİBƏDİR DÜNYANIN İŞİ**

Bir gün Rza gəldi,
Əfqanlı Rza.
"Adaş" deyərdi mənə -
yazılarımda imzama görə.
Döşü dolu idi
fəxri nişanlarla
cürbəcür.
Danışdı teatrdan,
aktyor sənətindən,
həmpeşələrinin xidmətindən,
bir az gileyləndi:
"Qocalar gedir bir-bir" -
dedi, -
"Cavanlar hələ təcrübəsizdir
indi".
Danışdı, necə ürək sözləri
eşidib
yaxşı adamlardan.
Necə acılar görüb
nadanlardan...
Danışdı, həyəcanla,
əl-qolunu ataraq,
Dodaqlarında kövrək təbəssüm,
gözlərində maraq.
- Tez sağal! - dedi, - adaş!
Çıxaq səyahətə.
Gəncə, Göyçay, Ağdaş.
Getdi şax qamətli, dimdik.
"Görüşənə qədər", - dedi.
Görüşmədik.
Araya düşdü qara xəbər:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Əfqanlı keçindi bu səhər".
Beş dəqiqə çəkdi
xəstəliyi.
Vida deyə bilmədi
dostlara, tanışlara.
Getdi, mən xəstə yata-yata,
o, sapsağlam dura-dura.
Qəribədir dünyanın işi.

*1974*

**UNUTMAYIN**

Mən güllü bir may səhəri doğulmuşam.
Bəlkə, getdim bir yanvar axşamı.
Tabutuma ipək salmayın!
Dəfhimə toplamayın izdihamı.
Bir ovuc torpaq üstünə qoyun başımı.
Mən o torpağı sevmişəm.
Ancaq məhəbbətim
nə sərgiyə qoyulan bir tablo olub,
nə parıltısı diqqət çəkən üzük qaşı.
Mənim sevgim sevgi idi -
sadə, yaxşı...
Mən anamın südü kimi,
atamın öyüdü kimi,
sevdim bu torpağı.
Bir ovuc torpağı əsirgəməyin məndən.
Mən ancaq onu
aparacağam,
nəsil-nəsil insanlara
çeşid-çeşid nemət verən
bu vətəndən.
Mən öləndə ağlamayın!
Mən öləndə gülməyin!
Yox, nəyə gərəkdir!
Mən, sağlığımda çox gülmüşəm.
çox ağlamışam.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ancaq o həzin axşam,
məni yalqız qoyub
əbədi sükut evində,
qayıdanda geri,
açın, taybatay açın,
otağımda pəncərələri!
Çıraq yanmasın.
Səssiz çıxın otaqdan.
Elə çıxın ki, sükut oyanmasın
O səssiz, o qaranlıq otaqda
dincəlsin yalqızlıq, sükut.
Dincəlsin ruhum da
Ümidimi, arzumu,
sevincimi, dərdimi
görmüş otağım da.

Ölülər geri dönə bilsəydi,
mən bu otağa gələrdim.
Burda uzun bir dəqiqə
dincələrdim.
Cənnətdə işim yoxdur.
Getmərəm, dəvət etsələr belə!
Cəhənnəmi söndürüb,
bütün ölülər ora getsələr belə...
Mən xoşbəxt olardım,
tabutumu özüm apara bilsəm!
Adımı, xatirəmi
yazılı nitqlərdən,
sərin ahlardan qopara bilsəm...

Vətən torpağı genişdir, qəlbim kimi
Demirəm, Göyçayda basdırın məni,
Ancaq ki, riyakar gözlərdən uzaq,
aparın, bir çayda basdırın məni!
Tabutumu örtsün sərin sular.
Qəbrimi görüb kədərlənməsin
sevinclilər, arzulular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəbrimin üstündən sular çağlasın.
İnsanlar sevinsin, gülsün
işıqlı gündüzlər.
Gecələr də mənə,
yaşıl saçlarını
sulara sallayan,
salxım söyüdlər ağlasın...

*1947*

* * *

Olmasın, olmasm
Könül qaranlığı.
Ömrün qəmli günləri
Damcı-damcı süzülür
Arzuma, ümidimə.
Arxada qalan illər
İncikli yollar boyu
Uzaqlaşıb qərq olur
Xatirələr gölünün
Dumanlı sükutuna.
Hər gün yaxınlaşdırır
Axır mənzilə bizi.
Sahilini göstərir,
Artıq ömür dənizi.
O sahildə nələr var,
Varmı xəbər gətirən,
Ordan geri qayıdan?
Nə yel qanadlı quş var,
Nə təyyarə, nə tren.
Ömür bir küçədir ki,
Birtərəfli hərəkət
onun sərt qanunudur.
Günlər onu hər qarış udur...

*1981*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Səhərlərim açılır,
könlüm açılmır nədən?
Nəfəs alıb verdikcə,
ömürdür keçib gedən.

Sarı-sarı yarpaqlar
budaqlarda titrəşir.
Onları yavaş-yavaş
Yuyur yağış - mürdəşir.

*mart, 1981*

* * *

Ömrün qəmli günlərindəyəm
xəstəliyin ucundan,
qocalığın üzündən.
Həkim deyir:
- yorulub ürək. Deyirəm:
- yorulmusan, ürəyim!
Keçən günlər gözümdə
bir xəyal dünyasıdır,
göynədir göyüm-göyüm.
O günlər doğmam idi,
bu günlərim ögeyim.
Günlər var çeşid-çeşid;
inciklisi bu yanda,
fərəhlisi o yanda.
Belə olurmuş demək,
ömür-günün sonunda.

*31 mart 1981*
*Mərdəkan, xəstələr evi*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ÇİNAR ÖMRÜ**

Nə payızdı,
nə qışdı...
Bir çinar qurumuşdu.
Nə suyunu kəsdilər onun,
nə üstünə kölgə düşdü.
Ağac ayaq üstə qurumuşdu.
Nə yarpaqları saraldı,
saplağı sınmış kimi.
Nə xəzəli töküldü,
yuvasından uçan quş kimi.
Elə bil ki, gövdəsi üşümüşdü.
Çinar, beş yüz ildən bir az,
bircə yaz,
az
yaşadı.
Amma yaşadı ha!!
Yaşadı, puçurlaya-puçurlaya
bu gündən sabaha.
Çinarın ölüm günü
ilk pöhrəsindən,
ilk yarpağından başlamışdı.
Əsr-əsr yaşadı bu ölüm
çinarın budağında,
gövdəsində, kötüyündə.
Ayrılmadı çinardan
bir an da, bir gün də;
Çinar duymasa da onu,
Ölüm keçdi, pöhrə-pöhrə
yarpaq-yarpaq,
budaq-budaq yolunu.
Bir qış, duyan olmadı ki,
çinar artıq quruyub.
Yazbaşı gördülər ki,
budaqlar oyanmadı.
Yarpaqlar göyərmədi.
Çinar yatmışdı, nədi?!



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Günlər keçdi.
Nə qotaz sarı sırğaları sallandı
çinarın,
nə kölgəsi sərildi çəmənə
naxış-naxış.
Arxada qalmışdı,
qılıncı şaxtadan - qış.
Yazbaşı gördülər ki,
Çinar quruyub, ölüb.
Bir gecə qara yeldən
budaq-budaq tökülüb.
Nə boy-buxundan gileyi vardı
çinarın,
nə ucalıqdan.
Çinar beş-on insan ömrü -
dörd yüz doxsan doqquz il
yarpaqlandı,
sırğalandı,
ağır-ağır yırğalandı,
sakit-sakit öldü
qocalıqdan.
Nə meydan kölgəsi qaldı,
nə narın, xəfif yeldən
bəstələdiyi nəğmə -
titrək pıçıltıları.
Bir acı göynək qaldı
insanların qəlbində
çinardan.
Bir də həzin xatirə qaldı.
"Neçə meydan kölgəsi vardı" -
dedilər.
"Neçə ulduz-ulduz yarpaqlayardı" -
dedilər.
"Neçə qoyun-quzu
dincələrdi altında" -
dedilər.
Neçə nəğmələr gətirərdi ona
quşlar qanadında" -



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dedilər.
Çinar getdi;
könüllərdə yanğısı,
yeri qaldı.
Dodaqlarda xan çinarın
bahar nəğmələri qaldı.

Əlli olsun, yüz olsun,
neçə-neçə əsr olsun –
ömrün ilk günü,
son günü var.
Beş yüz ildən bir əskik
yaşadı çinar.

Fırtınada, qasırğada
əyilmədi.
Acizlik, qorxu nədir -
bilmədi.
Yaşadı çinar kimi;
budaqları çətir-çətir,
kölgəsi meydan-meydan.
Az da, çox da yaşasaydı,
belə yaşayacaqdı.
Kökü torpağa bağlı,
vüqarlı çinar kimi;
müdrik babalar kimi.
Getdi səssiz, haraysız,
nə yeddisi, nə qırxı oldu.
Təəssüfü, yanğısı gəzdi
dodaq-dodaq,
ağız-ağız.
Çinar getdi.
Ondan -
"Kaş bir il də yaşayaydı..." -
bir arzu qaldı.
Dibindən qaynayan
bir bulaq su qaldı.
Bir belə çinar ömrü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olsun deyirəm, ömrüm.
İllərin sayına görə yox!
Bir ömür ki,
xatirələrdə yanğısı, izi qalsın;
neçə-neçə ömürdən çox.
Bir ömür ki, kimsəyə
əziyyəti dəyməmiş olsun.
Bir ömür ki,
heç gileyə enməmiş,
heç kəsə baş əyməmiş olsun.
Bir ömür ki,
həm yoxuşu şərəfli,
həm dözümlü enişi.
Bir insan ömrü -
kişi ömrü, kişi.

*iyun, 1976; oktyabr, 1977*
*Bakı-Göyçay*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Torpaq olmuş sümüklər*

## BİOQRAFİK ETİRAFIM

Yetmişi haqlamışam,
(köhnə Quran cildində
yazılmışlar doğrusa...)
Nələri itirmişəm,
Nələri saxlamışam.
Vətənə məhəbbəti,
Sevgilimə ləkəsiz ülfəti, sədaqəti,
xalqıma, insanlığa
gərəkli bir xidməti.
Bugünlü dünyamıza
böyük, real inamı,
qəlbimdəki ümidi
hər yanda, hər gün, hər an
iftixarla saxladım.
Yetmiş yaşı haqladım.

Yetmişi haqlasam da,
mən yurdumla həmyaşam,
Azərbaycan oğluyam,
əsrimlə vətəndaşam.
Həmişə gələcəkli,
həmişə bugünlüyəm.
Fikir fikrə,
söz sözə,
iş işə bugünlüyəm.

İtirdiyim az deyil.
Arzumla, istəyimlə
bir səs, bir avaz deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dolu olmayan günlər,
imkan da itirmişəm.
Calaşıq axşam-səhər,
Zaman da itirmişəm.
Tək-tək dosta, tanışa
sidq-etibarım itib,
elə bil şaxta əsib;
bir ilk baharım itib.
Neçə səhvim - qüsurum,
neçə yanlışını olub.
Neçə baharım olub,
şaxtalı qışım olub.

Nə əlimdə olanı
ovcumda sıxmışam,
nə zər, daş-qaş yığmışam.
Bir mizanda görmüşəm
həyatda çoxu, azı.
Gəlirim bu olub ki,
neçə insan əlini
gözlərinə dik baxıb
hərarətla sıxmışam.
Bir sadiq ömür dostum,
şeir dilli yarım var.
Bir də doğru sözümü
şax deməyə cürətim,
haqqım, ixtiyarım var.

Mənim arxam, dayağım,
vətəndaş övladlarım
könül iftixarımdır.
Gələcəkli barımdır.
Nə köhnə bazirganam
var-dövlətli, yatırlı.
Nə ağır yüklü
qatar-qatar dəvələrim var.
Neçə qurd dilli, göyçək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxşı nəvələrim var.
Mənim gözümlə baxan
sözlərimə inanar.

Qardaşım yoxdur, neçə
qardaş kimilərim var.
Bəlkə belə yaxşıdır.
Məndən kiçik olsaydı,
əlimdən dad çəkərdi.
Məndən böyük olsaydı,
başımda turp əkərdi.
Bu köhnə bir məsəldir,
hansı mənhus ellərdə,
hansı ağır illərdə
yaranmışdır, kim bilir.
Bugünkü ünsiyyəti
onlar görəydi gərək,
görüb heyrətlənərək.
Üç mehriban bacının
məhəbbəti sinəmdə,
hər gün danışa bilsəm,
görsəm də, görməsəm də...
Atam vəfat edəndə
mənim beş yaşım vardı.
Beş-üç gün "ata-ata" –
deyib, yanıb göynədim.
Anamın məhəbbəti
məni aldı qoynuna.
Sanki dərdim qurtardı.
Sonra da dayım oldu
sevib saxlayan bizi,
yekə ailəmizi.
Onun tərbiyəsində
yaşa doldum, boy atdım.
Onun adından qaldı
Rəsul Rza - soyadım.

Dostlarım artıb, amma
nə qədəri azalıb.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Köhnə dostlar az qalıb.
Ana məhəbbətini,
ata məhəbbətini
sinəmdə saxlamışam
nadir yadigar kimi,
dəyişməz qərar kimi.
Neçə məktəb dəyişdim,
təngə gəldim, yoruldum.
Böyük, kiçik rütbədə,
vəzifələrdə oldum.
41 oldu könüllü
uzaq cəbhəyə getdim.
Cəbhədə gördüklərim
çox tez dəyişdi məni.
Yeni, sonsuz qüvvətlə
sevdim ana Vətəni.
Düşmənlərin amansız
qorxunc üzünü gördüm.
Öz qanına boyanmış
neçə yüzünü gördüm.
Qəlbi intiqam dolu
könüllü əsgər oldum.
Ana yurdun yolunda
qələbə, zəfər oldum.
Ürəyimdə Vətənin
aydın, xoş günlərinə
sarsılmayan bir inam.
Bir də gözləri yaşlı
həsrətli qoca anam.

Zülüm-zülüm yollarla
hər qarışı qadalı,
hər qarışı ölüm, qan.
Qafqazın dağlarından
Getdim ta Krımacan.
Bir mən deyildim gedən.
Neçə xalqın oğlunu,
Neçə xalqın qızını
çağırdı böyük Vətən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə düşündüm, nə duydum,
yazdığım uzun, gödək
bu sətirlərimdədir.
Yazdım ya çox, ya da az.
Olmuşları, olanı,
saysam min gün qurtarmaz.
Əgər yetmişdən o yan
yenə yaşayar olsam
çox şeyi eləməzdim,
çox şeyi eləyərdim.
Ya az olsun, ya da çox
möhnətim, arzum, dərdim.
Yaşayıram, deməli,
Könüldən fəxr edərdim.
İllər bir-bir sovuşdu,
gəlib çatdım yetmişə
hələ də rast gəlmədim
bir kəs ki, arzusuna
doyumunca yetişə.
Mən də onlardan biri.
Ümidinə haraylı,
arzusunun əsiri.
Nə olacaqdır indi
bu yetmişimdən sonra.
Ya mən arzumu yoram,
ya arzum məni yora.

*14-18 mart 1980*

**TORPAQ OLMUŞ SÜMÜKLƏR**

*(Ömür pillələri)*

Gözümdə qarışıqdır
ilk günlərin biçimi,
axır günlərim kimi.
Deyirlər beş göy bahar,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

beş sarıyaylıq xəzan
bəsləmiş,
böyütmüş,
qoynunda məni.

Bir gün yadımdadır:
(Ətrafı cunayıdan görən kimi,
Hərdən gözümdə canlanır).
Atam evə dönmədi.
Anamın nəm gözləri
dodaqlarımı bükdü.
O gündən şən qəlbimə
yetimlik rəngi çökdü.
Dedilər: - Gələcək.
İnandım,
Gözlədim, gəlmədi.
Təsəllilərlə aldandım.
Bəzən,
röyalarda sarılardım boynuna.
Baxardım göy gözünə.
Deyərdim: - Atacan,
Gəldinmi yenə?
O məni oxşayardı.
Saçlarımda gəzdikcə barmaqları,
sevincimdən gülərdim.
O məni oxşayardı.
Heyhat,
ayrılınca, yenə də
o acı yoxluq vardı.
Boğazımda düyümlənərdi bir daş.
Səbəbini bilmədən
ağlayardım gecələr.

Yüyürdü, keçdi günlər;
unutdum yavaş-yavaş,
çocuq könlümdə çox
bəsləmədim kədəri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxşılar, pislər deyə
iki yerə ayırdım
oyuncaq gətirənləri,
əliboş gələnləri.
On qarlıqdan keçən ömrün
bir bənövşəliyində
ala çocuq gözlərimlə gördüm
qanayan köksünü üfuqlərin.
Qəlbim sıx-sıx döyündü
yeni həyat nəğmələri gətirən
qoxusundan səhərin.
Aylar ötdü.
İllərə çatdıq.
İlləri bir-birinə çatdıq.
İllər uzandı.
Həyat yollarında qəlb
hər gün bir şey qazandı.
Acı, şirin.
Bəzən dadlı, gözəl.
Bəzən qan, irin.
İstidə tərlədim,
soyuqda üşüdüm.
Yürüdüm, düşdüm.
Qalxdım, yenə düşdüm.
Bəzən çiçək dərən əllərimi
qanatdı tikanlar.
Bəzən sevinc verdi mənə
bir qüvvət dolu şərqi,
göy, gümüşü bir səhər!
Biri sıxdı əlimi,
"Dostum" deyə.
Biri vurdu ağzıma,
"Yum" deyə.
Çox sındırdım başımı,
bu qəribə işlərin
mənasını anlayım, duyum deyə.
Yol uzun,
Ömür qısa.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ölüm arxadan gəlir
həyatı pusa-pusa.
Gözlərimin sevinc yaşı,
boğazımı tıxayan bir hıçqırıq
hamısı yadımdadır...
Hey...
Nələr çəkmədi Rzanın başı!..
Atdığım hər addımda
sümüklər çıxdı qarşıma.
Sümüklər bəndləndi,
Sümüklər kəməndləndi.
Sümüklər buraxmadı irəli.
Uzun illər
dadlı bir röya kimi,
mən gözlədim
ömrümün baharını.
Bir gün gördüm
ağ şərid yollar boyu
dəstələri uzanan
yolçuların içi rüzgarlı
bayraqlarını.
Könlüm sabaha bağlı.
Ürək dinləmir ağlı.
Ağlım: "Öz gücünə inan", - deyir.
Qəlbim: "İgidsən,
ömrün atəşinə yan,
eşqin imtahanına
dayan", - deyir.
Eşqim nə Fərhad eşqidir,
nə Kərəm.
Hey...
eşqim, eşqim!
Canlanıb qarşımda
durarsa bir gün,
boğazına qaynar qurşun tökərəm!
Eşqim bir qıza olsaydı,
könlüm
bir gözəlin həsrətiylə yorulsaydı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəlkə mümkün olardı
bu eşqi, bir ləkə kimi,
benzinlə təmizləmək.
Dəniz gözlərindəki dalğadır,
eşqimin xəbərçisi.
Mənim eşqim bir çoban,
könlüm onun keçisi.
Gördünmü, "eşqim-eşqim" deyə,
çıxdım çərçivədən eşiyə.
Lakin yazanlar bilir;
misralar hücum çəkəndə başa,
çətindir düşməmək savaşa.
Mən çocuqluqdan vuruldum
şirin dilinə şerin.
Şeir zəhərdən şirin.
Şeir öpüşdən şirin.
Şeir ölümdən şirin.
Və ilk görüşdən şirin!..
İlk şerimi tapanda,
göz yaşımdan islanmış
yastığımın altından,
dandım mənimliyini;
necə danarsa bir gənc
birinci sevdiyini.
Əvvəl gündən sevmədim cəbri
və belə cəbrli şeyləri xoşlamadım.
Lakin,
sevişdiyimiz ilk gündən
şeri boşlamadım.
Qoşuldum yolçulara.
Qabağa qoşmaq,
yoxuşlar aşmaq,
o dəmir sıralarda yürümək istədim.
Dedim: - Sabah
biri olardım onların.
Heyhat!
Yenə gəldi sümüklər.
Sümüklər bəndləndi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sümüklər kəməndləndi.
Sümüklər
qoymadı irəli.
Sonra nələr oldu, nələr!..
Buz dağları kimi sıxdı məni
həyat adlı, ömür adlı məngənələr.
Bir gün düşdüm həvəsə.
Əllərim əsə-əsə,
ərzə yazdım komsomola.
Yığışıb dinlədilər,
soruşdular birər-birər
ulu babamdan
bu günə qədər.
Yenə gəldi sümüklər.
Sümüklər bəndləndi.
Sümüklər kəməndləndi
sümüklər qoymadı irəli.
Sümüklər sıxdı məni sıxdıqca.
Ay keçdi, il dolandı,
neçə göllər duruldu,
neçə sular bulandı.
Bir gün oldu,
əl tutuşduq, ayrıldıq
orta boylu,
məktəb adlı dostumdan.
Yola çıxdım,
açmaq üçün
baş məktəbin
əzəmətli qapısını.
Alnımı incilərlə bəzədi
yolçuluğunda bu yolun,
üzvüydümsə də komsomolun.
Ayaqlarım yorulur,
yolçularda nə qüsur?
Ölüb-doğmaq istəyənin
taleyi budur.
Gəldi sümüklər.
Sümüklər bəndləndi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sümüklər kəməndləndi.
Sümüklər kəsdi qabağımı.
Sümüklər bir zindan kimi
belimdə ağırlandı...
Zənn etməyin bu ağırlıqla
yol yerimək asandı.
Aylar keçdi, il dolandı.
Neçə göllər duruldu.
Neçə çaylar bulandı...
Artıq
əlimdə Leninin qızıl kitabı,
baş məktəbin pəncərələrində
beynimi almışam səfərbərliyə!
Mən dayaz bir üzgüçü,
mənalar dərində.
Gecəyarı olur,
varaq yarılanmadan.
Oxuyuram, oxuyuram,
çoxunu qanmadan.
Kirpiklərim,
küləklənən yarpaq kimi titrəyir;
cəbr qədər çətin
sözləri qarşısında Marksın.
Bəzən kəlmələr gözümdə canlanır,
anladırlar mənə həqiqəti.
Sanki o qara xətlər
beynimdə aydınlaşır
dumandan çıxan Ay kimi...
O zaman, sanıram
mən də Marksam, -
özünü şahin bilən
torağay kimi...
Gecələr uzun,
gecələr qısa.
Uzunluq gecələrə məxsus.
Lakin nə uzunluq var gecələrdə
mən yazırkən,
onlar gedir, dayanmırsa?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aylar ötdü, il dolandı.
Neçə çaylar duruldu.
Neçə göllər bulandı.
Atıldım qucağına həyatın.
Çevirdim varaqlarını
ömür deyilən
müqəddəratın.
Her qapını açdımsa,
hər yana baxdımsa,
hər çiçəyi,
hər gülü sinəmə taxdımsa,
niyyətim xoş,
arzularım şəfəqli idi.
Əllərimin zəhməti,
beynimin gücü,
qəlbimin qüvvəti,
elimə, yurduma gərəkli idi.
Mən gördüyümdən
yeddi qat artıq,
iş görərdim;
qəlbimdə gəzdirdiyimdən
yeddi qat az olardı
qayğım, möhnətim, dərdim, -
neçə yolun başında,
neçə günün,
neçə ayın,
neçe ilin savaşında
sümüklər bəndlənməsəydi
sümüklər kəməndlənməsəydi,
sümüklər çıxmasaydı qarşıma,
amansız bir qərar kimi.
Sümüklər bağlamasaydı yollarımı;
kərpicləri ağır
çuqun divar kimi!..
Dönə-dönə varaqladılar
yaşımdan yaşlı
günlərin, illərin
sarı yarpaq kitabını...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəsdir, yetər!..
Nədən, neçin verməliyəm,
torpaq olmuş
sümüklərin
hesabını

*1934*

**ÖMÜRDƏN SƏHİFƏLƏR**

Yol kimi, məsafə kimi,
Xatirələrin də
yaxını var, uzağı var.
Boş keçən,
xoş keçən
ağır, çətin günləri var.
Ömrün dəqiqələrini, saatlarını qoparan,
kəlbətin günləri var.
Xatirələrin yaxını ağrıdan olur,
göynədən olur.
Uzaqları daha mülayim, sakit.
Düşünürsən insan insandır;
biri nədən doğma,
    mehriban,
        qayğı çəkən;

biri sərt,
    qılıqsız,
        ögey.
Nədən olur?
Xatirələr də insan kimidir:
əzizi var,
ikrah doğuram var.
Bəzən qanadlı quş olub,
xəyalımızdan keçir xatirələr.
Biri qaranlıq gecə.
Biri axşam toranlığı.
Biri işıqlı səhər.
Xatirələr... xatirələr.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qonşumuzun oğlu arxalıq geymişdi
qırmızı qanovuzdan;
        Novruz günü.
Anam,
        döşək kəfrəmindən tikdiyi,
        qoz gozəli ilə boyadığı köynəyi
        axarlayıb çıxartdı hovuzdan;
                                        düz günü.

Dedi:
- Lap yaşıl atlaza oxşayır!
Sonra balağıyla sildi gözlərini.
- Zəhrimar tüstü nə acıdır, - dedi.
Baxdım, ocaq sönmüşdü,
                                soyumuşdu külü.
Qulaqlarımda ağladı bir səs!
Yaşıl atlaz!
Baxdım anamın gözlərinə.
Hanı tüstü?
Gözlər-
iki otaq dolusu yas.
Geydim bez köynəyimi,
Belimə bağladım qotazlı ciyəni.
Atıldım küçəyə
Lənətə gəlsin
ömrün xırda-xuruş acısından
inciyəni
Qoşuldum uşaqlara.
getdim pəlağac oynamağa;
sevincli, bir az kədərli.
Qulağımda anamın sözləri.
Gözlərimdə anamın gözləri.
Atlaz! Tüstü!
Lepə-ləpə çiçəkdi göyün üstü.
Günəş də,
həmişə üzümə gülən Günəş,
elə bil,
məndən küsdü.
Boynuyoluq toyuğun yumurtaları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yığılmışdı
bir qələmkar kasa dolu.
Sarı, yaşıl, qırmızı.
İl var bolluq olur.
İl var kasad olur.
Bu il bolluq idi.
Qar bol!
Çovğun bol!
Şaxta vurdu bağ-bağatı.
Ağac qurudu bol-bol.
Qışda ölənlərin sayı
hər ilkindən artıq oldu.
Saclar soyuq,
un çuvalı yırtıq oldu.
Sudan çıxmış qaz balaları kimi
düzüldü yan-yana
rəngli yumurtalar.
Döyüşdük, döyüşdük.
Dişlərimdə sınadım
çil toyuğun falını da.
Gözlərimi döyə-döyə dinlədim
qonşumuz Nisbət xalanın
qarğışını da,
məhəllə uşaqlarının qiylü-qalını da.
Çərşənbələr.
Yalançıdan başladı.
Axırıncı düşdü bayram axşamına.
Bir cüt corabın pulu getdi
yeddi Novruz şamına.
Pilənbəri də qaladıq məhəllədə.
Üstündən atıldıq da.
"başım-dişim ağrısı...
nə bilim kimə" deyə.
Cıdırda tərlədi
qara kəhərin sinəsi,
boz ürgənin sağrısı.
Nə at bizimdi,
nə cıdır yeri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ancaq geri qalmadıq.
Həvəsdən, arzudan qanadımız.
Kişnəyib yer eşməsə də
qarğı atımız.
Yarı xəyal,
        yarı ümid,
                    yarı arzuyla
möhnətin, kədərin, iztirabın
                                ağrısıyla
dolu keçdi həyatımız:
Bəzəkli xonça.
Ucuna gah bayram yemişi,
gah da köz bükülmüş məhrəba.
Rəngli şamlar, yumurtalar.
Xısın-xısın ağlayan yoxsul uşaqları...
Qonşumuzun oğlu -
        köynəyi qanovuz,
                    şalvarı diaqonal.
Anamın gözləri,
            göy damarlı əlləri.
Səksəkəli xəyal!
Xatirəmdə belə qalıb Novruz.
Novruzlar hanı?
Günlərin, illərin arxasında,
bir duman ardında qaldı ümidlər
və ömrün yoxuşları.
Uzun bir yol:
kənddən şəhərə;
bir də qayıtmayacaq günlərdən,
hələ gəlməmiş günlərə.
Bu yolda
ildə iki məktəb dəyişən
bir nadinc uşaq.
Qiymət cədvəli orta rəqəmsiz;
Tarix - beş.
Hüsnxət - bir.
Ədəbiyyat - beş.
Həndəsə, cəbr - bir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Coğrafiya - beş.
Hər günü macəralı, tasalı.
Gözləri buludsuz göylər misalı.
Sevdiyi bir qələm,
bir də tüfəng.
Yerişi ləng.
Saçları sərt.
Baxışları yumşaq.
Orta boylu bir uşaq.
Nə ata məhəbbəti gördü doyunca,
nə "bəs" deyincə oyuncaq.
Ömrü bir növ dolaşıq nağıl.
Günləri: İsaq-Musaq.
Babamın adı-sanı
bir anket dolusu.
Çoxu - yox.
Azı - hə.
İnqilabi fəaliyyət - yox!
Fəhləlik - yox!
Varlı - vaxtına görə hə.
Simsarlı, havadarlı - hə!
Xaricdə qohumum - həm hə, həm yox.
Qırx il görmədik, yazışmadıq.
Hardan qohum olduq.
Oktyabrda iştirak etməyib.
Nikolaya soldat getməyib.
Diqqətlə yoxlayan olsaydı
bu "hə"ləri, "yox"ları
Xan Məmməddən
        Culfa Rzaya qədər,
acları, toxları;
yəqin dərkənar qoyardı anketimə:
Qoy oxusun! Qoy işləsin!
Mane olmayın yetimə!
Ancaq işləmək üçün
Həmkarlar üzvü olmaq gərəkdi.
Üzv olmaq üçün işləmək.
İndi, qoçaqsan gəl,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əsrin bu düyününü aç görək.
Xan nəvəsi ola-ola
ərizə verəsən komsomola?
Bir soruşan gərəkdi
bu xan kim idi?
Hansı mahala,
hansı ölkəyə hakim idi.
Tez-tez deyərdi nənəm:
"Yeddi keçi bir dıbır,
gəlir dıbırhadıbır.
Əlvənd, Qüləbənd
Məşədşıxalı bir təkbənd..."
Bir şoşka -
tiyəsı qırıq.
Bir xırman - qara palçıq.
Tövcünü çıx!
Zəkatı çıx!
Yetim malını çıx!
Tüstü pulu, yol pulunu çıx.
Bir kirəmitli dam.
Bir boranı dolusu barıt.
Bir kisə qırma.
Bir buxara papaq.
Bir gümüş xəncər.
Bir cəzair tüfəng.
Vəssalam.

Paris...
Notr-Dam yanında
qarabənizli, qaragözlü silgiçi.
Kimə oxşayır Allah...
Kimə?
Hey araşdırıram xatirələrimi.
Qara bığları vardı...
Qara, qalın qaşları..
Bir qızın taleyi
hardan düşdü yadıma!



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Hardan?!
Elə bil, tanış bir sərnişin
düşdü qatardan.
Xatırladım Eyfeldəki kafeni.
Qolunda ağ dəsmal,
üzündə ağ təbəssüm,
gözündə ağ "buyurun!" ifadəsi;
çənəsindən ikiqat buxaq sallanan,
qarsonu.
Kimə oxşayırdı, Allah...
Kimə?
Xatırlaya bilmirəm.
Kiminsə surəti dayanıb xəyalımda;
dil ucunda dayanan söz kimi.
Bir xatirə dalğası gəlib
beynimdən qoparır onu.
Yadıma düşdü balaca bir quşun sərgüzəşti.
Hardan?
Niyə?

Bir insan heykəli.
Heykəlin ətrafında daşdan
heyvan fiqurları.
Daş gözlərini zilləyib gözlərimə,
Lui Paster.
Uzaq... Uzaq bir kənd.
Üzü çopur-çopur bir qoca,
qucağında tombul bir uşaq.
Uşağın qolunda
çopurdan üç ulduz
Neçə kor, neçə lal
gəlib keçir xəyalımdan.
Bəlirir, yox olur;
görkəmi qorxulu.
Neçə-neçə
bədəni sudur-sudur
xəstə.
Üzümü tuturam



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lui-Pasterə
deyirəm:
- Möhtərəm insan!
Niyə neçə yüz il
əvvəl doğulmadın?
Minlərlə kora göz,
lala dil,
kara qulaq olmadın?

Senadan keçirəm.
Körpü dəmir barmaqları ilə
qucaqlayıb Senanı
Bəlkə Robespyer də
burdan keçib,
Napoleon da.
Viyon da, Qalua da.
Payızın sərini
pişik kimi sürtür özünü,
üzümə də, qoluma da.
Bir fransız qızı
söykənib məhəccər, dayanıb.
Gözlərində səadətsiz gəncliyinin ağrısı.
Baxışlarıyla qucaqlayıb,
mavi bir məzar daşı kimi
sakit Senanı.
Kimə oxşayır, Allah...
Kimə?
Xatirələri alıb tərkimə,
baxıram: körpü, qız, Sena!
Xumara bənzəyir...
Yadıma düşür
eşq atəşində yanan Sənan!
Xatırlayıram:
"Qırxdan bir əskik" müəllifini.
Hardan?
Niyə?
Keçirəm zəfər tağının altından.
Əbədi atəş yanır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəyə oxşayır, Allah...
Nəyə?
Alovlar titrəyir:
döyüşdən çıxmış,
alay bayrağı kimi,
xatirələr alır qanadına fikrimi.
Yadıma düşdü bir bağ, dörd heykəl.
Alov dillərinin bir-birinə bənzəri var.
Ancaq bu hara!
O hara!

...Per-Laşez!
Kommunarlar divarı.
Hormətlə açıram başımı.
Salamlayıram 26-ların
neçə böyük qardaşını.
Bəs o kimdir at üstündə,
özündən razı?[1]
Kimə oxşayır, Allah,
kimə.
Elə bil ki, qaba əl toxunur
incə simə.
Gözlərimdə canlanır
Naxçıvanın Arazı.
Söndürülmüş ocaqlar.
Əbədi susdurulmuş uşaqlar.
Qanlı üzlər keçir gözlərimdən
min-min, azı.
Bağırmaq istəyirəm:
- Hardan gəldi bura
bu dələduz!
Daşa dönmüş daş ürəkli quduz!

Əlillər evi!
Qrand-opera!
Mon-Martr!
Xatirələr ürüyür, artır...

---

[1] Andranik nəzərdə tutulur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Kəlküttədə yüz minlərlə insan
quru səkidə yatır.
Konqodan Belçikaya daşınır
kürül-kürül yatır.
Vyetnamda körpələri yuxusundan
mərmi səsi oyadır.
Koloniya, kolonializm...
Kim alır, kim satır?
Asturiyanın yolları
hər gün qana batır.
Yavada su bol,
isti bol;
məhsul nə doydurur,
nə bəhərdən-bəhərə çatır.
Köhnə müştərimiz
südə su qatır.
Diksinib qaçıram
qafiyələrin dolaşıq kələfindən.
Nəfəsimi dərirəm birtəhər.
Görüşənə qədər!
Xatirələr!
Xatirələr!

*1962-1965*

## KRIM XATİRƏLƏRİ

Novorossiyskidən çıxdıq,
üzü Qara dənizə,
Qırx ikinin birinə açılan
gecə.
Köhnə "Quban" gəmisində.
Səfərlilər həmvətənlilərim.
Yolumuz gerisiz.
Vətən adından səfərbərdik
biz.
Dəniz atdı-tutdu bizi.
Çəkdi bərkə-boşa.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düşündüm:
Nahaq vurnuxma,
belə hiddətlə, qəzəblə
coşma, Qara!
Məni sınama!
Xırda ləpələrdə belə
halay-valay vuranam,
məni qınama!
Dəniz öz bildiyindədir,
gah endirir
dalğaların kötüyünə,
gah qaldırır yoxuşa;
çəkir bizi bərkə-boşa.
Gah yumruqlayır
dəmir gəmimizin
böyrünü-başını,
gah bütün gücü ilə
gəminin gövdəsinə döyür.
Nə gizlədim;
Fikrimə qara-qura gəlir.
Bir parça kağıza yazdım:
"Qara dəniz. Qırx ikiyə açılan gecə.
Rəsul Rza, həmvətənlərilə".
Bərk bağladım
şüşənin ağzını,
"ya bəxt" deyib,
atdım dənizə.
Bu günlülər,
Hərəkətim tühaf gəlməsin sizə.
Bəlkə, bir gün
bu qəribə məktubu
dalğalar atdı sahilə.
İndi bu qəzəb kişnəyən,
qarabəniz,
çalxalanan, qar-qar qaynayan
Qara dəniz:
"Qan, qan! - deyir,
hünərin var



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çıx biranlıq
göyərtədə dayan", - deyir.
Səhərüzü yan aldıq
Qamışburun körpüsünə.
Çıxdıq sahilə
hələ hər şeydən xəbərsiz -
danışa-danışa,
gülə-gülə.
İlk gördüyümüz
körpüdə təpə-təpə
mərmilər, minalar oldu.
Çox çəkmədi
buluddan çıxdı
neçə "Messerşmidt",
hədəfləri "Quban" gəmimiz.
Yaxında, uzaqda
şığıdı havaya
su fəvvarələri.
Gah dartındı,
gah boşaldı,
gəminin ağır lövbəri.
Körpüdə aman-amanda
mərmilərin,
minaların topa-topa köbəri.
Bir çırtdaq düşsə,
sovrulacaq göyə
körpü də, liman da,
biz də.
Qar-qar qaynayacaq
dəniz də.
Düşmədi... düşmədi...
Vahimədən çox
nigaranlıq, təəssüf:
hələ bant qoxlamamış,
hələ "ya bəxt" deməmiş,
hardan çıxdı
bu Qamışburun,
bu qəmiş.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dərindən nəfəs aldıq
göydə görünəndə
neçə şahin havadarımız.
Mərmi köbələri
gözümdə canlandıqca
indi də
ətim olur biz-biz.
Kim desə qorxmadım
bu ölüm üzlü mənzərədən -
yalandır, yalan.
Tıp-tıp döyünəndə ürək,
qorxunu içində boğmağı
bacarasan gərək.

1.ODLA SU ARASINDA

Kerç qədim şəhərdir,
çox qədim.
Neçə min, neçə yüz il
yaşında.
Kerçi sizə
necə təsvir edim:
Alçaq boylu evləri var
Mitridatın ətəyində,
başında.
Evləri var düzəndə.
Görməli mənzərəsi olur
limanında,
ala-bəzək bayraqlı
gəmilər üzəndə.
İndi...
Dənizin ləpələri
sahili sığallayır
yavaş-yavaş.
Mitridat dağından
Günəş enir ağır-ağır,
yaralı Krımın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mərmilərdən,
bombalardan
çopur-çopur olmuş sinəsinə.
Buludlar dağılıb
pərən-pərən.
Təyyarələr ölüm daşıyır,
buludların kölgəsinə
sinə-sinə.
Birdən qaynayır dəniz,
ləpolər vurnuxur -
ağ qanadlı yaralı göyərçin kimi.
Bombalar şığıyır
gəmilərin yuvasına.
Torpaq sovrulur göyə,
qoşulub su fəvvarəsinə.
Bir hovur ara verib
dəmir leysanı,
başlayır yenə.
Bir alov şüləyi,
qara tüstü burumu
sallanır göydən.
Enir, enir təyyarə.
Biri, biri, biri də.
Zenitlərimiz
qamarlayır neçəsini,
şığıyır qisas - hayıf güllələri.
Mitridatın ətəyində
bir körpənin
qanlı cəsədi -
sükut içində.
Bu sükut nə,
o haray, o səslər nədi?
Kerçin adi bir günü.
Mən gözlərimlə görmüşəm
Sazaqlı qış günündə
neçə belə
qanlı bürkünü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2. HACI MUŞQAY

Bu ad
zehnimə qazılıb,
amansız günlərin
yaralarıyla.
Kerçin otsuz, çiçəksiz,
küləkli, çiskinli baharıyla.

Qədim daş karxanası.
Acı çəkilim günlərinin
Göynəkli aynası.
O yerlərin
cadar-cadar torpağında
izim qalıb.
Ən ağır günlərdə belə
nigaran könlümüzə
yol tapmadı qara şübhə:
"Onlarmı qalib gələcək, bizmi qalib?"
Qədim daş mağaranın
gündüzü də, gecəsi də
qaranlıq – zülmət.
Dolanbac yollarını
hansı uzaq əsrlərin
qulları qazıb?
Bu dolaşıqdan
azı çıxıb işıqlı dünyaya,
çoxları azıb.
Burda pusqudadır
ayları günlərə qoşan
partizan dəstəsi -
düşmən vahiməsi.
Bir gün son qoymaqçün
bu vahiməyə
faşist cəza dəstəsi gəldi
Hacı Muşqay kahasına.
Es-es zabiti gəldi
başının dəstəsilə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Daş kahanın ağzında
mazut gölməçələr düzəltdilər.
Zabit gümüş alışqanıyla
yandırdı kağızları,
atdı gölməçələrə.
Qara tüstü
qalxdı burula-burula.
Es-es zabiti əmr etdi saxta qürurla.
Fırlandı dəmir pərvanələr
küləkləyib qara tüstünü.
Qara cinayət kimi
tüstü buruldu,
aldı daş kahanın
hər yanını,
içini, üstünü.
Ver qut!
Ver qut!
bağırışdı faşistlər.
Gözlədilər beş dəqiqə,
on dəqiqə, bir saat.
Nə mağaradan çıxan oldu,
nə bir səs-səmir.
Birdən avtomatlar səsləndi:
tra-ta-ta.
Zabit sərildi yerə
qarnını tuta-tuta.
Potalaşmış kötükdü
elə bil.
Mağaranın ehtiyat yolundan
çıxmış partizanlar,
sildilər ləkəsini
Hacı Muşqay torpağının.
Bir anda yox oldu qisasçılar
od qamçılı ildırımlar kimi.
Belə bitdi bu döyüş günü
"kim kimi".
Səhərin gözü açılmamış



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Uğultular sındırdı buludsuz göyü.
Bir gurultu silkələdi daxmamızı -
partlayış dalğası sordu, çıxartdı
qapımızı, pəncərəmizi.
İlya Selvinskinin
"Tərpənmə, tərpənmə" bağırtısı
nicatımız oldu.
İkinci bomba da partladı
bir an sonra.
Çıxdıq daxmadan.
Həyət dolu idi
qazların, qoyun-quzuların
qanlı cəsədlərilə.
Qan səpələnmişdi dörd həndəvərə
laxta-laxta, gilə-gilə.
Burda nə hərbi obyekt vardı,
nə anbar, nə qoşun bölməsi.
Bir hərbi qələbə kimi
yazılacaqdı es-es pilotların
"qəhrəmanlıq" dəftərinə
neçə qoyun-quzunun,
neçə qaz balasının
ölməsi.
Dodaqları kövrək gileyli
bir qız.
Adı Məryəm idi.
Şəvə saçı yeddi hörük,
qara gözləri dopdolu qəm idi.
Sanki hələ o zaman
Krımın buludsuz
mavi göyləri altında
anlaşılmaz bir duyğu ilə
duymuşdu Krımın
fəlakətini.
Düşünürəm: hanı Məryəm?
Hanı o kədər baxışlı qız?
İndi Krım yetim qalıb
onsuz...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

3. TAYQUÇ

Beş-on evdi Tayquç
Kerç yarımadasında.
Beş-on daxma
seyrək-dəngil.
Neçəsi sınıq-söykək,
neçəsi palçıq-saman,
neçəsi aman-amanda,
neçəsi əlil.
Belə kənddir Tayquç,
Acı küləkli,
qəhət sulu,
otsuz-çiçəksiz
yay-qış.
Gündüzləri göyərçinsiz,
boz sərçəsiz, ala qargasız,
tək-tək ağacları
seyrək yarpaqlı,
cılız.
Gecələri vahiməli,
sazağı iniltili,
boranı cilovsuz, dəli.
Belədir Tayquç. .
Bu Krım xərabəsini də
xaraba qoyub
faşist bayquş.
Kerç yarımadasında
lehməli bir göl kənarında
səpələnib bir ovuc düzənə
daxmaları Tayquçun.
Oxucum!
Gördüyümü yazıram sənə.
Daxmaların birində
cəbhə qəzeti redaksiyası -
dörd dildə.
Lövhəsi köhnə taxta parçasında:
"Döyüşən Krım".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Daxmalardan birində
İlya Selvinski,
Cəfər, mən.
Birində Abbas Zaman,
Qara oğlu Əli,
İmanqulu Nəsir.
Adamlar yenə var.
Makinaçı kişilər,
mürəttiblər.
Redaktor Berezin
paqonları zərli,
çəkməsi rezin.
Gürcü Vova Maçavariani,
Revaz.
Erməni Gevorq.

Bu yerin qışı
sazaqla nəfəs alır,
çovğunla ah çəkir,
deyingən qarı kimi
sızıldayır boranla.
Faraş yazı da
dumanlı qışdır buranın.
Çiskini, küləyi
xəncərsiz-bıçaqsız kəsir.
Adam var soyuqdan,
adam var daxildən əsir.
Bu kiçik Vətən parçası
Burda yaşayır, çalışır;
ümidlə, inamla.
Yaşayır böyük Vətən adlı,
xatirələri həzin, dadlı,
məhəbbət, mehriban qanadlı,
çağırışı inamlı, inadlı,
ürəkləri yuvalanmış doğma izdihamla.
Xəyal uçur, uçduqca
incikli xatirələr yoluyla.
Xəyalımda
gözü yaşlı, sinəsi ahlı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dili gileyli anamı görürəm –
Analar anası!
Bir də hər dərdimə,
qayğıma şərik,
sadıq ömür sınağımı,
həyanımı, Nigarımı.
Şairə anasının qucağuıda
üç yaşlı oğlum Anar,
gözləri yol çəkimli.
Göyöskürəkdən
dodaqları qançır.
Kimə yaxınlaşsa,
ondan uzaq qaçır.

Bakı!
Çıraqları qara örtüklü,
əsgər ürəkli,
zavodları, meydanları
silah yüklü.
Üfüq - qaşları çatılmış,
Bakı - gəncliyimin beşiyi.
Sahil bağı.
Göylərə dikilmiş
zenit topların sıx kölgəsi,
Döyüşə hazır
Ana yurdum -
Azərbaycan ölkəsi.

Gözlərimdən keçir
tanışlar, qeyri-tanışlar;
iş başında;
bronlu, bronsuz.
Tək-təklər sığınıb
iqtidarlı tanışına, qohumuna.
Öz-özünü təsəlliləyir:
"Əşi, hər şey keçər mənsiz!"

Bunlar ömür gündəliyidir.
Xatirələr canlanır bir-bir,
İlk günlərdə döyüşə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nabələd, naşı olduq.
Vaxt gəldi
ruslar, gürcülər, yəhudilər,
ermənilər, daha neçə
vətən oğullarıyla səngərdaş olduq.
Həmsilah olduq.
Gün oldu ki,
səngərbaşı da olduq.
Bəzən gəvəzə ağızlarda:
"yeldaşı" da olduq.
Nə hamıdan qoçaq idik,
nə daldaya sinən.
Oğullar oldu ki,
düşmən tankına hücum çəkdi
qatar qumbaralı sinəsiynən.
Tayquçdan başladım,
yenə qayıdıram Tayquça!
Döyünmə belə həyəcanla,
çırpınma, sakit ol,
ürək qoçaq.
Olan oldu,
neçə ev-ocaq
intizarla saraldı, kədərlə doldu.
Bura xırdaca Krım kəndi Tayquçdur.
Dəngil-düngül daxmaları,
biri üstü havarlı;
biri tayqıçdır.
Burdan qabaq cəbhəyə
bir saatlıq piyada yoldur.
Yol deyəndə, yol hanı?
Bombalar, minalar
çopur-çopur çopurlayıb hər yanı.
Tez-tez qabaq cəbhəyə gedərdik.
Orda Vətən oğullarıdır.
Cəbhə boyunda diviziyamız



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

azərbaycanlı döyüşçülər.
Cəbhə hələ sükutdadır əfi kimi.
Hər an başlaya bilər
vurhavur,
qırhaqır.
Mülayim bir yaz səhəri
xəbər gəldi:
almanlar kəsir
tikanlı məftilləri,
hücum yaxındır.

Cəbhədə Aslan nəvəsi Novruzu gördüm.
Çiynində çarpaz avtomat.
Dedi: - Şair, gedirəm
qabaq səngərə,
salamat qal, salamat!
Getdi, bir də qayıtmadı
Aslan nəvəsi Novruz.
Onunla bir süfrədə
nə çörək kəsə bildik, nə duz.
Bir də görmədim onu -
boylu-buxunlu,
mehriban, gülərüzlü el oğlunu.

Biri də vardı -
Şapalaq gözlu,
köhnə odun kimi quru,
təsadüfi şöhrətə minmiş
diviziya prokuroru.
Bir də gənc vətən qızı -
bəstə boylu Böyükxanım;
şəfqət bacısı.
Sonralar bildim ona
üz verib nə qədər taleyin acısı.
Neçə-neçə döyüşçü gördüm
gözlərində düşmənə kin;
döyüşə hazır,
yuvasını qoruyan şahin təkin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çoxlarını dün gördüm,
bu gün görmədim.
Kim bu gün getdi,
sabah gedəcək kim?
Silahla mürgüləyib,
silahla dururdular
vətən oğulları.
"Yeldaşı" deyən də oldu onlara,
"naşı" deyən də.
Bəzi harınları da gördüm,
"Vətən, Vətən uğrunda!" bağırırdılar
dayanıb gendə.
Qardaş səsləri də eşitdim -
rus, Azərbaycan,
gürcü, erməni dilində -
vətənin bu ağır günündə,
ağır ilində.

*Bakı-Mərdəkan, 1981*

## MƏKTUBLAR SİLSİLƏSİ

***Səndən sənə***

*İlk məktub*

Adım Rəsul.
Əlavəsi ilə Rəsul Rza!
Şair olmaq istəyirəm,
öz bildiyim kimi
yaza-yaza.
Yaşım 21;
maaşım 42 manat;
tanış olaq!
Gözləyəcəyəm sabah
axşam saat altıda,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sabir bağının
aşağı küncündə.
Dama-dama kepkamdan,
zolaq-zolaq köynəyimdən,
bir də ləng yerişimdən
tanıyarsan məni.

S ə n d ə n
……………..

*Sənə ikinci məktub*

Dinmədin.
Bəlkə incimisiniz.
Səhvimi düzəldirəm.
Sən yox! Siz!
Məktub qayıtdı arxasında
bir sətir:
"Təsadüfi tanışlığı sevmirəm!"

S ə n ə

"Od gəlini"nə iki bilet var.
Nə olar...

S ə n d ə n
……………..

S ə n ə

Tamaşaya tək getdim.
Salon bomboş göründü mənə.
Boş göründü səhnə -
nə Babəki eşitdim,
nə Aqşini.
Hey axtardım
gözlərinin küskün baxışını,
saçlarının dağınıq naxışını.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə n d ə n
…………….

*Sənə gündə bir məktub*

Dünən gördüm səni
yasəmən rəngli paltarda.
Nə gözəlsən deyərdim;
gözəldən gözəl olmasaydın.
Şit tərifdən xoşlanmıram,
yəqin sən də.
Bir şəklini tapaydım,
ürəyimin başından asaydım.
Keçdin getdin,
qatarından ayrılmış
durna kimi.
Duymadın
arxanca pırhapır
uçub gedən qəlbimi.

S ə n ə

Sabah Bir maydır.
Yəqin çıxacaqsan nümayişə.
Bəlkə, yolun bizim küçədən düşə.

S ə n d ə n
……………..

S ə n ə

Sabah Müşfiqlə Dilbər
yeni tamaşaya gedirlər.
Bizi də dəvət edirlər.
Razı olsanız, əgər...

S ə n d ə n
……………..

Mən o tamaşanı görmüşəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə n ə

Bir də baxın
Nə qəm!

S ə n d ə n

...Məni gözləyin!

*Sənə göndərilməmiş məktub*

Dünəndən aləm dəyişib gözlərimdə.
Çiyinlərimdə qanadlarım var.
Dörd yanımda fasiləsiz bahar.
Əlimdə - bir dəfə tutmadığım
əllərinin istisi.
Gözlərimdə - gözlərinin
sonsuz şəfqəti, mehribanlığı.
Könlümdə - görüş vədinin
kovrək intizar yanğını.
Nə vaxtı dedin, nə görüş yerini.
Gözlərimlə bütün gün darayacağam
Bakının dolaşıq küçələrini.

S ə n ə

Füzulini göndərirəm.
İstəmişdiniz.

S ə n d ə n

Aldım.
Təşəkkür edirəm!
"Gənc işçi"də bu gün
şerinizi oxudum,
qəribə forması var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə n ə
Yeni həyat
yeni forma istəyir.
Təbiət də hər il
yeni rənglər geyir.

S ə n d ə n

Sözləriniz hansı məqalədəndir?
Çox köhnə qəlibdir.
Göy çəmənin rəngi,
axar suyun ahəngi,
qızılgülün ətri
əvvəl necə vardı
yenə elə deyilmi?

S ə n ə

Demək ki, nə vardı,
necə vardı,
eləcə də qalacaq?!
Əmin-arxayın
yıxılıb-yataq?!

S ə n d ə n
………………

Sənə, yenə Sənə!

*Haşiyə*

Bir gün hədəf oldun
qaradan qara böhtana.
Bu ədalətsiz ittihamda
mənim də yaralı payım vardı.
Bəlkə, indi
bir çoxları
əməlindən utandı.
Yox, onlarda utanan üz hanı?!
Zaman keçdi, illər yudu ləkəni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilən bildi,
aylarla, illərlə,
sən çəkəni,
mən çəkəni.
Bəlkə, doğru deyiblər:
"Çəkişməsə bərkişməz insan".
Nə qədər ağ olsa,
o qədər tez açılar yalan.

S ə n ə

Uzaqlardasan.
Uç gün, üç gecə
yolu var
bu məktubun indi.
Olsun.
Bir ümidlə könlüm isindi.
Bu məktubu sən açacaqsan.
Sən oxuyacaqsan.
Bəlkə, dodaqlarında
çiçəklənəcək
kövrək bir təbəssüm.
Səndən gec-gec gəlir məktub.
Necə gileylənim,
necə küsüm?!
Xatırladım o əziz günü.
Xoşsifət qadın:
"Bir manatınız yoxdur, - dedi, -
sonra gətirərsiniz".
Qeyd dəftərinə
qoşa imza atdıq biz.
Sonra başladı
ayrılıq günləri;
acıdan acı.
Sonra başladı
nigaran qəlbin
ülfət ehtiyacı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə n ə

Sənsizləmiş gecələrdə
sənli gecələr üçün
darıxıram.
Yığın-yığın adam içində
bizə tənhalıq olan
küçələr üçün
darıxıram.
Küsüb-barışdığımız
günlər üçün
darıxıram.
Örpəyinin saçağına
vurduğum düyünlər üçün
darıxıram.
Darıxıram gülüşün uçün,
qəmli gözlərin üçün,
qaşlarının kölgəsi üçün.
Ümidlərimin
nigaran ölkəsi üçün
darıxıram.
Məktubunu gözləyib,
yollara baxıb
darıxıram.
Verdiyim qərənfillərin ölüsünə
baxıb-baxıb
darıxıram.
Dünən hava sərin idi.
Bu gün yer, göy alışıb-yanır.

Könlüm, gözüm,
sükutum, sözüm,
barmaqlarımın başı,
yanağımdakı göz yaşı,
qəlbimin çırpınışı
səni anır.
Ad günüdür bu gecə.
Gedim, necə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

getməyim, necə?
Səninlə hər şey aydın idi.
Hər şey sualsız idi.
İndi hər şey "necəli",
hər şey "nə sayaqlıdır",
neçə qərar yanlışdır.
Neçə qərar şübhəli,
neçə qərar haqlıdır,
Elə bil, sualların cavabını,
nə varsa,
özünlə aparmısan.
Elə bil, bütün cavabların
sualı səndədir, səndə.
Səni axtarıram
durğun havada,
külək əsəndə.
Gecənin aydınlığında,
gündüzün toranlığında
səni axtarıram.
Arzuların işığında,
ümidimin qaranlığında
səni axtarıram.
Səndədir səbrim, dözümüm.
Sənsiz tapa bilmirəm
özüm özümü.
Əzizim, könüldaşım, mehribanım,
qoyma sənsizlik qürbətində
qəm oduna yanım.
Nə mənə yaraşır bu sızıltı,
nə sənə,
gəlsənə.
Sənə
Necəsən, əzizim?
Sən də, o da.
Axı, indi tək deyilsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Heç olmasa, pəncərəyə gələydin,
görəydim səni.
Səhərdən axşama,
axşamdan səhərə
gözləyəcəyəm.
Aramızda mərtəbələr,
küçənin asfalt zolağı,
hava, kölgə parçaları
və heç bir ölçüyə sığmayan
imkansızlıq hasarı.
Pəncərəyə gəlsən də,
eyni həsrətdən yanacağıq;
mən də, sən də.
Gözlərimiz görəcək,
qulaqlarımız eşidəcək,
lakin...
Nə dodaqlarının duzunu,
nə titrək nəfəsinin
sərxoş edən ılıqlığını,
nə saçlarının qu yumşaqlığını -
duya biləcəyəm.
Olsun!

Gəl pəncərəyə!
Onu da gətir!
Səni bu qədər incitmiş
günahsızı.
Nigaranlığımı qınama!
Onu da gözlədik
bir vaxt bu binanın qapısında.
Birdən, elə bil, yer titrədi.
Pəncərə, qapı sındı
çilik-çilik.
Özü çıxmadı,
onu çıxardılar.
O günlərdən beynimdə
acı xatirələr var.
Gəl pəncərəyə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənə şirin yuxu vermiş
həkimini çağır,
gözləyəcəyəm.
Çiskin yağış yağır,
yağsın!
Dayanacağam
üç gün, üç gecə də yağsa.
Yağış,
tufan,
sazaq nədir.
Sən sağsan, sağsan!
O da sağdır!
Mənə elə gəlir ki,
hərtərəf bayram,
hər yan nəğmədir,
bayraqdır.

S ə n ə

Gözlərindəki yumşaq kədər,
görüş vədəli səhər.
Sənə,
ancaq sənə deməli sözlər,
gəncliyimizin şahidi - şəhər,
daha nələr, nələr üçün darıxıram.
Darıxıram sükutun,
səsin üçün;
məhəbbət qoxulu nəfəsin üçün.
Danış! Danış" ın,
"bəsdir, bəs"in üçün
darıxıram.
Saçlarının hər teli,
gözlərinin könlümcə
dili üçün
darıxıram.
Darıxıram bahar üçün, -
sənə oxşarına görə.
Darıxıram yasəmənlər üçün;
saçın qoxulu



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

salxımlarına görə.
Darıxıram
nəğmələrinin yadigarı -
yarpaqlarının pıçıltısı üçün.
Darıxıram
gözlərini andıran
ulduzların işıltısı üçün.
Həyəcan selli addımlarının
səsi üçün.
Dodaqlarının gülüş töhfəsi üçün
darıxıram.

Hər şey üçün darıxıram.
Hər şey ki, səni xatırladır.
Nəfəs aldığın hava,
baxdığın yer, göy,
sığalladığın çiçəklər üçün,
əllərinə toxunan,
dörd yanında yalmanan küləklər üçün
darıxıram.
Birlikdə dinlədiyimiz
nəğmələrinin bəmi, zili,
sakit gölə düşən kölgəmizin
xəyal - şəkli üçün
darıxıram.
Fikrim, xəyalım, könlüm
səndədir.
Bütün aləm - yaxın, uzaq
səndən parçadır,
sən dadır.
Necə darıxmayım,
birər darıxımdırsa
sənsiz keçən gündüz, gecə,
necə darıxmayım, necə!

S ə n d ə n

Dünən küləkdi yenə.
Bakı xəzrisi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çapqın edirdi karvankəsən
bədəvi kimi.
Ağaclar əsirdi
əsim-əsim.
Bu gün hava sakitdir.
Nə ünüm yetir sənə,
nə səsim.
Fikrindən yata bilmirəm.
Nə qədər sualım var,
nə qədər gənəşiyim.
Elə bil, dar bir qəfəsdir
geniş evim.
Yaz görüm, başağrın necədir?
Ürəyin necədir?
Sakit gecədir,
Ay gəzir buludlar arxasında.
Gah görünür, gah gizlənir.
Elə bil,
qəm çırağıdır.
Hardasa bizdən uzaq,
bizdən hündürdə
hava seli
buludları dağıdır.
Buludlar axıb gedir,
göy üzü təmizlənir.
On dörd günlük Ay
yayıb dənizə tellərini.
İndi kim isidir
əllərini?
Sən çox üşüyənsən, axı;
əllərin illah...
Ulduzları saldım yola.
Pəncərəmi açdım tay-tay.
Səhər atıldı otağıma.
Bəlkə, səhərlə gəldin dedim.
Sevdiyin yasəməni paltarımı geydim.
Yollara baxdım;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baxdım
yorulunca.
Baxdım,
gözlərim göynəklə dolunca.
Qabaq-qarşı on mərtəbə bina
Qurtardı bu günlər.
Neçə ailə köçdü,
neçəsi köçür, köçəcək.
Pəncərələrə Günəş tökülüb
lopa-lopa,
çiçək-çiçək.
Baxıram adamlara
üzlərində nələr yazılıb, nələr...
Kimi illərin darısqallığında gəlib,
kimi üçü beş eləyib.
Kimi neçəncidir, belə
köçhaköç eləyib.
Çoxu iş adamıdır;
köçü də bir-iki bağlama.
Gör nələr gəlir,
nələr gəlir ağlıma.
O gün olaydı
nə mənzil dərdi qalaydı,
nə güzəranlıq dərdi.
Nə ayrılıq, nə ölüm olaydı,
nə qayəmizə yaraşmayan
ayrı-seçki,
bölüm olaydı.
Sevinc də, səadət də
həm ümumi olaydı,
həm fərdi.
Dünya neçə gün olsa da,
qara olmayaydı.
Sevinc çimdik-çimdik,
səadət xırda, irmik
ümid tikə-para olmayaydı.
Sahil parkım sən görməmisən.
Görəydin nə ürəyə yatımlı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nə könülə xoşdur.
Sıra ağacların kölgəsi
uzanıb sahil boyu,
sanki dənizin nəğməsindən sərxoşdur.
Sənə kimdən deyim,
qonşumuzun qızı
Tərgüldən.
Yadındadırmı,
kuklasının paltarına
naxış salardı
nöqtə, vergüldən.
Bauman institutunu qurtarıb gəlib.
Təyin kağızı İrkutskadır.
Eh, əzizim, arzu nə sonsuz,
ömür nə qısadır.
Bu qısa ömrü də
ayrılıq doğrayanda
parça-parça,
hövlümdən az qalıram
öz-özümdən qaçam.
Bu da mümkün deyil.
Söykək olur dözüm mənə.
Nə sözün var,
kağızla yox,
bəsdir,
gəl, də özün mənə.

S ə n d ə n

Bu gün havanın şaxı sınıb
bir az isinib.
Amma üşüyürəm yenə.
Məktubun gəldi.
Bizdən nigaran olma.
Birtəhər keçinirik.
400 qram xurma,
üç arşın çit verdilər
qapalı dükandan.
Çörək hər gün eynidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Suyu dənizdən çox.
Əhdimizə sadiq -
yazıram nə var,
necə var.
Dünən gecə şəhərə soxulub
bir canavar;
ac imiş... yazıq!
Bilmirəm, canavara
yazıq demək olarmı?
Gecələr şəhər
dərin yuxuya girir.
Göydə ulduzları sayıram
bir-bir,
hansıdır baxtım.
Mənə... gülmə!
Qınama!
Fala baxdım.
Sağ-salamat gələcəksən.

S ə n ə

Qaranquşlar da gəldi
uzaq səfərdən,
qar lopaları sürüşüb düşür
çəpərdən.
Çəpərin yarısı yanıb,
yarısını tank yapışdırıb yerə.
Orda bənövşə çıxıbmı?
Novruzgülü necə?!
Yenə "dolu" yağdı bu gecə.
Dörd dəfə ara verdi,
başladı yenidən.
Dünən bir düşmən alayını
qopartdıq yerindən.
Bu "dolu" da dünənin qisasıdır.
Göy gurultuları
hər yanı sarsıdır.
Bağışla, əzizim,
günlər olur ki,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

insanın ruhuna, qəlbinə
duman, sis dolur.
Səndən nə gizlədim,
burda adam bir az
fatalist olur.

S ə n ə

Üç gündür, üç gecədir
qar yağır.
Budaqlara yüklənib.
Hər yana səpilir qar.
Otağım soyuqdur.
otağım daxmadır.
Çöl donuşluqdur, yəqin.
Tavandan su axmadı.
Gecə yarısı yandı,
qurtardı şam.
Əlimə hovxura-hovxura
Ay işığında qurtardım məktubu.
Kim bilir,
sabah bəlkə gəldi,
bəlkə gəlmədi.
Bəlkə, burdakı tarix
son kəlmədir.
Sabah... Sabah...
Bəlkə, yenə yaza bildim.
Bəlkə, daha...
Az qalır,
açılmamış məktub kimi,
nələr gətirəcək,
nələr aparacaq
sabaha.

S ə n d ə n

Bu gün hava mülayimdir.
Ancaq üşüyürəm mən.
Məktubun gəldi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

axşamçağı, dünən.
Oğlun yaman dəcəl olub.
Dilindən düşmür adın.
Hamını səninlə hədələyir.
Yaman kövrəkdir.
Nə desəm, xətrinə dəyir.
Bu gün yüz qram qənd aldım
səksən manata.
Deyir, hamısını mənə verin,
yoxsa yazaram atama.
Çörək hər gün eynidir:
Çəkisini deyirəm.
Oğlun kürlük eləyir.
Mən necə olsa yeyirəm.
Anan aglamaqdan
az qala kor olub.
Oğlum, balam deməkdən
dildən düşüb, yorulub.
Sən gedəndən,
bu qış günü,
eyvanda yatır gecələr.
Deyir: "O çöldə, səngərdə yatsın,
mən isti otaqda!
Necə olar?"
Deyirlər, kənar küçələrə yenə
tək-tük canavar gəlir.
Olanları yazıram bir-bir.
Bu günlər qara kağızı gəldi
qonşumuzun.
Anasına oxuyanda kağızı
arvad birdən qocaldı,
ağardı qaşları da.
Qurudu qaxaca döndü özü,
qurudu göz yaşları da.
Üç gündən artıq dözə bilmədi.
Yumdu gözlərini.
Boğçasından çıxdı
bir nişan üzüyü,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yüz manat pul - nəzir.
Bəzən ölüm də
səadətə bənzəyir.
Ax, bircə gələydin, əzizim!
Nə uzun sürdü bu səfər.
Gündüz yenə dözmək olur
birtəhər.
Amma bu qaranlıq,
bu uzun,
bu vahiməli gecələr...
Gecələr, şəhər
qara sükuta bürünür,
küçələr, evlər
ölüdən ölü görünür.
Qulaq cingildəyir.
Adamı vahimə basır,
bu səssizlik,
bu zülmət içində.
Yaxın, uğurlu səhərə
inamla yaşayır şəhər.
Hər gün məktub göndər...
mümkünsə, əgər.
Səndən
Payız elə həzindir,
Elə həzin;
elə bil, yanağından axan
gözyaşıdır,
qərib bir kimsəsizin.
Nə sən varsan,
nə səsin.
Nə dodaqlarımı yandıran
isti nəfəsin.
Yorğunam.
İşdən indi gəlmişəm,
Nə nəfəsimi dərib,
nə dincəlmişəm.
Bu gün dəftərlər də,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adi şagird dəftərləri,
elə bil, yeddi qat ağır olub.
Məktəb qarovulçumuz Badam xala
dünən uşaq üstündə ölüb.
Uşaq oğlandır,
sapsağlam.
Oxşayır buz baltasına.
Düşünürəm, bu iki xəbəri
necə verək cəbhəyə,
uşağın atasına!

S ə n ə

Qaranquşlar gəldi
uzaq səfərdən.
Xarlamış qar lopaları
sürüşüb düşür çəpərdən.
Arx döşündə meh tərpədir
yarpaqları.
Axşamlar bənövşə rənglidir.
Saatlar nə uzundur.
Dəqiqələr nə ləng gedir!
Bu gün qəzetdə bir yazı gördüm
ilan zəhəri kimi.
Sözləri tikanlı, yalanlı,
qanlı,
dumanlı;
düzülüb yan-yana -
əqrəb sürüsü.
Elə bil, çini qab mağazasına
böyələkli dana girib.
Elə bil, nankorluqla kəmfürsətlik
yarışa, imtahana girib.
İllərlə çörək kəsdiyi dostuna
nə qalıb deməsin!
Havadan bahar qoxusu gəlir,
bahar qoxusu.
Hərdən baş qaldırır
bir duyumönü -
şaxta, sazaq qorxusu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə n d ə n

Bu gün də gəlmədi məktubun,
bu gün də.
Hava tutqundur,
yarpaqlar sapsarı -
intizar rəngindədir.
İntizar rəngindədir
pəncərə şüşələri,
otağımın divarları.
Bu gün də dünən kimi
üfüqdə Günəşin şəfəqləri
sönən kimi,
qəlbim həzin-həzin sızıldadı.
Bu gün də dünən kimi.
Dünən bir gün tez idi.
Bir parça ümid
bir tikə inam vardı.
Bu ümid də yoxdur,
inam da.
Bilirsənmi, nə yaman olur
ürəkdə acı, göynəkli
nigaranlıq oyananda.
Nə təsəllidən bir əsər,
nə bir çimdik güman olur.
Qəlbim ovcumdadır, sanki.
Qəlbim vücudumun hər yerindədir.
Başımda, qolumda, sinəmdə
nəbzimi titrədir:
Varam!
Varam!
Varam! - deyə,
indicə,
indicə,
parçalanaram! - deyə.
Bu gün də yenə
gözlərimdə örtülü qapı,
qulaqlarımda
ayaq səslərinin yoxluğu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beynimdə
Qırılmayan uzun bir sükutun
ayrılığı;
qara xəbər kimi ağır,
qara kədər kimi ağır.
Edam gününə açılan
səhər kimi ağır.
Ancaq bilirəm
gələcək məktub,
necə olsa, gələcək.
Necə gəlməyə bilər.
Sən varsan,
demək, ümid də var,
inam da.
Qarşıda sonsuz bir gələcək var;
müjdəli bir gələcək.
Keçəridir inanıram,
bu xəzəl duyumlar,
bu toranlı xəyal.
Bu sızıltılı həsb-hal.
Məktub gələcək.
Gəl onda gör:
sevincin fırtınasını,
gileyli günlərin yasını,
hər səhifədə
həyat imzasını.

S ə n ə

Hərarətim 4 artıq
adidən.
Bədənin qüvvəti,
ömrün dəqiqələri,
həyat bağlarıdır –
bir-bir yox olub gedən.
Dərman şüşələrindən
masamın üstündə tünlükdür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kim deyir ki,
dünya beşgünlükdür?
Həsrətinlə hər günüm
bir il keçir.
Hər dəqiqə qəlbimdən
neçə arzu,
neçə nisgil keçir.
Gözlərindən uzaqda,
nəfəsindən uzaqda,
Pıçıltılı, mehriban,
məhrəm, tənhalıq dolu
xoş səsindən uzaqda,
yalqızlıq içindəyəm.
Görüş gününü gözləyirəm,
xoşum gələn
paltarını geyəsən.
Sən də başdan-ayağa,
görünüşün, ətrinlə - yasəmən.
Vüsalımız bir ömür,
qane ola bilmərəm
aza mən.

*1933-1976*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MÜNDƏRİCAT**

***Oxuya bilmədiyim kitab***

Prometey……………………………………………………………………………………..7
Ağasfər……………………………………………………………………………………….7
Qaluanın son gecəsi…………………………………………………………………………8
O'Henrinin ümid yarpağı, xəstə qız və həkimin ölümü…………………………………...9
Oxuya bilmədiyim kitab……………………………………………………………………..9
Pikasso ilə söhbət……………………………………………………………………….....11
Çarli Çaplinə…………………………………………………………………………………..12
Oxu, Robertino, oxu!......................................................................................................12

***Hər fəslin öz gözəlliyi var***

Hər fəslin öz gözəlliyi var…………………………………………………………………15
Bakıda qar……………………………………………………………………………………..15
Qış günü………………………………………………………………………………………16
Mən baharı duyuram……………………………………………………………………….17
Novruzgülü……………………………………………………………………………………18
Yaz gəlir………………………………………………………………………………….…19
Bahar…………………………………………………………………………………………..20
Payız yarpaqları……………………………………………………………………………21
Salxım söyüdün sarı yarpaqları…………………………………………………………..22
Yarpaqlar tökülməsin…………………………………………………………………………23

***İşıqlar üşüyəndə***

Lövhə…………………………………………………………………………………………24
Gül səsləri…………………………………………………………………………….…24
Nərgiz…………………………………………………………………………………………25
Üzü küləyə…………………………………………………………………………………26
Könlümə yağış düşüb………………………………………………………………………27
İşıqlar üşüyəndə……………………………………………………………………………28
Kövrək budaq…………………………………………………………………………………29
İşıq və kölgə……………………………………………………………………………….....30
Gün batanda…………………………………………………………………………………...31

***Yuxuma gəlmişdi Ezop***

Ezop………………………………………………………………………………………...32
Yuxuma gəlmişdi Ezop…………………………………………………………….........32
Bağbanın qəfləti……………………………………………………………………………34
Qaranquş və sərçə…………………………………………………………………….....35



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bağları qum basır……………………………………………………………………...37
Qoca timsah………………………………………………………………….......38
Ana qaz…………………………………………………………………………..39
Balıqların nəğməsi………………………………………………………………41
Məstan pişiyim…………………………………………………………………..42
Sərçə toyu………………………………………………………………………..42
Dalğalarda qalan ördək………………………………………………………….44
Dürək……………………………………………………………………………45
Namərdlik………………………………………………………………………..46
Qəhrəman turac…………………………………………………………………..49
Yuva və ana quş………………………………………………………………….51
Qatil……………………………………………………………………………...52
Köçəri quşlar……………………………………………………………..........52
Qorxu…………………………………………………………………………….54
Göy at…………………………………………………………......................55

***Pəncərəmə düşən işıq***

Aldanış…………………………………………………………………………...57
Pəncərəmə düşən işıq…………………………………………………………….58
Əks etmiş işıq…………………………………………………………………….62
Dünyalar………………………………………………………………..................62
Xoş qayıtdın……………………………………………………………...........63
Məhrəm oğru……………………………………………………………………..64
Divar daşı…………………………………………………………...............65
Do-re-mi………………………………………………………………..................66
Kibernetika……………………………………………………………….............67
Nə bilim?……………………………………………………………................68
Vay o gündən………………………………………………………………….…69

***Dözüm***

Dözüm……………………………………………………………………………....70
Uydurma………………………………………………………………………….70
Deyirsən……………………………………………………………………….…70
İkibuynuzlu İskəndər, sirli tütək, dolu ürək haqqında…………………………..71
Acılıq……………………………………………………………………………..72
Sığorta…………………………………………………………………………....72
Dördümüzün söhbəti……………………………………………………………..73

***İnsan***

İnsan……………………………………………………………………………...75
Saatım – qəlbim……………………………………………………………….…75



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Saatımı bərk qursam”……………………………………………………………….....76
Qəribə arzular…………………………………………………………………………77
Kefli İskəndər…………………………………………………………………………78
İskəndər, Çatski, Çayld Harold……………………………………………………….78
İblislə söhbət…………………………………………………………………...........80
Dəlidən doğru xəbər………………………….………………………………………83
Nənəmuç………………………………………………………………………….....83
Yersiz məzəmmət……………………………………………………………………84
Açım, ya bağlayım……………………………………………………………………84
Qoy çəkim………………………………………………………………………….…85
Təsadüfi rəqəmlər və insan səsi ………………………………………………………...86
Etüd…………………………………………………………………………………....87
İkinci etüd……………………………………………………………………………. 88
Miniatürlər……………………………………………………………………………89
Daşlar nə deyirdi……………………………………………………………………...90
Həyat novellası…………………………………………………………………………..91
Xülyalar yolunda…………………………………………………………………......91

### *Ölümdən güclülər*

Ölümdən güclülər……………………………………………………………………..93
Bir dostun xatirəsi…………………………………………………………………….95
Qəhrəmanın ölümü……………………………………………………………………97

### *Aydındır şeir dili*

Təklif……………………………………………………………………………….....102
Giley……………………………………………………………………………………103
Aydındır şeir dili…………………………………………………………………….104
Yeni söz…………………………………………………………………………….....104
Ənənə………………………………………………………………………………….104
Neyləyim, ay bala!........................................................................................................105
Məzmun………………………………………………………………………………...107
Fantastika………………………………………………………………………….107
Qafiyə…………………………………………………………………………………..108
Qısa şeir……………………………………………………………………………...109
Mahnı……………………………………………………………………………...........109
Natiq dedi ki…………………………………………………………………………110
Şeir, vəzn və məhəbbət haqqında dastan……………………………………………114
Mayakovski……………………………………………………………………..117
Tapşırıqlı mərdimazar…………………………………………………………………..122
"Bəzi-bəzi" azarı…………………………………………………………..........123
Şerin gücü……………………………………………………………………........124
Beləlari də var…………………………………………………………………………..126



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tənqid nəcib sənətdir………………………………………………………………………...128
İzah………………………………………………………………………………………...135
Karvanımız gedəcək………………………………………………………………………135

*Damğa*

Çeşid-çeşid insanlar……………………………………………………………………….137
Damğa……………………………………………………………………………………….138
Rüşvətxorlar mərsiyəsi……………………………………………………………………141
Sual-cavab…………………………………………………………………………………...142
Qora ikən mövüc olmuşlar………………………………………………………………..143
Qorxuram…………………………………………………………………………………….143
Və……………………………………………………………………………………………..144
Qonşu paxıl olmasa bağ çəpəri neyləyir…………………………………………………146
Yaltaq………………………………………………………………………………………..148
Anonimçi…………………………………………………………………………………….149
Kaftarlı……………………………………………………………………………………….151
Sitatcıl………………………………………………………………………………………..153
Ağrılı sual……………………………………………………………………………………156
Alicənabov dedi……………………………………………………………………………...156
Pərsəng daşı………………………………………………………………………………….158
Məsləhət……………………………………………………………………………………..159
Çibinlər……………………………………………………………………………………….161
Mığmığalar…………………………………………………………………………………...161
Mən bağa yox, ayrı bağa!...............................................................................................163
Gözlər…………………………………………………………………………………………..164
Sadə səbəb……………………………………………………………………………………...165
Baş üstə…………………………………………………………………………………………....166
Ərzi-hal………………………………………………………………………………………....169
Həzər……………………………………………………………………………………………....170
Qarğıbirliyində yubiley………………………………………………………………………....172
Ədatlar və insanlar…………………………………………………………………………...176
Həqiqət…………………………………………………………………………………….......177
İclas bəlası……………………………………………………………………………….......177
İkiaçılan………………………………………………………………………………………...178
Doğrunun acısı……………………………………………………………………………….178

*Üzüyümün qaşı firuzədəndir*

Bakı………………………………………………………………………………………..183
Gəncə……………………………………………………………………………………...185
Üzüyümün qaşı firuzədəndir……………………………………………………………...186
Sənə də qalmaz…………………………………………………………………………….186
Ala gözlü yar……………………………………………………………………………….....187



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəklik…………………………………………………………………………………...188
Yeddi çinar…………………………………………………………………………...189
Gilavar……………………………………………………………………………….190
Axşam görüşləri……………………………………………………………………...190
Bəlkə yarım gələr oldu………………………………………………………………191
Əhdimizə inan yar…………………………………………………………………...192
Əfv etdim hər şeyi…………………………………………………………………...192
İnsaf da yaxşı şeydir…………………………………………………………………193
Stalin……………………………………………………………………….............194
Ölən nəğməm………………………………………………………………………..195
"Qəm karvanı"……………………………………………………………………….195

### *Vaxt var ikən*

Vaxt var ikən………………………………………………………………….......201
Vaxtı öldürək dedin……………………………………………………………........202
Vaxt………………………………………………………………………………….202
Vaxtın karvanı……………………………………………………………………….203
Əsrlərin səslənməsi………………………………………………………………….204
Varaqlardan birində…………………………………………………………………205
Başqa varaq………………………………………………………………………….205
Yeni səhifə…………………………………………………………………………..205
Üz-üzə……………………………………………………………………………….206
Oxuyuram bir də səni………………………………………………………………..207
Cavab…………………………………………………………………………………..208
Hər yaşın bir nisgili………………………………………………………………….208
İnan……………………………………………………………………………...…210
Gənclik, qocalıq, vəfasızlıq və sədaqət haqqında……………………………….........210
Buruqların söhbəti…………………………………………………………………....211
Qum dənələri, təqvim vərəqləri…………………………………………...........212
Perpetium-mobilə…………………………………………………………………….213
Hamımız yoldayıq…………………………………………………………………....213

### *Çinar ömrü*

Həyat eşqi…………………………………………………………………………215
Beyin fosfor istəyir…………………………………………………………………..220
Mən gedəsi deyiləm………………………………………………………………….223
Sular axır gümüşü…………………………………………………………………...224
Bizim doktor………………………………………………………………………227
Doktorla ürək söhbəti……………………………………………………………...229
Səhərin qapısında…………………………………………………………………….232
Allaha məktub………………………………………………………………………..233



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həyat…………………………………………………………………………………....234
Bahar hər il gələcək………………………………………………………………….235

### Xəstələr evindən reportaj

Gündüz hansı, gecə hansıdır…………………………………………………….......236
Bir gecənin tarixi…………………………………………………………………….237
Payızlı duyumlar……………………………………………………………………..239
Hardayam?...................................................................................................................240
Qarşı yöndə…………………………………………………………………………..241
İndi…………………………………………………………………………………...241
Antiməğlubiyyət……………………………………………………………………..242
Yuxular görürəm……………………………………………………………………..243
Nazimlə görüş………………………………………………………………………..244
"Hələ tezdir" dedilər…………………………………………………………………246
Əvəzsiz hədiyyə……………………………………………………………………...248
Qəribədir dünyanın işi……………………………………………………………….249
Unutmayın…………………………………………………………………………...250
"Olmasın, olmasın..."……………………………………………………………….252
"Səhərlərim açılır..."…………………………………………………………………253
"Ömrün qəmli günlərindəyəm..."……………………………………………………253
Çinar ömrü…………………………………………………………………………...254

## Torpaq olmuş sümüklər

Bioqrafik etirafım……………………………………………………………………258
Torpaq olmuş sümüklər……………………………………………………………...262
Ömürdən səhifələr…………………………………………………………………....270
Krım xatirələri………………………………………………………………………..279
Məktublar silsiləsi…………………………………………………………………....292



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Alianna Duxanina*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 12.12.2004. Çapa imzalanmışdır 25.06.2005.
Formatı 60x90 $^{16}/_{1}$. Fiziki çap vərəqi 20. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 170.
Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.



Created with nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional